Xalqın qəzeti!
# Xalq qəzeti
№ 184 (30300) 29 avqust 2023-cü il, çərşənbə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Ermənilərin 30 il dağıtdığını biz 2 ilə artıq qurmuşuq, insanlar qayıdıblar. Laçın şəhərini cəmi 8 ay ərzində qurub-yaratmaq xalqımızın həm istedadını, həm iradəsini göstərir.**

## Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin işbirliyi yeni mərhələdə



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul edib.**

Dövlətimizin başçısı Yaşar Gülərin Türkiyənin milli müdafiə naziri vəzifəsinə təyin edilməsini Türkiyə Prezidenti tərəfindən göstərilən böyük etimad kimi dəyərləndirdi və ona vəzifəsinin icrasında uğurlar arzuladı.

Prezident İlham Əliyev Yaşar Gülərin Azərbaycan və Türkiyə Silahlı qüvvələrinin işbirliyi ilə bağlı böyük səylər göstərdiyini və töhfələr verdiyini vurğuladı, bu işbirliyinin çox yaxşı səviyyədə olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanın Prezident seçiləndən sonra Azərbaycana həyata keçirdiyi ilk dövlət səfərinə toxunaraq, bu səfər zamanı Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışının önəmini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən Yaşar Gülər özünün və rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərdən böyük məmnunluq və şərəf hissi duyduqlarını bildirərək, ilk növbədə, Türkiyə Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Türkiyənin milli müdafiə naziri torpaqlarımızın işğaldan azad edilməsinə toxunaraq, şəhidlərimizin ruhunu ehtiramla yad etdi, Azərbaycan əsgərlərinin fədakarlıq və qəhrəmanlıqlarının heç zaman unudulmayacağını dedi.

Yaşar Gülər qeyd etdi ki, Ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində Azərbaycanın beynəlxalq aləmin önəmli və nüfuzlu üzvünə çevrilməsi böyük qürur hissi doğurur. Nazir iki ölkənin dövlət başçıları arasında sıx münasibətlərin və təmasların əlaqələrimizin daha da güclənməsi işinə çox müsbət təsir göstərdiyini bildirdi və azərbaycanlı həmkarları ilə səmərəli qarşılıqlı fəaliyyətin həyata keçirildiyini qeyd etdi.

Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən hərbi sahədə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

## Dostluq və əməkdaşlıq məmnunluq doğurur

*Moldova Respublikasının Prezidenti Zati-aliləri xanım Maya Sanduya*



**Hörmətli xanım Prezident,**

Moldova Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Xoş ənənələr üzərində qurulmuş Azərbaycan-Moldova dostluq və əməkdaşlıq əlaqələrinin müvəffəqiyyətlə inkişaf etməsi məmnunluq doğurur. Siyasi əlaqələrimizin yüksək səviyyəsi bir sıra sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızı genişləndirmək üçün yaxşı zəmin yaratmışdır.

Kişineuda təşkil olunan "Avropa Siyasi Birliyi"nin ikinci Zirvə Toplantısında iştirak etmək məqsədilə Moldovaya səfərim çərçivəsində Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü, ikitərəfli münasibətlərin geniş spektri və əməkdaşlığımızın perspektivləri ətrafında apardığımız danışıqları ən xoş təəssüratlarla xatırlayıram.

Əminəm ki, Azərbaycan ilə Moldova arasında ənənəvi dostluq əlaqələrinin möhkəmləndirilməsi, xalqlarımızın mənafelərinə uyğun olaraq həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımızın dərinləşdirilməsi, birgə fəaliyyətimizin potensialından tam istifadə olunması naminə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Moldova xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 avqust 2023-cü il**

## Ermənistanın BMT şousu, Mendesin "dirijor"luğu və yeni müharibə üçün "hüquqi əsas"

**Deyəsən, Ermənistan rəhbərliyi və dünya erməniliyi Qarabağda humanitar böhran, etnik təmizləmə və soyqırımı kimi iddiaları BMT tribunasına yenidən çıxarmaq xülyasına düşüb. Görünür, bu il avqustun 16-da qurumun Təhlükəsizlik Şurasının iclasında yaşanmış fiasko yetərli olmayıb. Bu baxımdan Fransa Prezidenti Emmanuel Makronun bir neçə gün öncə bildirdiklərini diqqətə çatdırmışdıq. Makron ölkəsinin sözügedən qondarma məsələnin BMT TŞ-də bir daha müzakirəsi üçün "təşəbbüs" göstərəcəyini vurğulamışdı.**



Qeyd edək ki, qurumun avqustun 16-da keçirilmiş iclasından əvvəl Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru, hazırda beynəlxalq hüquq üzrə ekspert kimi fəaliyyət göstərən yüksək reytinqli dələduz–hüquqşünas Luis Morena Okampo "Ekspert rəyi: 2023-cü ildə ermənilərə qarşı soyqırımı" adlı hesabat hazırlamış və sənəddə Qarabağda baş verənlərin növbəti "erməni soyqırımı" olduğunu əsaslandırmağa çalışmışdı. Əlbəttə, istəyinə nail ola bilməmişdi. Okamponun beynəlxalq ictimaiyyəti çaşdırmaq cəhdləri fayda verməmişdi.

İndi isə görünür ortaya yeni bir dələduz çıxıb. Onun adı Xuan Ernesto Mendesdir. Okampo kimi o da erməni lobbi və diasport təşkilatlarının, necə deyərlər, at oynatdıqları Argentinadandır. Ancaq Okampodan fərqli olaraq, Mendes daha stajlı və təcrübəli dələduzdur. O, 2004-2007-ci illərdə BMT-nin Baş katibi Kofi Annanın köməkçisi işləyib. 2010-2013-cü illərdə BMT yanında insanlıq əleyhinə cinayətlərlə bağlı qurumda xüsusi məruzəçi olub. Yəni, Okampotək Mendes də soyqırımı məsələləri üzrə ixtisaslaşmışdır. Hazırda ABŞ-ın Vaşinqton Universitetinin insan hüquqları üzrə professorudur.

(ardı 4-cü səhifədə)

## Rusiya öz daxilində "Talış-muğan respublikası" yaratmaq istəyirsə...

**Sən demə, bu il avqustun 7-də Rusiyanın Yekaterinburq şəhərində qondarma "Talış-muğan muxtar respublikası"nın yaranmasının 30 illiyi"nə həsr edilmiş tədbir keçirilibmiş.**

Əlbəttə, bu o qədər primitiv oyundur ki, Azərbaycanın Rusiyadakı səfirliyi onunla bağlı Xarici İşlər Nazirliyinə nota verməsəydi, nəinki Rusiyada, heç toplantının təşkil olunduğu Yekaterinburqun özündə də ondan xəbər tutan tapılmayacaqdı. Əlbəttə, səfirliyimiz üzərinə düşən vəzifəni yerinə yetirməli idi və yetirdi də.

(ardı 5-ci səhifədə)

## Fransanın Azərbaycana qarşı düşmənçiliyi açıq müstəviyə keçib

Səhifə ⇨ 3

## İnflyasiya aşağı düşməyə meyillidir




**Prezident İlham Əliyev çıxışlarının birində inflyasiyanın ikirəqəmli olmasının narahatlıq doğurduğunu, ilin sonuna qədər onun birrəqəmli səviyyəyə düşə biləcəyinə ümid etdiyini vurğulayıb.**

Dövlətimizin başçısı, eyni zamanda, inflyasiyanın ikirəqəmli olmasını təbii amillərlə yanaşı, subyektiv səbəblərlə də əlaqələndirib və hökumətin bunu ciddi araşdıraraq ilin sonuna qədər atılacaq addımlarla bağlı təkliflər verməsinin zəruriliyini bildirib. "Çünki Azərbaycanın,bütövlükdə, iqtisadi potensialı və iqtisadi sahədə əldə edilmiş nəticələr fonunda inflyasiyanın 12 faiz səviyyəsində olması, əlbəttə ki, arzuolunan deyil",– deyə ölkə rəhbəri qeyd edib.

(ardı 16-cı səhifədə)

## "The Critic" Azərbaycana böhtan atır



**Ermənistanın təbliğat maşınının var gücü ilə işləməsinə baxmayaraq, Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin, guya, "humanitar böhran"la üzləşməsi barədə uydurmalara inananların sayı günü-gündən azalır. Bu da səbəbsiz deyil. Çünki Azərbaycan tərəfi ortaya atılan hər bir iddianın yalan olduğunu təkzibedilməz faktlarla dərhal sübut edir.**

Əminliklə demək olar ki, Azərbaycanın səyləri nəticəsində ictimai-siyasi xadimlər, jurnalistlər, ekspertlər Qarabağdakı vəziyyətin real mənzərəsini öz təsəvvürlərində canlandıra biliblər.

Sözsüz ki, burada ermənilərin pul kisəsindən asılı olmayan qərəzsiz şəxslərdən söhbət gedir. Qərəzlilər isə öz ampluasındadır. Necə deyərlər, kor tutduğunu buraxmadığı kimi, onlar da çətin ki, öz mövqelərindən geri çəkilsinlər. Belələrindən biri britaniyalı jurnalist Pol Brayandır. Bu günlərdə onun Böyük Britaniyanın "The Critic" aylıq siyasi və mədəni jurnalında "Görməzliyə vurduğumuz böhran" sərlövhəli məqaləsi dərc olunub.

Müəllif yazır: "Ermənistanın valehedici gözəl xalq musiqisinin, ləzzətli mətbəxinin və keçilməz qürurunun arxasında ölümcül təqib, soyqırımı və tərk edilmənin faciəvi hekayəsi dayanır. İndi Ermənistanın qonşusu Azərbaycanın qətliam niyyətləri və əməlləri ilə bağlı nəsə mümkün qədər tez tədbir görülməsə, keçmişin dəhşətləri təkrarlana bilər".

(ardı 4-cü səhifədə)

## "Azərbaycan" qəzetindən "Xalq qəzeti"nə gələn yol

Səhifə ⇨ 14

# Türkiyənin hərbi qurumları ilə əməkdaşlıq genişlənir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Metin Gürakı qəbul edib.**

Söhbət zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyi vurğulandı. Metin Gürakın vəzifəyə təyin olunmasından qısa zaman sonra ölkəmizə səfər etməsinin önəmi qeyd edildi və bu səfərin əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.

Azərbaycan və Türkiyənin hərbi qurumları arasında səmərəli iş birliyinin həyata keçirildiyi qeyd edildi.

Görüşdə Azərbaycanın Vətən müharibəsində Qələbəsinin önəmi və ordumuzun bu qələbənin əldə olunmasında göstərdiyi yüksək peşəkarlığı və qəhrəmanlığı vurğulandı.

***AZƏRTAC***

## “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası”nın təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin informasiya məkanının təhdidlərdən qorunması, informasiya təhlükəsizliyi sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, habelə bu sahədə qarşıda duran vəzifələrin müəyyən edilməsi məqsədilə **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Strategiyanın (bundan sonra – Strategiya) həyata keçirilməsini əlaqələndirsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası:

3.1. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının mütəmadi monitorinqini və qiymətləndirilməsini təmin etsin;

3.2. Strategiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 avqust 2023-cü il**

# Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Azərbaycanda



**Avqustun 28-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, müdafiə naziri ordu generalı M.Gürakı Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi vəzifəsinə təyin olunması münasibətilə təbrik edib. General-polkovnik Z.Həsənov “Pençe-Kilit” antiterror əməliyyatlarının aparıldığı bölgədə şanlı türk ordusunun hərbi qulluqçusunun şəhid olması ilə bağlı xəbərdən kədərləndiyini qeyd edərək Türkiyə tərəfinə başsağlığı verib.

Müdafiə naziri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Ordumuzun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən uğurlu işlərdən danışıb və göstərilən dəstəyə görə qardaş ölkəyə təşəkkürünü bildirib. Hazırda Azərbaycan-Türkiyə əlaqələrinin Şuşa Bəyannaməsinə əsasən müttəfiqlik münasibətlərinə söykəndiyi və bunun tərkib hissəsi kimi ordu quruculuğu sahəsində ardıcıl tədbirlərin görüldüyü qeyd edilib.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən ordu generalı M.Gürak Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın daima yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayıb. Qarşılıqlı hərbi əməkdaşlığımızın birliyimizi daha da gücləndirdiyini və gələcəkdə yeni imkanlar açdığını qeyd edib.

Görüşdə iki qardaş ölkənin orduları arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

***

Müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

General-polkovnik K.Vəliyev qardaş ölkə ilə birgə keçirilən ikitərəfli və çoxmillətli təlimlərin hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərdiyi xüsusi vurğulanıb.

Ordu generalı Metin Gürak Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi kimi ilk olaraq Azərbaycana rəsmi səfərindən məmnunluğunu bildirib. Ordu generalı M.Gürak Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə cari ildə və 2024-cü ildə keçirilməsi planlaşdırılan birgə tədbirlərin əhəmiyyətini qeyd edib.

**Qəzənfər QASIMOV,**
**“Xalq qəzeti”**

# İcmadan Dünya Miyatoviçə çağırış

**Qərbi Azərbaycan İcması Avropa Şurasının insan hüquqları üzrə komissarı Dünya Miyatoviçin 28 avqust tarixli ədalətsiz açıqlamasını pisləyib.**



“2018-ci ildən komissar olan Dünya Miyatoviç nə üçün bircə dəfə Azərbaycan ərazilərinin işğalı, etnik təmizləmə, bir milyon azərbaycanlının qovulması ilə bağlı narahatlığını ifadə etməyib?

Azad edilmiş ərazilərdə bir-birinin ardınca kütləvi məzarlıqlar aşkar olunur. Kütləvi məzarlıqlarda aşkar edilmiş insan qalıqları əsasında 30 ildən sonra kimliyi müəyyən edilmiş bir neçə Azərbaycan hərbçisi bu günlərdə dəfn edilib. Kütləvi məzarlıq bir anlayış olaraq özündə insan hüquqlarının kobud şəkildə pozulmasını ehtiva edir. Niyə bu məsələyə dair narahatlığınızı ifadə etmirsiniz? 2020-ci ildən bəri 300-dən çox azərbaycanlı Ermənistanın mina terrorunun qurbanı olub. Bəs bunlara siz komissar kimi nə vaxt münasibət bildirəcəksiniz?

Qərbi Azərbaycan İcması komissarı ikili standartların əsiri olmamağa və özünün müstəqilliyini qorumağa çağırır”, - deyə icmadan “XQ”yə daxil olan bəyanatda vurğulanıb.

**“Xalq qəzeti”**

## V.B.Mustafayevin 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Vaqif Behbud oğlu Mustafayev 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 avqust 2023-cü il**

## “Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramının (bundan sonra – Dövlət Proqramı) nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

2.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**3.** Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 avqust 2023-cü il**

# “Heydər Əliyev – Böyük lider” beynəlxalq konfransı



**Dünən “İMZA” Sosial İnkişafa Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə Ulu öndərin 100 illiyinə həsr olunmuş “Heydər Əliyev – Böyük lider” adlı beynəlxalq konfrans keçirilib.**



İctimai Birliyin sədri Xəyyam Əsgərov “Heydər Əliyev İli” çərçivəsində Azərbaycanda və dünyanın müxtəlif ölkələrində Ümummilli liderin 100 illik yubileyi ilə əlaqədar müxtəlif tədbirlərin keçirildiyini qeyd edib.

İctimai Birliyin beynəlxalq və ictimaiyyətlə əlaqələr departamentinin direktoru Elnar Məmmədlinin moderatorluğu ilə keçirilən tədbirdə “İMZA” İB-nin Türkiyə təmsilçisi və Türkiyənin ölkəmizdəki sabiq səfiri Hulusi Kılıç “Heydər Əliyevin xarici siyasətində türk dünyasının inteqrasiyası və birliyi amili” mövzusunda çıxış edib. H.Kılıç Ulu öndərin siyasi-ideoloji fəaliyyətinin yalnız Azərbaycanla məhdudlaşmadığını, həmçinin ölkə hüdudlarından kənarda, Türk dünyasında dərin izlər buraxdığını və Heydər Əliyevin fəaliyyətində Türk dünyası ilə münasibətlərin mühüm yer tutduğunu qeyd edib.

Milli Məclisin deputatı, tarix elmləri doktoru Anar İsgəndərov “Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu” mövzusunda məruzəsində bütün çətinliklərə baxmayaraq, Azərbaycan dilini dövlət dili kimi rəsmiləşdirməsinin Ulu öndərin xalqımızın tarixində ən böyük xidmətlərindən biri olduğunu qeyd edib.

“Ulu Öndərin Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin inkişafındakı və ortaq xarici siyasətin formalaşmasındakı tarixi xidmətləri” mövzusunda çıxış edən Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrım Türkiyə-Azərbaycan dostluğunun, iki ölkə arasında sarsılmaz birliyin bu gün daha yüksək səviyyəyə çatdığını diqqətə çatdırıb.

Tədbirə onlayn formada qatılan Siyasi Tədqiqatlar İnstitutunun direktoru, rusiyalı politoloq Sergey Markov, Fransanın Azərbaycandakı ilk səfiri Jan Perrin, İtaliya parlamentinin sabiq deputatı Maria Rizzotti, Azərbaycanın Almaniyadakı sabiq fəxri konsulu Otto Hauser, Gürcüstanın Azərbaycandakı sabiq səfiri Zurab Qumberidze, Fransanın ölkəmizdəki sabiq səfiri Jan Pyer Qinyut, İtaliyanın Azərbaycandakı sabiq səfiri Marqarita Kosta, Mərmərə Qrupu Strateji Araşdırmalar Vəqfinin rəhbəri Akkan Suver, Pakistanın “Bol Media” korporasiyasının beynəlxalq əlaqələr departamentinin rəhbəri Ali Savez, israilli siyasi ekspert Mixail Finkel, Avropa Azərbaycanlıları Konqresinin sabiq sədri Başar Kömür, ABŞ-ın ölkəmizdəki sabiq səfiri Mətyu Brayzə, Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jerom Lambert və UNESCO-nun xoşməramlı səfiri Hedva Ser çıxışlarında ölkəmizdə sosial-iqtisadi sahədə, neft strategiyasında tarixi addımların atılmasında, mühüm islahatların həyata keçirilməsində Ulu öndərin əvəzsiz xidmətlərindən söz açıblar.

Milli Məclisin deputatları Mahir Abbaszadə, Cavanşir Feyziyev, Məlahət İbrahimqızı, Jalə Əliyeva, Pərvin Kərimzadə, Rus İcması sədrinin birinci müavini Anastasiya Lavrina, siyasi elmlər doktoru Elçin Əhmədov və digər qonaqlar tədbirdə çıxışlarında Ulu öndərin ölkəmizə rəhbərliyinin bütün dövrlərində daim Azərbaycanın tərəqqisi üçün çalışdığını, gələcək nəsillərin taleyi üçün Azərbaycan dövlətini zamanın ağır sınaqlarından uğurla çıxardığını qeyd ediblər.

**“Xalq qəzeti”**

# Fransanın Azərbaycana qarşı düşmənçiliyi açıq müstəviyə keçib

## Parisdə əyləşib "Qarabağda humanitar təhlükə"dən danışan Makron indi də ermənisayağı haray çəkir

**Bunların davranışına kənardan baxan adamda belə təsəvvür yaranır ki, Fransa hökuməti daxildə irqçilik, dini ayrı-seçkilik, pensiyaçılar başağrısını, Afrikadan qovulmaq problemini həll edib qurtarıb, indi də Cənubi Qafqazda vəziyyəti "nizama salmağa" girişib. O biri yandan baxanda isə düşünürsən ki, Paris ya Qafqaza, ələlxüsus da Azərbaycana hələ də sərvətini talamaqdan əl çəkmək istəmədiyi qara qitədəkilər kimi baxır, ya da Marseldəki bir ovuc erməninin əlində əsir–yesir qalıb. Hər iki variantda Fransanın bölgədə Rusiyanın yerini tutmağa və transmilli layihələrdən pay ummağa həvəsləndiyini söyləmək mümkündür. Bu zaman "məqsədə çatmaq üçün bütün vasitələr məqbuldur" diplomatiyasını eninə-uzununa işə salmış Parisin İrəvandan da "maşa" kimi yararlanmaq arzusu başadüşüləndir. Amma hər şeyin həddi, dövlətlərarası münasibətlərdə isə etik çərçivəsi, keçilməsi yasaq sayılan "qırmızı xətti" var. Son davranışları ondan xəbər verir ki, Fransa Azərbaycanla arasındakı həmin "qırmızı xəttin" astanasındadır...**



### "Humanitar böhran" serialı davam edir

Fransanın BMT Təhlükəsizlik Şurasına "Azərbaycanın blokadası səbəbindən aclıqdan ölmək ərəfəsində olan Dağlıq Qarabağın (?) 120 min (?) sakininə yardım haqqında" qətnamə təqdim etməyə hazırlaşdığı barədə yazmışdıq. Parisin Bakıya qarşı "utopik revanşizmi" adlandırdığımız bu xarakterli siyasi təzyiqlərinin heç bir nəticə verməyəcəyini də bölgədəki mövcud hərbi-siyasi reallığa, fakt və arqumentlərə əsaslanaraq bildirmişdik. İndi Makron "Le Point" qəzetinə verdiyi müsahibəsində əvvəl dediklərini şərh edərək, Parisin bu məsələ ilə bağlı "xarici siyasət mövqeyinin kifayət dərəcədə aydın olduğuna" diqqəti yönəldib.

Dörd gün əvvəl "Le Figaro" qəzeti prezident Makrona istinadla yazıb ki, Fransa BMT Təhlükəsizlik Şurasına Azərbaycanın əleyhinə qətnamə layihəsi təqdim etməyə hazırlaşır. Az sonra isə yerli mediada regionlardan Qarabağ ermənilərinə 10 "tır"dan ibarət "humanitar yardım" göndəriləcəyi xəbəri yayıldı. Xəbərdə avqustun 30-da Laçına doğru hərəkət edəcək "humanitar karvan"ı Paris, Marsel və Strasburqun merlərinin, eləcə də bəzi regionların başçılarının müşayiət edəcəyi qeyd olunurdu. "Humanitar missiyalı desant karvanının" komandanı Parisin meri madam Ann İdalqo seçilib.

Bir sözlə, Ermənistan hökumətinin "tır" məzhəkəsi"nin ikinci "pərdəsi" beynəlxalq tamaşaçılar üçün madam və müsyölərin ifasında oynanılacaq. İndi "humanitar böhran" serialı üçün podiuma "xeyriyyəçi merlər" çıxacaqlar. Amma məsələ burasındadır ki, bu maraqlı tamaşanı onlar yalnız Hayastanın Teatr meydanında səhnələşdirə bilərlər. Çünki, aydın məsələdir ki, Bakı onlara Azərbaycanın suveren ərazisinə daxil olmağa viza vermək fikrində deyil. Yəni, indiki vəziyyətdə siyasi məzhəkənin rejissoru, aktyorları, oxuyanları və tamaşaçıları eyni kontingentdir...

### Arifə bir işarə kifayət etmirsə...

Deyəsən, Fransa 2020-ci ilin oktyabrında, 2022-ci lin dekabrında və 2023-cü ilin avqustun 16-da BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı qətnamə qəbul etdirə bilməməsinin "şokundan" hələ ayılmayıb. Bu baxımdan, yaxın günlərdə Fransanın Azərbaycana qarşı hazırladığı yeni təxribatlar barədə xəbərlər bizi təəccübləndirməməlidir. "Laçın yolunun blokadaya alınmasına təəssüf edirəm və pisləyirəm" - deyən Makron sözlərinə bunları əlavə edib: "Biz həmişə demişik ki, xalqların suverenliyini (?) dəstəkləyirik. Dağlıq Qarabağ məsələsi mürəkkəbdir. Bu məsələ ilə bağlı deyilən ən sərt mövqeləri təkrarlaya bilmərəm. Fransa 2020-ci il müharibəsini birmənalı olaraq pislədi və bir çox humanitar aksiyalar təşkil etdi. Bu gün biz Ermənistanla Azərbaycan arasında davamlı sülhün bərqərar olmasına (?), xalqların və mədəniyyətlərin qorunmasına (?) xidmət edən razılaşmaya nail olmaq üçün əlimizdən gələni edirik. Bu sülh müqaviləsi zəruridir, lakin bu, beynəlxalq hüquqa (?) uyğun olmalıdır".

Azərbaycan Fransanın beynəlxalq hüquqa söykənən "fəaliyyətini" də gördü, bölgədə sülhün bərqərar olması üçün atdığı "addımlarını" da. Bunların müqabilində, yeri gələndə layiqli cavabını da aldı. Güman edirik ki, Paris Bakının sonuncu ismarıcının da birbaşa özünə aid olduğunu anlamayacaq qədər sadəlövh deyil.

Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin Fransa kimi bədxahlarına Laçından ünvanladığı mesaj kifayət qədər qətiyyətli, aydın və birmənalıdır:

"Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik. Həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər Ermənistan üçün və bölgə üçün yaxşı olacaq. Bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan–Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi qoyulmuşdur. Sərhəd-buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir və bunu biz beynəlxalq hüquq çərçivəsində etdik. Biz öz ərazimizi qoruyuruq, öz sərhədlərimizi qoruyuruq və qoruyacağıq. Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik. Nə qədər bizə təzyiqlər oldu, nə qədər hədə-qorxular oldu. Bu gün də bu təzyiqlər davam edir, bu gün də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar bizə qarşı müxtəlif fitnələr ortaya atırlar. Heç bir şey bizi yolumuzdan döndərə bilməz."

### Düşmənçilik

Qayıdaq Makronun məlum "tarixi açıqlamasına". Onun sözlərinə görə, Qarabağda "dözülməz humanitar vəziyyət" yaranıb və Fransanın bu məsələdə rolu Azərbaycana "təzyiq göstərməkdir". "Biz bu istiqamətdə əlimizdən gələni edirik. Xüsusilə, Qarabağa ərzaq, dərman çatdırmaq və bu bölgəyə sərbəst girişi təmin etmək üçün təşəbbüslərimizi davam etdiririk. Bundan başqa, bu gün Ermənistanın öz sərhədləri də təhlükə altındadır".

Makron konkret hansı təşəbbüsləri nəzərdə tutduğunu dəqiqləşdirməsə də, çox güman ki, söhbət Fransanın BMT Təhlükəsizlik Şurasının müzakirəsinə təqdim etməyə hazırlaşdığı qətnamə layihəsindən gedir. Maraqlıdır ki, Fransanın Ermənistandakı səfirliyi BMT-də planlaşdırılan növbəti müzakrələr barədə xəbərlərə şərh verməkdən boyun qaçırıb. Nədənsə, Ermənistan Xarici İşlər Nazirliyi də "Le Figaro"da dərc olunan məlum yazıya reaksiya verməyib.

Oxuculara xatırladaq ki, rəsmi İrəvan avqustun 16-da BMT Təhlükəsizlik Şurasının gündəliyinə "Laçın dəhlziinin blokadası" məsələsini daxil etməyə nail olsa da, müzakirələrin yekununda heç bir sənəd qəbul olunmadı. Beynəlxalq müstəvidəki növbəti uğursuzluq İrəvanla yanaşı, Parisi də pəjmürdə edib və onu revanş götürmək kimi xəyal qırıqlığına uğradıb. Gələn xəbərlərdə o da vurğulanır ki, prezident Makron Nyu-York fiaskosundan sonra ölkəsinin erməni diasporuna bağlı müxalifətinin təzyiqi ilə üzləşib. Ermənistan ictimaiyyəti də Fransanın əvvəlki kimi güvənilən, sözükeçən dövlət olduğuna şübhə ilə yanaşır.

### Fransa bölgədə sülh istəyirsə...

Bəs yaranmış durumda Bakı hansı addımları atmalıdır, yaxud nə kimi ehtiyat tədbirləri görməlidir?

**Milli Məclisin deputatı Azay Quliyev** hesab edir ki, Fransa özünün siyasi riyakarlığı, ikiüzlülüyü və beynəlxalq hüquqa hörmətsizliyi ilə "bacısı" Ermənistanı da geridə qoyub: "Fransanın Azər-



baycandakı səfirinin Avropa İttifaqına üzv ölkələrin Bakıdakı səfirliklərinə avqustun 26-da Şəhər Günü münasibətilə Laçında düzənlənən tədbirdə iştirak etməmələri üçün təzyiqlər göstərməsini də bu rəzilliyə əlavə etsək, görərik ki, Paris ölkəmizə qarşı açıq düşmənçilik mövqeyi tutub. İndiyə kimi düçar olduğu uğursuzluqdan nəticə çıxartmayıb. Düşünürəm ki, Fransanın Bakıdakı səfirinin ölkəmiz əleyhinə bu cür təxribatçı fəaliyyəti davam edərsə, onun "persona-non-qrata" elan olunması məsələsinə baxılması qaçılmaz olacaq".

A.Quliyev Paris-İrəvan cütlüyünün Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı atacağı istənilən addımına ən sərt şəkildə cavab veriləcəyinə hər kəsin əmin olmasını vurğuladı: "Bu gün Afrikadan qovulmaq durumuna düşmüş Makronun Fransası Azərbaycana qeyri-rəsmi "səlib yürüşü"nün qarşısı da qətiyyətlə alınacaq. Onun BMT Təhlükəsizlik Şurasına təqdim edəcəyi qətnamə layihəsi qəbul edilərsə, "humanitar böhran" şousu ilə ölkəmizə təzyiq göstərərsə, bununla rəsmi Paris özünü bütün dünyanın gözündə rüsvay edəcək".

Fransa hakimiyyəti anti-Azərbaycan siyasətini davam etdirərsə, nəinki bu ölkənin ölkəmizdəki səfiri, bütövlükdə dövlətin özü bizim üçün "arzuolunmaz persona"ya çevrilə bilər. Əslində, beynəlxalq diplomatik qaydaların tələbinə görə, xarici dövlətin rəsmi nümayəndəsi (paytaxtın meri siyasi fiqur hesab olunur -red.) səfərə çıxmazdan əvvəl təşrif buyuracağı ölkənin rəsmilərini bu barədə məlumatlandırır və bundan sonra viza-sənədləşdirmə, təşkilatı işlərə start verilir. Amma Parisdən Laçın yolumuza gəlməyə hazırlaşan merlər heyətinin bu barədə Bakıya rəsmi müraciət etmələri barədə məlumat yoxdur. Yəni belə bir müraciət edilməyib. Bəs bütün bu qayda pozuntularına yol verən Parisin məqsədi nədən ibarətdir?

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyevin** fikrincə, Fransa, doğrudan da, gələcəyə hesablanan siyasət həyata



keçirmək və bölgədə sülhün bərqərar olmasını istəyirsə, Azərbaycan və Ermənistanla sıx əməkdaşlıq etməlidir: "Fransa rəsmilərinin Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli şəxslərə humanitar yardım göndəriləcəyi ilə bağlı açıqlamaları Ermənistanın başlatdığı şounun davamıdır. Paris Ermənistanla, həm də bu ölkənin radikal qrupları ilə əməkdaşlıq edir. Humanitar yardımın göndərilməsi isə ilk növbədə Azərbaycanla razılaşdırılmalıdır. Ancaq belə bir addım görmürük. Ona görə də, bu, bir şoudur".

BMT Təhlükəsizlik Şurasında növbəti təxribatın ola biləcəyini istisna etməyən F.Şəfiyev yaxın bir-iki ayda Azərbaycan əleyhinə hansısa bəyanatın veriləcəyini gözləmədiyini də bildirib: "Təhlükəsizlik Şurasında qətnamənin qəbulu üçün doqquz ölkə Fransanı dəstəkləməli və beş daimi üzv buna etiraz etməməlidir. Ona görə də Fransa qətnamə və ya hər hansı bəyanatın qəbul olunması üçün Rusiya ilə birlikdə işləməli, ortaq mövqeyə gəlməlidir. Bu, çətin görünür, amma tam istisna etmirəm".

### Azərbaycanla təzyiq dili ilə danışmaq qəbuledilməzdir

"28 avqust tarixində Fransa prezidenti Emmanuel Makronun səfirlər konfransı zamanı səsləndirdiyi bölgə üzrə mövcud vəziyyətə dair yanlış təəssürat formalaşdıran və Ermənistanı birtərəfli qaydada müdafiə edən qərəzli fikirləri sülh prosesinə xələl gətirir".

Bu fikirlər Azərbaycan XİN-in mətbuat katibi Ayxan Hacızadənin Fransa prezidenti E.Makronun dünən səfirlər konfransında səsləndirdiyi fikirlərə dair şərhində əksini tapıb. Açıqlamada daha sonra deyilir: "Fransa prezidentinin növbəti dəfə bölgədə humanitar vəziyyət barədə iddiaları əsas götürərək fikirlər səsləndirməsi bu ölkənin siyasətinin yanlış olduğunu bir daha sübut edir. Onun leksikonunda "Laçın humanitar dəhlizi" kimi ifadələrə yer verməsi, bu istiqamətdə təzyiq dili ilə danışması qəbuledilməzdir və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətsizlikdir. Laçın yolundan və sərhəd buraxılış məntəqəsindən gün ərzində onlarca erməni sakinin keçdiyi, Azərbaycan tərəfindən erməni sakinlərə yüklərin daşınması üçün "Ağdam-Xankəndi" və digər alternativ yolların ayrıldığı, bütün bu səylərə baxmayaraq, bu yollardan istifadənin Ermənistan və özlərini erməni sakinlərin nümayəndələri kimi təqdim edən şəxslər tərəfindən siyasiləşdirilməsi Fransa tərəfinə yaxşı məlumdur. Bu istiqamətdə cari ilin avqust ayının əvvəlində əldə olunmuş razılıqların icrasını təşviq etmək əvəzinə erməni tərəfinin təhrikçi addımlarına dəstək verən fikirlərə yer verilməsi prosesə birbaşa maneçilik törədən amillərdəndir".

Bu ölkədə "azadlıq, demokratiya, qardaşlıq, insan haqlarından" danışmağı çox xoşlayırlar. Amma, əslində, tam tərsinədir. Özündən xəbərsiz barıt çəlləyinin üstündə oturmuş Fransa bir kibrit çöpünün şöləsindən partlamağa hazır vəziyyətdədir. Səbəb isə onun gəlmələrə, özgə irqlərə, fərqli etiqadlara, xüsusilə də yerli müsəlmanlara açıq ayrı-seçkilik siyasəti yürütməsidir. Bunları görməzdən gələn "Beşinci Respublika"nın başbilənləri başqa dövlətlərin daxili işlərinə qarışır, misal üçün, Azərbaycanda həmin "insan haqlarının pozulmasından" dəm vurur. O biri yandan isə təcavüzkar Ermənistana dəstək verir. Belə davam edərsə, deyəsən, Paris kibrit çöpünü barıt çəlləyinin altına özü öz əli ilə salacaq.

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

**REPLİKA**

# Arayikin "Facebook" şousu

**Qarabağdakı separatçı rejimin "tarixində" son dərəcə kədərli hadisə baş verib. Rejimin lideri Arayik Arutyunyanın "Facebook" səhifəsi bağlanıb. Bölgənin avantüristləri hay-küy qaldırıblar ki, bəs, səhifə Azərbaycandan olan çoxsaylı şikayətlər nəticəsində qapadılıb.**

Əlbəttə, səhifənin şikayətə görə qapadılması praktikasının mövcudluğunu dana bilmərik. Heç şübhəsiz, Azərbaycandan da Arayiki bu yolla cəzalandırmaq istəyənlərin olması mümkündür. Ancaq bu halların total xarakter daşıdığını düşünmürük. Çünki ölkəmizin sosial şəbəkə seqmenti Arutyunyandan şikayət etmir, cavab verir, necə deyərlər ağzının üstündən vurur. Cavablar içərisində Arutyunyanın terrorçu, separatçı, qatil olduğunun bildirilməsi birmənalı qaydada var. Ancaq bütün bunlar "Facebook" rəhbərliyi üçün yalnız siqnaldır. Götürüb Arayikin kim olduğunu araşdıra və müəyyənləşdirə bilərlər ki, bu şəxsin söylədikləri separatçılıqdır və...

Bəli, azərbaycanlılar A.Arutyunyanın səhifəsinin şikayətindən çox, onun səhifədə yazdıqlarının, paylaşdıqlarının cəfəng mahiyyətinin ifşasına köklənirlər. Bu, öz yerində. Ermənistanın baş naziri Nikol Paşinyanı da həmişə eyni aqibətə "qonaq edirlər". Amma bu vaxtadək eşitməmişik ki, Nikolun səhifəsi qapadılsın. Elə Arayik də indiyədək belə halla üzləşməyib. Nəzərə alaq ki, 44 günlük müharibə zamanı istər Arutyunyan, istərsə də Paşinyan cəfəngiyyatı bir-birinə calamışdı. Deməli, bir qədər mistikaya əsaslanaraq, bu nəticəyə gəlmək mümkündür ki, Arayikin sosial şəbəkə səhifəsinin bağlanması işarədir. Yəni, "Facebook" da mövqeyini ortaya qoyur. Mövqe isə belədir: Azərbaycan ərazisindəki separatçı rejim yox olmalıdır. Hələlik, yoxolma səhifədən başlanıb.

Məsələyə başqa prizmadan diqqət yetirək. Məlumdur ki, Qarabağdakı separatçılığın çənbəri daralmaqdadır. Erməni əhali rejimə etiraz əlaməti olaraq bölgəni tərk edir. Bəli, məhz rejimə etirazdan söhbət gedir. O rejimə ki, əslində, onun özü getməli idi. Ancaq elə gərgin şərait yaratdı ki, necə deyərlər, çanaq sıravi ermənilərin başında partladı. Mövcud durumda Arayik də yaxşı görür ki, artıq onun özünü "Prezident" kimi adlandırmasının heç bir əhəmiyyəti qalmayıb. Adam yoxdursa, kimə rəhbərlik edəsən? Ona görə çox güman, hansısa oyundan çıxıb ki, "Facebook" onun səhifəsini bağlasın və yazıb sarsaqlaya bilməsin.

Daha bir məqama da diqqət yetirək. Fikir verin, Qarabağı erməni əhali tərk edir, Ermənistanın baş naziri Nikol Paşinyan isə hökumətin iclasında həyasızcasına bildirir ki, bəs onda Azərbaycan rəhbərliyinin, guya, gedənlərin geri qayıtmalarına imkan tanımayacağına dair məlumat var. Bu fikri elə həyasızcasına deyir ki, sanki ölkə rəhbəri yox, sosial şəbəkə fenomenidir. Yeri gəlmişkən, Nikol 2018-ci ildən bu yana baş nazirliyə qədərki qalmaqallı jurnalist ampluasından çıxmağı bacarmayıb. Dövlət adamı ola bilməyib. Guya, o görmür ki, Qarabağı tərk edənlər köçlü-kömənclі çıxırlar? Yaxşı anlayır ki, onlar qayıtmaq üçün getmirlər. Sadəcə, Azərbaycana ittiham yağdırmaq məqsədilə nəsə tapmaq, uydurmaq onun xislətindən, daxili mahiyyətindən, daha doğrusu, mahiyyətsizliyindən irəli gəlir. Nəzərə alsaq ki, Arayik Nikol obrazının daha kiçik prototipidir, o zaman birincinin azərbaycanlıların şikayəti əsasında "Facebook" səhifəsinin bağlandığını iddia etməsində elə bir təəccüblü şey yoxdur. Düşüncəsi ora qədərdir. Heç şübhəsiz, bir-iki gündən sonra başqa nələrisə də uyduracaq. Boş-bekar adamdı...

Hələlik, Arayikin "köməkçiləri" "Facebook" səhifənin silinməsi ilə bağlı qərarın ləğvi üçün sorğu və əsaslandırma göndəriblər. Bildiriblər ki, səhifənin 459 min abunəçisi var idi və "Artsax respublikası prezidenti"nin fəaliyyətinin şəffaflığının təmin edilməsində mühüm rol oynayır. Çox güman, elə-beləcə də yazıblar – "Artsax respublikasının prezidenti". Bu başıboşlar Arayikə ən böyük pisliyi etdiklərinin fərqinə varmayıblar. Axı "Facebook"da sorğunu açıb oxuyanın ağlına gələcək ki, həmin o "Artsax"ı axtarıb tapsın. Axtaranda görəcək ki, belə bir dövlət yoxdur. Bəlkə başqa əsaslandırma olsaydı, səhifə açılar, Arutyunyan orada lətifə filan paylaşıb gününü keçirmək şansı qazanardı. İndi heç o da olmayacaq.

Arayikin "komandasının" təmsilçilərinin mövqeyinin absurdluğunu təsdiqləyən bir məqam da var. Onlar bildirirlər ki, "Facebook"un qərarı qəbuledilməzdir. Çünki Azərbaycan, guya, Qarabağ xalqını təcrid edir, Arayikin 459 min abunəçilik səhifəsi isə informasiya blokadasının qarşısında duruş gətirir. Böyük ehtimalla, növbəti mərhələdə erməni lobbi və diaspor təşkilatlarının nümayəndələri Mark Zukerberqin ofisinin qarşısında aksiya filan da düzənləyəcəklər. +18 film ulduzu Kim Kardaşyanın evinin qabağında "kömək et!" tələbi ilə piket düzənləyən zehniyyət sahiblərinin dediyimizi də gerçəkləşdirmək niyyətinə düşmələri tam mümkündür.

***Ə.RÜSTƏMOV,***
***"Xalq qəzeti"***

# Ermənistanın BMT şousu, Mendesin "dirijor"luğu və yeni müharibə üçün "hüquqi əsas"

## Okampodan sonra daha bir argentinalı dələduzun erməni nökərçiliyi

(əvvəli 1-ci səhifədə)

Əlqərəz, X.Mendes BMT-də Qarabağın blokadasının hüquqi nəticələri haqqında məruzə təqdim edib və sənəd Ermənistanın BMT-dəki daimi nümayəndəliyinin saytında yerləşdirilib. Sözügedən saytda, həmçinin qeyd olunub ki, avqustun 23-də Ermənistanın daimi nümayəndəliyi BMT-nin mənzil-qərargahında müzakirə təşkil edib və bu müzakirədə BMT baş katibinin soyqırımının qarşısının alınması üzrə keçmiş xüsusi müşaviri, Amerika Universitetinin insan hüquqları üzrə professoru Xuan Mendesin ekspert rəyi dinlənilib. Müzakirələrdə BMT Təhlükəsizlik Şurasına üzv dövlətlərin və bir sıra digər ölkələrin diplomatları iştirak ediblər. Ermənistanın BMT-dəki daimi nümayəndəsi Mqer Marqaryan Qarabağdakı vəziyyəti təqdim edərək, humanitar böhranın getdikcə ağırlaşdığını bildirib. O deyib ki, BMT növbəti cinayətin törədilməsinə imkan verə bilməz və bunun qarşısını almaq üçün aydın addımlar atmalıdır.

Bu yerdə professor Mendesin Beynəlxalq Ədalət Məhkəməsinin Laçın yolu ilə bağlı aylar önceki qərarından söz açmasındakı spekulyativ motivi diqqətə çatdıraq. Argentinalı bildirib ki, bəs həmin qərar Qarabağdakı "soyqırımının" qarşısının alınması üçün vasitələrin işə salınmasına işarədir. Aşkar ermənipərəst mövqe tutan Mendes, eyni zamanda, dünya ictimaiyyətini növbəti "erməni soyqırımı"na yol verməməyə yönələn açıq çağırış səsləndirib. Əlbəttə, dələduz hüquqçu fikrini əsaslandırmaq üçün bir çox məqamları qabardıb. Onların hamısının üzərində dayanmağa ehtiyac duymuruq. Ancaq bir neçəsi var ki, barələrində söz açmağı zəruri sayırıq.

Birincisi, Mendes tipik erməni vay-şüvən ritorikasındakı elementlərdən istifadə edir. O, elə görüntü yaradır ki, sanki Azərbaycan dünya birliyinə məhəl qoymur, bu baxımdan BMT Baş katibinin, ABŞ-ın Dövlət katibinin və digərlərinin Laçın yolunun açılmasına dair çağırışlarını yada salır. Üstəlik, Ermənistanın şərtlərinə etinasız yanaşdığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdakı Laçın dəhlizi ifadəsinə istinad edir. Mendes deyir: "Bundan başqa, Azərbaycan rəsmiləri və ekspertləri faktları təkzib edərək, humanitar yardımın göstərilməsi üçün alternativ yollar irəli sürürlər. Bununla da Beynəlxalq Ədalət Məhkəməsinin qərarını yerinə yetirməkdən imtinanı təsdiqləyirlər".

Həyasızlığın hər formasını görmüşdük, beləsini yox. Mendes göstərdi. Onun fikrindən gələnən qənaət budur ki, Azərbaycanın Qarabağ ermənilərinə yardım göstərmək üçün alternativ yollar irəli sürməsi, Beynəlxalq Ədalət Məhkəməsinin qərarının icrasından yayınmaq cəhdidir və dünya birliyi buna yol verməməlidir. Göründüyü kimi, o da digər ermənipərəstlər kimi, Qarabağın beynəlxalq hüquq baxımından Azərbaycanın tərkib hissəsi olduğu reallığını görməzdən gəlir. Həm bunu, həm də Laçın yolunun hazırda erməni əhaliyə xidmət göstərdiyini bilərəkdən nəzərə almır...

Fırıldaqçı Mendesin manipulyativ hüquqçuluğunun kuliminasiyası isə onun Qarabağda baş verənləri Balkan ölkələrindəki durumla eyniləşdirmək



cəhdidir. Söhbət, konkret olaraq, Bosniya və Serbiya arasındakı münaqişəli vəziyyətin "presedent" kimi götürülməsindən gedir. Mendesin sözlərinə görə, Srebrenitsa işində Beynəlxalq Ədalət Məhkəməsi müəyyən edib ki, Serbiya digər amillərlə yanaşı, məhkəmə prosesləri zamanı əməkdaşlıqdan imtina edərək, soyqırımının qarşısını almaq öhdəliyini pozub.

Göründüyü kimi, ermənipərəstlər Azərbaycana qarşı, sözün əsil mənasında, hüquq cəbhəsi açıblar. Onların öz məqsədlərinə çatmaq naminə ən xırda detalların vasitə kimi istifadəsinə baş vurduqları göz önündədir. Okampodan sonra erməni lobbi və diaspor təşkilatları tərəfindən ortaya atılmış Mendes isə BMT-yə çıxarılması planlaşdırılmış yeni-köhnə erməni avantürasının, obrazlı desək, ayaq səslərini eşitdirir. Əlbəttə, Azərbaycan diplomatiyasının belə hallara qarşı səfərbər olacağı şübhəsizdir.

Sonda onu da deyək ki, Ermənistan və dünya erməniliyi BMT-yə son tutacaq yeri kimi yanaşır. Onların bütün instansiyalardan ümidləri kəsilib. Üstəlik, Qarabağı erməni əhali tərk edir. Yəni, sıravi ermənilər də avantürizmin fonunda bölgədə yaşamın mümkünsüzlüyünü anlayırlar. O zaman sual yaranır: belə canfəşanlıq nə üçündür? Cavab çox sadədir – Birincisi, ümumən Azərbaycanla barışmamaq hikkəsi var. İkincisi isə beynəlxalq hüquq müstəvisində hansısa tutacaq yeri əldə edib yeni hərbi əməliyyatlara başlamaq üçün bəhanə qazanmaq istəyi aktualdır.

Məlum olduğu kimi, Qarabağda on min erməni əsgəri qalmaqdadır. İndiki durumda okampoların, mendeslərin və digərlərinin "əməyi" nəticəsində yaranacaq hansısa xırda reallıq həmin onminlik sayı, guya, öz vətənlərini qoruyan qəhrəmanlar kimi göstərməyə imkan verəcəkdir. Bir sözlə, məqsəd Qarabağda aranı qarışdırmaqdır. Bütün bunlar isə bir daha onu göstərir ki, Ermənistan Azərbaycanla sülhə gəlmək istəmir.

**R.ƏVƏZ,**
***"Xalq qəzeti"***

# "The Critic" Azərbaycana böhtan atır

## Böyük Britaniya nəşri tarixi saxtalaşdıranlara, reallığı təhrif edənlərə züy tutur

(əvvəli 1-ci səhifədə)

Gəlin, bu iddialara bir-bir aydınlıq gətirək. Əvvəla, ermənilər bu bölgəyə sonradan gəliblər. Vaxtilə – sovet dövründə bunu özləri etiraf etmişdilər. Ermənilərin Qarabağa köçürülməsini sübut edən tarixi mənbələrdən biri "Marağa–150" abidəsidir. Tərtər rayonunun Şıxarx qəsəbəsindəki bu abidə 1978-ci ildə ermənilərin özləri tərəfindən İran Marağasından Qarabağa köçürülmələrinin 150 illiyi ilə əlaqədar inşa edilib. XX əsrin sonlarında Ermənistanın torpaqlarımıza qarşı növbəti ərazi iddiaları başlayanda abidə ermənilər tərəfindən qəsdən dağıdılıb. Çünki bu abidə ermənilərin əzəli Azərbaycan torpağı olan Qarabağa köçürülməsinin sübutu idi. Hayların özləri ilə müxtəlif ölkələrdən gətirdikləri hind, ərəb, fars, fransız musiqiləri burada işə yaramadığından, onlar Azərbaycan xalq musiqisini və dilini tez mənimsəyib öyrəniblər.



Ümumiyyətlə, ermənilər dünyada köçəri həyat sürdüklərindən, özlərinin milli mədəniyyətləri və musiqiləri inkişaf etməyib. XVIII əsrdə yaşayıb yaratmış erməni şairi və aşığı Sayat Nova yaradıcılığında istifadə etdiyi çox şeyləri Azərbaycan mədəniyyətindən götürdüyünü etiraf edib. Onun günümüzə gəlib çatan şeirlərindən 68-nin erməni, 34-nün gürcü, 115-nin isə Azərbaycan dilində olması çox mətləbdən xəbər verir. Bu mənada "erməni xalq musiqisi" deyilən bir anlayış yoxdur. Həmin xalq musiqisi azərbaycanlılardan oğurlanan musiqi alətləri (hayların dünyaya "duduk" adı ilə erməni musiqi aləti kimi sırımağa çalışdıqları tütək, habelə zurna, qaval, tar, saz, kamança, ud, nağara və sair) vasitəsilə ifa olunan Azərbaycan musiqisidir.

Milli musiqisi olmayan və başqa xalqın musiqisini, musiqi alətlərini öz adına çıxan bir xalqın milli mətbəxi ola bilərmi? Bu suala cavab verməyi Pol Brayanın öz öhdəsinə buraxırıq. Ancaq onun "ləzzətli mətbəx" ifadəsi bir sıra mətləblərdən xəbər verir. Bəlli olur ki, ermənilər cənab Brayanı yaxşıca yedirdiblər. O, hazırda müftə yeməyin qarşılığını verməkdədir.

***

Azərbaycanlıları ölümcül təqibetmədə, soyqırımı və qətliamda ittiham etmək üçün isə gərək, vicdan hissini tamamilə itirmiş olasan. Məgər britaniyalı jurnalist Azərbaycanın keçmişində bu cür utancverici halların, ləkələrin olmadığını bilmir? Bilib yazırsa, demək ona nəsə demək artıq işdir. Əgər bilmirsə, zəhmət çəkib ermənilərin təkcə XX əsrdə azərbaycanlılara qarşı törətdiyi cinayətlərlə bağlı internetdə axtarış versin. Cəmi bir-iki saniyədə bununla bağlı təkzibedilməz subutlarla dolu onlarca material qarşısına çıxacaq.

Ermənistanın keçmişi XX əsrdə azərbaycanlılara qarşı törədilmiş sülh və insanlıq əleyhinə, habelə ağır və xüsusilə ağır cinayətlərlə doludur. 1988-ci ildən başlayaraq isə Qarabağda qanunsuz fəaliyyət göstərən erməni silahlı hərbi birləşmələri və Ermənistan silahlı qüvvələri tərəfindən azərbaycanlılar qətlə yetirilib, öz yurd-yuvalarından didərgin salınıblar. Maddi sərvətlərimiz talan edilib, mədəniyyət abidələrimiz dağıdılıb, azərbaycanlı əsir və girovlara dəhşətli işgəncələr verilib, beynəlxalq humanitar hüquqla mühafizə olunan mülki şəxslərlə amansız rəftar edilib. Burada məqsəd bir olub: azərbaycanlıları bir milli qrup kimi bütövlükdə və ya qismən məhv etmək! Məsləhət görərdik ki, Pol Brayan ölkəmizi ittiham etməmişdən əvvəl bu faktlarla da tanış olsun.

Qeyd edək ki, Qarabağda heç bir humanitar böhranın yaşanmadığını yaxşı bilən Qərb mediası bu məsələyə, demək olar ki, diqqət ayırmır. Bu da britaniyalı jurnalisti özündən çıxaran məqamlardandır. O, hikkə ilə qeyd edir ki, hazırda 120 mindən çox (?) etnik erməni dalana dirənib, Qərb isə baş barmağını yuxarı qaldırıb gözünü qırpır. "Qərb mediası hazırda Amerikanın Ukraynada "demokratiyanı" xilas etməsinə və ya Donald Trampın son ittiham aktı ilə bağlı qalmaqalı qızışdırmağa daha çox meyillidir. Siz belə iyrənc ritorikaya diqqət yetirən mediadan Qarabağ barədə çətin ki, nəsə eşidəsiniz", – məqalə müəllifi qeyd edir.

Əslində isə Qərb mediası çox düzgün olaraq Qarabağa diqqət yetirmir. Onlar bilirlər ki, Qarabağda hazırda heç bir blokada yoxdur. İnsanlar Xankəndidən Ermənistana və geri qayıtmaqda sərbəstdirlər. Azərbaycan özünün suveren ərazisinə humanitar yüklərin çatdırılması üçün Ağdam-Xankəndi yolunun açılmasına hazır olduğunu dəfələrlə bəyan edib. Ən əsası Qarabağda hansısa təxəyyüllərin məhsulu olan etnik təmizləmə Azərbaycanın siyasi gündəmində yoxdur. Heç zaman da olmayıb. Qarabağ erməniləri vaxtilə Azərbaycanın vətəndaşları olublar. Sonradan hansısa fitnələrə uyaraq separatçılıq əməlləri başlayıblar. Sadə xalq bu fitnə-feli başlayanların küyünə gedib. Nəticədə onu başladanlar sürətlə varlanıblar. Qarabağda, sonra isə Ermənistanda hakimiyyətə gəliblər.

### Ekspert rəyi

**İlyas HÜSEYNOV,**
**politoloq**



– Bu gün bir sıra hallarda beynəlxalq müxtəlif media subyektlərində Qarabağ və Laçın yolu ilə bağlı həqiqəti əks etdirməyən yazılara rast gəlirik. Bu yazıları ərsəyə gətirənlər erməni lobbisi tərəfindən ələ alınmış müxtəlif jurnalistlər, ekspertlərdir. Onların təqdim etmək istədikləri reallıq tamamilə saxta arqumentlər üzərində qurulub. Guya, Azərbaycan Qarabağ iqtisadi rayonunda ermənləri sıxışdırır, məhdudiyyətlər tətbiq edir və TİR-ların Qarabağa keçidinə mane olur. Əslində, Azərbaycan yeni yollar çəkir, yeni kommunikasiya və infrastruktur formalaşdırılır. Bir neçə gün öncə Prezident İlham Əliyevin iştirakı ilə Laçında çoxsaylı açılış mərasimləri keçirildi, obyektlər istifadəyə verildi.

Digər tərəfdən qeyd etmək lazımdır ki, erməni təbliğatı əsasən Azərbaycan dövlətini ləkələmək, onun nüfuzuna xələl gətirmək məqsədi güdür. Ermənistanın arxasında dayanan Fransa Beynəlxalq Frankofoniya Təşkilatı, Avropa İttifaqı, BMT Təhlükəsizlik Şurası kimi qurumlarda ölkəmizə qarşı çirkin kampaniyanı davam etdirir. Bu yazılarda SSRİ dağılanda Qarabağ ermənilərinin də öz müqəddəratını təyin etdikləri bildirilir. Elə britaniyalı jurnalist Pol Brayan da Qarabağın heç vaxt suveren Azərbaycanın bir hissəsi olmadığını iddia edir. Bu isə hüquqi saxtakarlıq və ağ yalandır. Arxivlər, tarixi sənədlər, faktlar bunun tamamilə əksini sübut edir. Belə məqalələr sonrakı saxtakarlığın başlanğıcı olur. Tarixin saxtalaşdırılması, özgəninkiləşdirilməsi məhz bu cür baş verir. Çünki gələcəkdə yeni məqalələr yazılanda bu məqaləyə istinadlar olacaq və mötəbər mənbə kimi əsas götürüləcək. Ermənilərin yalançı təbliğatının bünövrəsi bu cür məqalələrlə qoyulur.

Hayların tarixi də məhz bu cür yazılıb. Müxtəlif yalanlar, mifologiya sonradan tarix dərsliklərinə düşür. Ermənilərin yeni nəsilləri isə bu yalanların, saxta təbliğatın qurbanına çevrilirlər. Yeni nəsillər öz tarixləri haqda yalanların miqyasını daha da genişləndirirlər. Amma Azərbaycan tərəfinin bəyan etdiyi reallıqlar son vaxtlar beynəlxalq ictimaiyyətə daha mötəbər təsir bağışlayır. Düşünürəm ki, bu da ölkəmizin informasiya siyasətinin düzgün qurulmasının nəticəsidir.

Ermənilərinin övladları bu müharibədə qurban gedib. Separatizm ocağını alovlandıranların isə burnu da qanamayıb.

Azərbaycan hazırda Qarabağda bir zaman onun vətəndaşı olan ermənilərin yenidən ölkənin ictimai, sosial, iqtisadi həyatına inteqrasiyasına nail olmağa çalışır. Bakı Qarabağ ermənilərini ölkənin tamhüquqlu vətəndaşı hesab edir və onların Konstitusiya ilə bütün hüquqlarının təmin olunacağını bildirir. Əlbəttə, heç də bütün ermənilər bunun tərəfdarı deyil. Həmin şəxsləri də heç kim zorla tutub saxlamır. Onlara Ermənistana, oradan da üçüncü ölkələrə getməkdə sərbəstdirlər. Azərbaycanın suveren ərazilərində yaşayanlar isə onun Konstitusiyası başda olmaqla qanunlarına, dövlət rəmzlərinə hörmət etməli, üzərlərində Azərbaycan pasportu daşımalıdırlar. Bunu hər kəsin, o cümlədən britaniyalı jurnalist Pol Brayanın birdəfəlik yadda saxlaması lazımdır.

**Səxavət HƏMİD,**
***"Xalq qəzeti"***

# Rusiya öz daxilində "Talış-muğan respublikası" yaratmaq istəyirsə...

(əvvəli 1-ci səhifədə)

Əvvəlcə, qondarma "Talış-muğan respublikası"ndan söz açaq. 1993-cü ildə Azərbaycanın cənubunda formalaşdırılmış və cəmi iki ay ömür sürmüş bu separatçı qurum SSRİ-nin dağılmasından sonrakı Azərbaycanın rüsvayçılıq səhnələrindən biri idi. SSRİ-nin süqutu məsələsini təsadüfən vurğulamadıq. Məlum olduğu kimi, keçmiş imperiyanın mirasına sahib çıxan Rusiyanın bəzi dairələri ənənəvi "parçala və hökm sür!" siyasəti ilə müttəfiq respublikaların içərisində nifaq toxumları səpirdilər. O da məlumdur ki, həmin dönəmdə 1988-ci ildən vüsət almış erməni separatizmi artıq müəyyən "nəticələr" əldə etmişdi. Torpaqlarımızın işğalı gerçəkləşmişdi. Məhz belə bir dövrdə ölkəmizdə yeni separatçılıq yuvasının yaradılmasına da başlanmışdı.

Separatçıların lideri Əlikram Hümbətov idi. Onun Rusiyadakı dairələr tərəfindən təlimatlandırılıb ortaya atıldığı aşkardır. Jurnalist Tomas De Vaalın fikrincə, Ə.Hümbətovun məqsədi eks-prezident Ayaz Mütəllibovu hakimiyyətə yenidən qaytarmaq idi. Jurnalist bu qənaətə elə-belə gəlmirdi. O, A.Mütəllibovun Rusiyadakı siyasi dairələrə bağlılığına söykənirdi.

Digər tərəfdən, Şimala meyilli separatçı qurum imkan verəcəkdi ki, Azərbaycanın İranla sərhədlərini Rusiya hərbçiləri qorusun. Nəzərə alaq ki, Moskva sözügedən məqsədə çatmaq üçün dəridən-qabıqdan çıxırdı və sonrakı illərdə də bu tendensiyanın şahidi olduq. Ümumən, Moskvanın Azərbaycan-İran sərhədində keşikçilik sevdası başımıza gələn bir çox bəlaların səbəbi kimi də qiymətləndirilə bilər…

Əlbəttə, "Talış-muğan respublikası" separatizmin son dərəcə çiy işlənmiş planı idi. Birincisi, talışlar hər zaman Azərbaycan xalqının bir hissəsi olublar. Həmişə ölkəni özlərinə Vətən biliblər. Onlarda zərrə ucu qədər də separatçılıq meyli olmayıb. Respublikamızın inkişafına hər zaman öz töhfələrini veriblər. 44 günlük müharibədə də Azərbaycandakı digər azsaylı xalqların nümayəndələri kimi, əllərində silah böyük fədakarlıqlar və qəhrəmanlıqlar göstəriblər. Yəni, Rusiyadakı şovinist dairələrin "Talış-muğan respublikası" ideyasını ortaya atmaqla, Azərbaycanda Qarabağdan sonra ikinci separatizm ocağı yaratmaq arzuları ölü doğulmuş bic uşaq kimi bir şey idi.

***

Ancaq indi belə görünür ki, Rusiyada kimlərsə həmin o "vələdüzzina ölü körpəni" yenidən diriltmək "fikrinə" düşüblər. Yoxsa, niyə "Talış-muğan respublikası"nın yaranmasının 30 illiyi" qeyd edilsin ki? Yeri gəlmişkən, Azərbaycanın Rusiyadakı səfirliyinin mətbuat xidmətinin bununla bağlı yaydığı məlumatda qeyd olunub ki, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı təşkil olunan bu tədbirlə əlaqədar səfirlik tərəfindən Rusiya XİN-ə etiraz notası ünvanlanıb və səfir Polad Bülbüloğlu Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevə Azərbaycanın prinsipial mövqeyini və qəti etirazını əks etdirən məktub göndərib. Həmçinin Yekaterinburq şəhərində fəaliyyət göstərən "Azərbaycan-Ural" İctimai Milli-Mədəni Təşkilatının sədri Şahin Şıxlinski şəhərin müvafiq inzibati orqanlarına müraciətlər ünvanlayıb.

Rusiya tərəfinin diqqətinə bu kimi təxribat xarakterli tədbirin təşkilinin və burada Yekaterinburq Şəhər Dumasının sədri İqor Volodinin qonaq qismində iştirakının qəbuledilməz olduğu çatdırılıb. Eyni zamanda, ölkənin hakim partiyasının təmsilçisinin bu addımının separatçılığı təşviq etdiyi, Azərbaycan–Rusiya qarşılıqlı müttəfiqlik əlaqələrinin mahiyyətinə kökündən cavab vermədiyi, habelə ikitərəfli əməkdaşlığa zərbə vurduğu bildirilib. İqor Volodin və tədbirin təşkilatçıları ilə əlaqədar təxirəsalınmaz tədbirlərin görülməsi, gələcəkdə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı atıla biləcək bu cür təxribat xarakterli addımların qarşısının qətiyyətlə alınması təkidlə xahiş olunub.

***

**Sual olunur:** Rusiya dövlətinin cavabı nə olacaq? Əlbəttə, mümkündür ki, ümumi ifadələrlə baş vermiş hadisənin yolverilməzliyi necəsə əsaslandırılacaq. Daha doğrusu, əsaslandırılmasına cəhd göstəriləcək. Amma "çifayda". Axı, necə ola bilər ki, Rusiyanın hakim siyasi partiyasının təmsilçisi gedib tədbirin "mahiyyətinə" fikir verməsin? Buna kim inanacaq? Heç kim! Yekaterinburq Şəhər Dumasının sədri İqor Volodin fərqinə varmayıbmı ki, qonaq qismində qatıldığı tədbirin mövzusu nə idi? Yəni, adam separatçılıqla bağlı toplantıya gedərkən içkili olub, hərəkətini bilməyib? Bu qədərmi çox içib? Nə deyək, heç bir izah tapa bilmirik. Mümkün də deyil. Ağla istər-istəməz min fikir gəlir.

Məsələn, düşünə bilərik ki, Qarabağdakı separatçılıq çənbəri daraldığından, Rusiyadakı bəzi dairələr yeni əməli "Talış-muğan respublikası" qondararaq reallaşdırmaq "eşqinə" düşüblər. Bəlkə, onlar Azərbaycanı hədələyiblər? Baxın, bizim sizin ölkədə başqa təfriqə yuvası yaratmaq imkanımız var, – deyə subliminal mesaj vermək niyyətinə düşüblər. Volodin və digər "Yedinaya Rossiya"çılar toplantıya gedəndə belə fikirlərin meydana çıxa bilmə ehtimalını düşünməyiblərsə, daha deməyə sözümüz yoxdur. Belələri nə vaxtsa Rusiyanın daxilindəki xalqlardan hansınınsa separatçı mahiyyət daşıyan yığıncaqlarına da qatıla bilərlər. Nə çoxdur ölkədə belə yerlər. Onların hamısında separatçı respublika yaradılmasına cəhd göstərilsə, indiki Rusiyadan əsər-əlamət qalmayacaq. Volodin kimi personalardan nə desən gözləmək mümkündür.

***

Biz onu da düşünə bilərik ki, Rusiyanın bəzi şovinist, ermənipərəst dairələri Qarabağdakı sülhməramlı kontingenti ölkənin Cənubi Qafqazda mövcudluq siperi kimi görürlər. Lakin bu siper heç nəyə yaramır. Yada salaq ki, həmin hərbi kontingent 2020-ci il noyabrın 10-da Qarabağa ayaq basanda oradakı erməni əhalinin qayğısına qalmaq üçün az qala pampers də daşıyırdı, Rusiyanı ermənilərə şirin satırdı. Ancaq gördük ki, nankor ermənilər nəticə çıxarmadılar. Moskvanın dediyi ilə oturub-durmadılar və bu gün də eyni hərəkətlərini davam etdirirlər.

Bəli, görürük ki, ermənilərin Qarabağdan total köçü başlayıb. Ermənistan baş naziri Nikol Paşinyan Azərbaycana qarşı avantürizmi həmin köçdə yer alan qırıq unitazlar üzərinə oynayır, amma Rusiyadan mədət ummaq istəmir. Bir halda ki, sülhməramlılar azərbaycanlılar və ermənilər arasında sülhün yaranmasına kömək göstərmək məqsədilə gəlmişdilər və ikincilər sülh şəraitində yaşamaq istəməyib bölgəni tərk edirlər, o zaman Rusiyanın hərbi kontingenti də onların arxalarına düşüb ərazidən qayıtmalıdırlar. Gəldikləri yolla da geri qayıtmalıdırlar. Sadə məntiq bunu deyir. Amma, görünür, kimlərsə Cənubi Qafqazda qalıcılığın formasını hərbi mövcudluqda görürlər və onlar erməni separatizmini, belə demək mümkünsə, "cənub separatizminə" dəyişməyə girişiblər, nəticədə boş başlarına "Talış-muğan muxtar respublikası"nın yaranmasının 30 illiyi"ni qeyd etmək ideyası gəlib.

Başqa qənaətlərimizi də sadalaya və müxtəlif mülahizələr, versiyalar irəli sürə bilərik. Amma istəmirik. Çünki bu mülahizələr hər bir halda Rusiyanı Azərbaycan insanının gözündən salacaq, cılız hala gətirəcək. Heç kəs düşünməyəcək ki, beş-altı adam sərxoş olduğundan fərqinə varmadan "Talış-muğan muxtar respublikası"nın yaranmasının 30 illiyi"nə həsr edilmiş tədbirə qatılıb (?). Fikirləşək ki, bu, planlaşdırılmış hərəkətdir. Nəticədə, ümumən Rusiya dövlətinə, Azərbaycanın Rusiya ilə əlaqələrinə zərər dəyəcəkdir. Moskvada, Yekaterinburqda bunu düşünən yoxdursa, biz düşünür və başqa versiyaları gündəmə gətirmirik. Amma Rusiyadan Azərbaycan səfirliyinə cavab gəlməsə, yaxud cavab ağlabatan olmasa, həmin mülahizə və versiyaları da diqqətə çatdıracağıq. Hələlik, bununla kifayətlənək.

Hər ehtimala onu da deyək ki, Azərbaycan otuz il əvvəlki zəif ölkə deyil. Dövlətimiz özünü hər cür təhdidlərdən, o cümlədən separatçılıq meyillərindən qorumaq iqtidarındadır. Qoruyanlar isə, ilk növbədə, elə həmin talış xalqının nümayəndələridir. Bu xalqın təmsilçiləri respublikamızın milli məfkurəsinin formalaşmasına son dərəcə böyük xidmətlər göstəriblər. Ona görə Azərbaycanı zəif təsəvvür gətirənlər qəflət yuxusundan ayılsalar və reallıqları nə qədər tez görsələr, bir o qədər yaxşıdır. Ən əsası isə Rusiya dövlətinin belələrinə qarşı tədbir görməyidir. Çünki milçək bir şey deyil, ancaq könül bulandırır. Könlün bulanması öz növbəsində səmimiyyətə xələl gətirir. Şimaldan qasırğa yox, səmimiyyət gözləyirik. Təəssüf ki, otuz il ərzində gördüyümüz ancaq qasırğa olub.

Sonda bir məqamın üzərində də dayanaq. Rusiya dövlətinin baş vermiş hadisəni ciddi araşdırması və aydınlıq gətirməsi son dərəcə vacibdir. Ölkənin tərkibində muxtar respublikaların sayı çoxdur. Bəlkə Volodin və onun kimilər Rusiyanın özündə "Talış-muğan respublikası" yaratmaq istəyənlərin təşəbbüslərinə dəstək vermək üçün tədbirə qatılıblar? Əgər belədirsə, özləri bilər. Bəlkə, Rusiyanın federativ quruluşu özünün yeni zənginləşmə mərhələsinə qədəm qoyub. Əlbəttə, buna normal yanaşmamaq kimi fikrimiz ola bilməz.

*Ə.CAHANGİROĞLU,*
*"Xalq qəzeti"*



# Paytaxtda klassik avtomobillərin yürüşü



**Azərbaycan Avtomobil Federasiyası (AAF) və "Zhara Events"in təşkilatçılığı ilə avqustun 27-də klassik avtomobillərin yürüşü və sərgisi keçirilib.**

Bu avtomobillər yürüş üçün Avtomobil Federasiyasında qeydiyyatdan keçən və Heydər Əliyev Mərkəzindəki daimi sərginin bəzi eksponatlarından ibarət nəqliyyat vasitələri olub.

Heydər Əliyev Mərkəzinin qarşısından start götürən klassik avtomobillər "Sea Breeze" istirahət mərkəzinədək yürüş ediblər. Yürüşə 1983-cü ilədək istehsal olunan nəqliyyat vasitələri qatılıb. Əvvəlcə klassik avtomobillər şəhərin mərkəzi küçələri ilə hərəkət edib.

Yürüşün marşrutu Heydər Əliyev Mərkəzi – Gülarə Qədirbəyova küçəsi – Yusif Səfərov küçəsi – Üzeyir Hacıbəyli küçəsi – Neftçilər prospekti - Yusif Səfərov küçəsi – Heydər Əliyev prospekti –Aeroport yolu – Bakı Ekspo Mərkəzi – "Sea Breeze Resort" olub.

Ənənə halını almış yürüşdə paytaxt küçələrini müxtəlif illərdə və ölkələrdə istehsal olunan klassik avtomobil karvanı bəzəyib. Bu avtomobillərin hər birinin olduqca maraqlı tarixi var. Həmin avtomobillər dövrünün müasiri olsa da, zaman keçdikcə onların tarixi dəyəri daha da artır.

Retro nəqliyyat vasitələri şəhər sakinlərində, paytaxtımızın qonaqlarında və klassik avtomobil həvəskarlarında nostalji hisslər yaradıb.

Karvanda qeyri-adi avtomobillər də yer alıb. Məlum olduğu kimi, dünya təcrübəsində nadir hallarda avtomobillərə fərqli dekorativ kompozisiyalar quraşdırılaraq müxtəlif incəsənət nümunələri yaradılır. Azərbaycanda ilk dəfə avtomobil üzərində nəbati elementlərdən ibarət dekorativ kompozisiya məhz Qaz-M21 Volqa avtomobili üzərində edilib. Yürüşdə iştirak edən bu nəqliyyat vasitəsi görünüş etibarilə avtomobil üzərində quraşdırılan nadir dekorativ-tətbiqi sənət kompozisiyalarından biri hesab olunur.

Əlli kilometrdən çox məsafəni qət edərək "Sea Breeze" istirahət mərkəzinə çatan klassik avtomobillərin burada sərgisi təşkil olunub.

Məkanda müxtəlif təqdimatlar və əyləncələrin keçirildiyi sponsorlar zonası da təşkil edilib. Burada son illərdə paytaxt Bakının ev sahibliyi etdiyi Formula 1-in bolidi də yer alıb. Foto həvəskarlarının, eləcə də həmin günün ziyarətçilərinin yaddaşında gözəl bir xatirə kimi həkk olunması üçün xüsusi fotozona da yaradılıb.

Tamaşaçılar üçün, həmçinin tanınmış ifaçıların iştirakı ilə retro tərzdə konsert də təqdim edilib.

Konsertdə sevilən müğənnilər Aisel, Cin, Dilarə Kazımova, Nigar Camalzadə, EMİN, Murad Arif, Nura Suri, Rilaya Hüseynzadə və Zamiq Hüseynov çıxış ediblər.

"Sea Breeze"də ziyarətçilər üçün əyləncə proqramı da təşkil olunub, müsabiqələr keçirilib, müxtəlif nominasiyalarda - "Ən nizamlı sürücü", "Ən qədim avtomobil", "Ən unikal avtomobil", "Məşhurların seçimi olan avtomobil" və "Ən rəngarəng geyim" nominasiyalarında hədiyyələr təqdim olunub.

Yürüşdə iştirak edən "Qaz-60" avtomobilinin sürücüsü Zaur Əliyev idarə etdiyi nəqliyyat vasitəsinin 1960-cı ildə buraxıldığını bildirib: "Mən bu avtomobili 2014-cü ildən etibarən yığıram. Bundan əlavə digər nadir nəqliyyat vasitələrim də var. Şəhərdə bunu idarə etmək çətindir. Ona görə də çox az hallarda idarə edirəm".

"Harley-Davidson" markalı motosikletin sahibi Vladislav Vologin nəqliyyat vasitəsinin 1938-ci ilə məxsus olduğunu söyləyərək bildirib: "Bu, mənə babamdan qalıb. Hazırda çox az adam bundan istifadə edir".

Sərgiyə 1926-cı il istehsallı "Moskvich"i ilə qatılan Araz Kərimov isə nəqliyyat vasitəsini beş il əvvəl Polşadan gətirdiyini vurğulayıb. O deyib: "Avtomobili təxminən 1500 dollara almışam. Bu cür köhnə avtomobillərə uşaqlıqdan həvəsim var".

# Fransa Prezidentinin Azərbaycana hörmətsizliyi



**Avqustun 28-də Fransa Prezidenti Emmanuel Makronun səfirlər konfransı zamanı səsləndirdiyi bölgə üzrə mövcud vəziyyətə dair yanlış təəssürat formalaşdıran və Ermənistanı birtərəfli qaydada müdafiə edən qərəzli fikirləri sülh prosesinə xələl gətirir.**

"XQ" xəbər verir ki, bu fikirlər XİN-in mətbuat katibi Ayxan Hacızadənin Fransa Prezidenti E.Makronun səfirlər konfransında səsləndirdiyi fikirlərə dair şərhində əksini tapıb.

Ayxan Hacızadənin sözlərinə görə, Fransa Prezidentinin növbəti dəfə bölgədə humanitar vəziyyət barədə iddiaları əsas götürərək fikirlər səsləndirməsi bu ölkənin siyasətinin yanlış olduğunu bir daha sübut edir.

"Azərbaycana qarşı 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən həyata keçirilən işğalçılıq və təcavüz əməllərini qınamayan, işğal nəticəsində bir milyona yaxın qaçqın və məcburi köçkünün humanitar vəziyyətinə dair heç bir şərh verməyən Fransa tərəfinin indi Azərbaycanın BMT nizamnaməsinə və beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz torpaqlarının azad edilməsi ilə nəticələnən 2020-ci il 44 günlük Vətən müharibəsini qınaması, eləcə də bölgədə humanitar vəziyyətlə bağlı iddialara çıxışında xüsusi vurğu etməsi anlaşılan deyil", - deyə Xarici İşlər Nazirliyinin rəsmisi vurğulayıb.

O qeyd edib ki, Fransa Prezidentinin leksikonunda "Laçın humanitar dəhlizi" kimi ifadələrə yer verməsi, bu istiqamətdə təzyiq dili ilə danışması qəbuledilməzdir və Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmətsizlikdir.

"Laçın yolundan və sərhəd buraxılış məntəqəsindən gün ərzində onlarla erməni sakinin keçdiyi, Azərbaycan tərəfindən erməni sakinlərə yüklərin daşınması üçün Ağdam-Xankəndi və digər alternativ yolların ayrıldığı, bütün bu səylərə baxmayaraq, bu yollardan istifadənin Ermənistan və özlərini erməni sakinlərin nümayəndələri kimi təqdim edən şəxslər tərəfindən siyasiləşdirilməsi Fransa tərəfinə yaxşı məlumdur. Bu istiqamətdə cari ilin avqust ayının əvvəlində əldə olunmuş razılıqların icrasını təşviq etmək əvəzinə erməni tərəfinin təhrikçi addımlarına dəstək verən fikirlərə çıxış yer verilməsi prosesə birbaşa maneçilik törədən amillərdəndir.

Praqada Avropa İttifaqı missiyasının və 1991-ci il Alma-Ata bəyannaməsi çərçivəsində sərhədlərin tanınması təşəbbüsünün müəllifliyinin Fransa tərəfinin olduğunu bildirən Fransa tərəfinin, nəyə görə Azərbaycan əraziləri işğal altında olan 30 ilə yaxın bir dövrdə bu kimi təşəbbüslərlə çıxış etmədiyi sualına da cavab verməsi daha faydalı olardı.

Azərbaycan tərəfi bölgədə sülh və təhlükəsizliyin təmin olunmasında qərarlıdır və bu prosesə maneçilik törədən bütün kənar müdaxilələrin qarşısı qətiyyətlə alınacaq", - deyə Ayxan Hacızadə əlavə edib.

*"Xalq qəzeti"*

# Erməni futbolçular 10 gün həbsdə qalacaq

**Laçın sərhəd-keçid məntəqəsində saxlanılan erməni futbolçular həbs edilib. Bu barədə Baş Prokurorluqdan "XQ"yə verilən məlumatda bildirilib.**



Məlumata görə, erməni futbolçularının Azərbaycan Respublikasının Dövlət bayrağı barədə təhqiredici hərəkətlər etmələri faktı ilə bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri cinayət işi başlanmaqla istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə olunub.

Aparılan cinayət işi üzrə kifayət qədər əsaslı şübhələr yarandığından Ermənistanın vətəndaşları - 2001-ci il təvəllüdlü Alen Sarqsyan, 2003-cü il təvəllüdlü Vahe Hovsepyan və Levon Qriqoryanın Cinayət Məcəlləsinin qeyd olunan maddələrilə təqsirləndirilən şəxs qismində cəlb olunması barədə qərar qəbul edilib, lakin olduqları yer istintaqa məlum olmadığına görə barələrində beynəlxalq axtarış elan edilməklə məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Keçirilmiş axtarış tədbirləri nəticəsində avqustun 28-də qeyd olunan şəxslər Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Laçın sərhəd–keçid məntəqəsində saxlanılıb.

Müdafiə hüquqları təmin edilməklə istintaqa cəlb edilən şəxslər dindirmə zamanı törətdikləri əməli etiraf edərək səmimi peşman olduqlarını, gələcəkdə bir daha bu kimi hərəkətlərə yol verməyəcəklərini bildirib.

Təqsirləndirilən şəxslərin yaşı, törətdikləri əməli səmimi etiraf etməklə peşman olmaları nəzərə alınıb və cinayət prosessual qanunvericiliyin tələblərinə əməl olunmaqla humanizm prinsipi tətbiq edilərək onların barəsində cinayət təqibinə xitam verilib.

Eyni zamanda, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanunun tələblərinə əsasən milli, irqi və ya dini nifrət və düşmənçiliyin salınmasına yönələn açıq çağırışlar edən informasiyanın internet informasiya ehtiyatında yerləşdirilməsi qadağan edildiyi halda, hərəkətlərini video qeydiyyata alıb bu günədək yutub və müxtəlif sosial şəbəkə vasitələrində yaydıqlarına görə, Baş Prokurorluğun müvafiq qərarı əsasında İnzibati Xətalar Məcəlləsinin 388-1-ci (İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi)- maddəsi ilə inzibati icraat başlanıb, qeyd olunan şəxslərin barəsində məhkəmənin qərarı ilə 10 gün müddətə inzibati həbs tətbiq olunub.

İnzibati həbs cəzasının icrasından sonra qeyd olunan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması təmin olunacaq.

*"Xalq qəzeti"*

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün DÖVLƏT PROQRAMI

**1. Qısa xülasə**

XXI əsrin ilk illərindən etibarən Azərbaycan Respublikasında dayanıqlı sosial-iqtisadi inkişafı stimullaşdıran genişmiqyaslı islahatlar reallaşdırılmış, çətin həyat şəraitində olan şəxslərin cəmiyyətə inteqrasiyasını təmin edən sosial xidmət sisteminin yaradılması və müvafiq sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində əhatəli işlər görülmüşdür.

Azərbaycan Respublikasının ratifikasiya etdiyi bir sıra beynəlxalq sənədlərin və milli qanunvericiliyin müvafiq müddəalarında mütərəqqi sosial xidmət sisteminin yaradılması, sosial xidmətlərin daim yenilənən müasir tələblərə uyğunlaşdırılması kimi əhəmiyyətli məsələlərin həlli nəzərdə tutulmuşdur. Bu məqsədlə növbəti mərhələdə sosial xidmət sisteminin təkmilləşdirilməsi və daha da gücləndirilməsi istiqamətində dövlət siyasətini müəyyən edən “Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı” (bundan sonra – Dövlət Proqramı) hazırlanmışdır.

Dövlət Proqramı Azərbaycan Respublikasının sosial xidmət sisteminin, o cümlədən qanunvericiliyin və institusional mexanizmlərin təkmilləşdirilməsi və sosial xidmətlərin təminatı üçün zəruri şəraitin yaradılması üzrə dövlət siyasətinin əsaslarını müəyyən edir. Dövlət Proqramında əhalinin bütün həssas qruplarına göstəriləcək sosial xidmətlərin kəmiyyət və keyfiyyətinin artırılması, xidmətlərə əlçatanlığın təmin edilməsi və sosial səmərəlilik prinsiplərinin gerçəkləşdirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi hədəf kimi nəzərdə tutulmuşdur.

**2. Qlobal trendlər**

Birləşmiş Millətlər Təşkilatının (bundan sonra – BMT) Əhali Fondunun hesablamalarına əsasən, 2050-ci ildə dünya əhalisinin sayının daha 2 milyard nəfər artaraq 9,7 milyard nəfərə çatacağı proqnozlaşdırılır. Son onilliklər ərzində tibbin inkişafı, səhiyyə xidmətlərinin keyfiyyətinin artması nəticəsində dünyada insanların sağlamlıq və uzunömürlülük səviyyəsi yüksəlmiş, ümumilikdə dünya əhalisinin yaş strukturunda ahıl şəxslərin sayı əvvəlki dövrlərə nisbətən xeyli artmışdır. Lakin son dövrlərdə dünyada baş verən bir sıra mənfi proseslər insanların bir qisminin həyat səviyyəsinə, sosial-psixoloji vəziyyətinə mənfi təsir göstərmiş, onların sosial təhlükəli vəziyyətə düşmələrinə səbəb olmuşdur.

Son illərdə Azərbaycan Respublikasında əhalinin etibarlı sosial müdafiəsi istiqamətində mühüm işlər görülmüşdür. Eyni zamanda, Azərbaycan Respublikası müxtəlif səbəblərdən çətin həyat şəraitinə düşmüş insanların sosial müdafiəsinin təmin edilməsi məqsədilə aidiyyəti beynəlxalq və regional təşkilatlar, müxtəlif qurumlar tərəfindən qəbul edilmiş bir sıra dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilə və sazişlərə qoşulmuşdur. Bu da insan hüquq və azadlıqlarının, o cümlədən vətəndaşların sosial hüquqlarının qəbul olunmuş beynəlxalq prinsip və normalar əsasında reallaşdırılmasına təminat vermişdir.

Bundan əlavə, XXI əsrin destruktiv texnoloji, sosioloji və digər çağırışları, qlobal rəqabətin bütün müstəvilər üzrə kəskinləşməsi trendləri innovativ üsullara və insan kapitalına söykənən müasir sosial təminat sisteminin tətbiq edilməsi məsələlərini önə çıxarmışdır ki, burada əsas məqsəd başqa sahələrdə olduğu kimi əhalinin sosial müdafiəsi sahəsində də rəqabət aparmaq imkanlarına malik, müasir çağırışlardan sığortalanmış dayanıqlı sosial sistemin qurulmasıdır.

2015-ci ilin sentyabr ayında keçirilmiş BMT-nin Dayanıqlı İnkişaf Sammitində Azərbaycanın da iştirak etdiyi BMT-nin üzvü olan dövlətlər tərəfindən “2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik” qəbul edilmiş, Gündəlikdə irəli sürülən Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün bütün imkanları səfərbər etməklə, “heç kəsi kənarda qoymamaq” prinsipinə əsaslanaraq insan həyatının və fəaliyyətinin bütün istiqamətlərində, o cümlədən yoxsulluğun azaldılması və sosial təminat sahəsində mövcud olan problemlərin aradan qaldırılması üçün birgə səylərin göstərilməsi barədə razılıq əldə edilmişdir.

Beləliklə, həm Azərbaycan Respublikasında həyata keçirilən sosial siyasət, həm müvafiq sahədə ratifikasiya edilmiş beynəlxalq sənədlərin müvafiq müddəaları, həm də qlobal çağırışlar əhalinin daha keyfiyyətli sosial xidmətlərlə təmin olunmasını, bu sahədə yüksəkixtisaslı kadr potensialının yaradılmasını, sosial xidmət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsini və innovativ texnologiyaları tətbiq etməklə, sosial xidmət sisteminin də müasir dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsini mühüm vəzifə kimi qarşıya qoymuşdur.

**3. Azərbaycan Respublikasında sosial xidmət sisteminin mövcud vəziyyəti**

Son illərdə həyata keçirilmiş uğurlu sosial siyasət nəticəsində həssas əhali qruplarından olan (valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar, bu səbəbdən sosial xidmət müəssisələrində yaşamış, həmin müəssisələri tərk etdikdən sonra yaşayış yeri olmayan şəxslər, əlilliyi olan uşaqlar, baxımsızlığa və sosial təhlükəli vəziyyətə məruz qalmış, xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslər, insan alveri qurbanları və belə risklə üzləşən şəxslər, məişət zorakılığından zərər çəkmiş şəxslər, müəyyən yaşayış yeri olmayan, sosial yadırğama və sosial məhrumiyyət vəziyyətində olan və s.) şəxslərin sosial xidmətlərlə təminatında mühüm nailiyyətlər əldə edilmiş, “Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununun qəbul olunmasından ötən dövr ərzində həyata keçirilmiş tədbirlər nəticəsində çətin həyat şəraitində olan vətəndaşların daha münasib həyat şəraitinə qayıtması imkanları artmışdır.

Sosial-iqtisadi həyatın bütün sahələrində aparılan islahatlar nəticəsində sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının etibarlı müdafiəsi istiqamətində reallaşdırılan tədbirlərin əhatə dairəsi davamlı olaraq genişləndirilmişdir. Bu kateqoriyadan olan şəxslərlə bağlı həyata keçirilən siyasətin əsas məqsədi onların cəmiyyətin digər üzvləri kimi bərabərhüquqlu, dolğun həyat şəraitinə malik olmalarının və cəmiyyətə inteqrasiya olunmalarının təmin edilməsidir.

Çətin həyat şəraitində yaşayan şəxslərə sosial xidmət göstərilməsi sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarının müəyyən olunması və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi məqsədilə qəbul edilmiş “Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununun icra mexanizmlərinin müəyyən edilməsi ilə bağlı müvafiq normativ hüquqi aktlar (“Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası”, “Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası”, “Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi Qaydası” və s.) qəbul edilmişdir. Bununla da Azərbaycan Respublikasında çoxspektrli sosial xidmətlər sistemi formalaşmış və bu sistem həmin şəxslərin məruz qaldıqları çətin həyat şəraitindən müdafiəsinə, sosial reabilitasiyalarına və cəmiyyətə inteqrasiya imkanlarına malik olmalarının təmin edilməsinə yönəldilmişdir. Ötən dövrdə sosial xidmət müəssisələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, müəssisələrin strukturlarının müasir tələblərə uyğunlaşdırılması ilə bağlı mühüm tədbirlər həyata keçirilmiş, yeni sosial xidmət müəssisələri (uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunları üçün “Məzun evi” Sosial Müəssisəsi, həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi və s.) yaradılmışdır.

Ahıl şəxslərə dövlət qayğısının artırılması istiqamətində tədbirlər davam etdirilmiş, onların sosial müdafiəsinin gücləndirilməsini nəzərdə tutan müvafiq qanunvericilik aktlarının təkmilləşdirilməsi ilə bağlı zəruri işlər görülmüşdür.

Hər bir cəmiyyətdə uşaqların sosial müdafiəsi, sağlam və firavan böyüməsi, fiziki və mənəvi inkişafı üçün həyata keçirilən siyasət həmin cəmiyyətin ümumi inkişafının əsas keyfiyyət göstəricilərindən biri hesab edilir. Sivil və ümumbəşəri dəyərləri daim yüksək tutan Azərbaycan Respublikası da uşaqların münasib şəraitdə böyüyərək tərbiyə olunmaları və onların layiqli vətəndaş kimi formalaşmalarının təmin edilməsi sahəsində fəal siyasəti ilə fərqlənir. Hazırda Azərbaycan Respublikasının ixtisaslaşdırılmış sosial xidmət müəssisələri tərəfindən uşaqların münasib yaşayış şəraiti, sığınacaq və reinteqrasiya xidmətləri ilə təmin edilməsi, təhsilin və peşə hazırlığının, sosial reabilitasiyasının təşkili, onlara hüquqi, psixoloji yardımın göstərilməsi və digər tədbirlər həyata keçirilir. Uşaqlarla bağlı dövlət siyasətinin əsas hədəflərindən biri uşaq müəssisələrində yaşayan uşaqların ailə mühitində böyüməsinin təmin edilməsi, eyni zamanda onların stasionar uşaq müəssisələrinə düşməsinin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsidir. Uşaq müəssisələrinə düşmək riski olan 3234 uşaq müxtəlif şəhər və rayonlarda təşkil edilən günərzi qayğı mərkəzlərində xidmətlərə cəlb olunmuş, “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı ilə bağlı 2006–2015-ci illər üzrə Dövlət Proqramı”nın icrası çərçivəsində, eləcə də sonrakı dövr üzrə fəaliyyət nəticəsində 879 uşaq ailələrinə qaytarılmışdır.

Əlilliyi olan uşaqların digər ölkələrdə ixtisaslaşmış bərpa müalicəsinin təşkili diqqətdə saxlanılmış, ötən dövrdə bu kateqoriyadan olan 386 uşağın xarici ölkələrdə ixtisaslaşmış reabilitasiya kursu keçməsi təşkil edilmişdir.

Hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin məzunu olan gənclərin yaşayış problemlərinin həlli ilə bağlı ciddi tədbirlər görülmüş, bu məqsədlə çoxmənzilli binalar inşa edilərək həmin kateqoriyadan olan 590 gəncin istifadəsinə verilmişdir.

Azərbaycan Respublikasında məişət zorakılığına qarşı mübarizənin kompleks şəkildə həyata keçirilməsi, məişət zorakılığının profilaktikası məqsədilə “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunun icrası ilə əlaqədar məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyasını həyata keçirən komissiya yaradılmış və həmin komissiya tərəfindən 10 qeyri-dövlət yardım mərkəzi akkreditə edilmişdir. Bu mərkəzlərdə zorakılıqdan zərər çəkmiş 1814 şəxsə sosial, psixoloji, hüquqi, ilkin tibbi yardım, səhiyyə müəssisələrinə yönləndirmə xidmətləri göstərilmiş, ehtiyacı olanlar müvəqqəti sığınacaqlarla təmin edilmişlər.

Qloballaşan dünyanın əsas problemlərindən olan insan alveri ilə mübarizədə müasir informasiya texnologiyalarının imkanlarından geniş istifadə və qurbanlara göstərilən dövlət dəstəyinin artırılması nəticəsində son illərdə Azərbaycan Respublikasında insan alverinin potensial qurbanlarının sayı əvvəlki dövrlərə nisbətən əhəmiyyətli dərəcədə azalmış, 1223 insan alveri qurbanı və risk qrupuna daxil olan şəxsin sosial reabilitasiyası istiqamətində müvafiq tədbirlər görülmüşdür. İnsan alveri ilə bağlı ictimai məlumatlılığın artırılması məqsədilə təhsil müəssisələrində mütəmadi olaraq maarifləndirici tədbirlər keçirilmiş, Azərbaycan Respublikasına gələn və ya Azərbaycan Respublikasından gedən şəxslərin bu və ya digər şəkildə insan alverinin qurbanı olmaq, məcburi əməyə cəlb edilmək təhlükəsindən qorunmaq yolları barədə məlumatlandırılması təmin edilmişdir.

Sosial xidmət sisteminin daha bir istiqaməti penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial müdafiəsi və sosial adaptasiyası ilə əlaqədar tədbirlərin təşkilidir. Hazırda cəza çəkməkdən azad edilmiş tibbi və sosial yardıma ehtiyacı olan şəxslərə minimum aylıq əməkhaqqının 4 misli məbləğində birdəfəlik müavinət ödənilir, həmçinin sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər kimi məşğulluqlarının təmin olunması və cəzaçəkmə müddəti başa çatmaq ərəfəsində olan şəxslərin peşə hazırlığının təşkili tədbirləri həyata keçirilir. 2018-ci ildən fəaliyyətə başlayan penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi tərəfindən bu kateqoriyadan olan şəxslərin sosial adaptasiyası, qanuni mənafelərinin qorunması, onlara hüquqi, sosial-psixoloji, sosial-məsləhət yardımının göstərilməsi, həmçinin həmin kateqoriyadan olan və müəyyən yaşayış yeri olmayan şəxslərin müvəqqəti yaşayış yeri ilə təmin edilməsi üçün kompleks xidmətlər göstərilir.

Sosial xidmət sahəsində dövlət sifarişlərinin qeyri-hökumət və qeyri-kommersiya təşkilatlarına verilməsi nəticəsində 482 layihə icra edilmiş, layihələr çərçivəsində ümumilikdə 35 mindən artıq çətin həyat şəraitində olan şəxsə və onların ailələrinə sosial-psixoloji, sosial-hüquqi, tibbi-sosial, sosial-məişət xidmətləri, sosial-məsləhət yardımı göstərilmiş, sosial reabilitasiya və müalicələrinin təşkili, reinteqrasiya xidmətlərinin göstərilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasında demoqrafik vəziyyət əhalinin sayının ilbəil artması ilə səciyyələnir. 2000-ci ildə əhalinin sayı 8032,8 min nəfər olduğu halda, 2022-ci il 1 yanvar tarixinə olan məlumata əsasən 10156,4 min nəfərə çatmışdır. Əhalinin ümumi artımı müvafiq olaraq təbii səbəblərdən çətin həyat şəraitinə düşən şəxslərin sayına təsir etmişdir. Həmçinin orta ömür uzunluğunun artması əhalinin yaş strukturunda ahıl şəxslərin payının artmasını şərtləndirmişdir. Azərbaycan Respublikasında ahıl şəxslərin sayı 2000-ci ildə 226,7 min nəfərdən 2022-ci il 1 yanvar tarixinə olan məlumata əsasən 452,1 min nəfərə çatmışdır. Beləliklə, son 22 ildə əhalinin ümumi sayı 26,44 faiz artdığı halda, ahıl şəxslərin sayında 99,4 faiz artım qeydə alınmışdır. Eyni zamanda, əlilliyi müəyyən edilmiş şəxslərin (o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin) sayı artaraq, bu müddətdə 251 min nəfərdən 615 min nəfərə qədər yüksəlmişdir. Azərbaycan Respublikası üzrə nikahdankənar evlilikdən dünyaya gələn uşaqların və boşanmaların sayının artması uşaqların valideyn himayəsindən məhrum olmasına öz təsirini göstərmişdir.

Qeyd edilənlərə əsasən son illərdə əhaliyə göstərilən sosial xidmətlərin həcminin və sosial xidmətlərdən yararlananların sayının ilbəil artmasına baxmayaraq, bu xidmətlərə olan tələbat daha yüksək templə artmaqdadır.

Təqdim olunan sosial xidmətlərin keyfiyyəti, effektivliyi, əlçatanlığı və digər məsələlər üzrə, ümumilikdə isə sosial xidmət sisteminin inkişafına nail olunması məqsədilə Dövlət Proqramının bir sıra prioritet istiqamətləri müəyyən edilmişdir.

**4. Dövlət Proqramının həyata keçirilməsinin hədəf göstəriciləri**

4.1. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində 2026-cı ilin sonunadək sosial xidmət sisteminin inkişafında aşağıdakılara nail olunacaqdır:

4.1.1. hamı üçün bərabər iştirak imkanını təmin edən sosial xidmətlər sisteminin formalaşması;

4.1.2. çətin həyat şəraitində olan şəxslərə göstərilən sosial xidmətin əhatəsinin genişlənməsi və əhalinin göstərilən xidmətlərdən məmnunluq səviyyəsinin artması;

4.1.3. sosial xidmətlərin ünvanlılığının və keyfiyyətli xidmətlərə əlçatanlığın təmin edilməsi;

4.1.4. sosial xidmət sahəsində ixtisaslı kadr potensialının formalaşması.

**5. Dövlət Proqramının məqsədləri**

5.1. Dövlət Proqramının məqsədləri aşağıdakılardır:

5.1.1. sosial xidmət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və sosial xidmətin göstərilməsinə nəzarət mexanizminin müəyyən edilməsi;

5.1.2. sosial xidmət sahəsində həyata keçirilən tədbirlərin effektivliyinin artırılması məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) arasında əlaqələrin genişləndirilməsi;

5.1.3. sosial xidmət müəssisələrinin fəaliyyətinin təşkili və maddi-texniki bazasının təkmilləşdirilməsi;

5.1.4. mütərəqqi beynəlxalq təcrübənin tətbiqi ilə sosial xidmət sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi;

5.1.5. uşaqların alternativ qayğı xidmətləri ilə əhatə olunması imkanlarının genişləndirilməsi;

5.1.6. sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi, sosial xidmət sahəsində dövlət–özəl tərəfdaşlığının genişləndirilməsi;

5.1.7. sosial xidmət sistemində insan resurslarının inkişafı və təminatı.

**6. Dövlət Proqramının prioritet istiqamətləri**

6.1. Dövlət Proqramı çərçivəsində Azərbaycan Respublikasında sosial xidmət sisteminin inkişafının təmin edilməsi üçün müvafiq işlər aşağıdakı prioritet istiqamətlər üzrə həyata keçiriləcəkdir:

6.1.1. sosial xidmət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və sosial xidmət göstərilməsinə nəzarət mexanizminin müəyyən edilməsi:

6.1.1.1. Əsaslandırma: Çətin həyat şəraitində olan şəxslərə göstərilən sosial xidmətlərin səmərəliliyinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması, ünvanlılığının, eləcə də ehtiyacı olan şəxslərin bu xidmətlərə əlçatanlığının təmin edilməsi məqsədlərinə nail olmaq üçün qabaqcıl təcrübədən yararlanmaqla normativ hüquqi aktlarda müvafiq dəyişikliklərin edilməsinə ehtiyac vardır. Sosial xidmət sisteminin səviyyəsini şərtləndirən başlıca amil göstərilən sosial xidmətlərin keyfiyyəti və səmərəliliyi olduğu üçün bütün bunların mütəmadi nəzarətdə saxlanılması zəruridir;

6.1.1.2. Görüləcək tədbirlər:

6.1.1.2.1. sosial xidmət sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi;

6.1.1.2.2. sosial xidmət müəssisələrinin fəaliyyətinə nəzarətin vahid mexanizminin müəyyən edilməsi;

6.1.1.3. Gözlənilən nəticə və nəticə indikatorları:

6.1.1.3.1. sosial xidmət sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə müvafiq normativ hüquqi aktların layihələri hazırlanacaq və aidiyyəti dövlət orqanına (qurumuna) təqdim olunacaqdır;

6.1.1.3.2. sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə və səmərəliliyinə nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktın layihəsi hazırlanacaq və aidiyyəti dövlət orqanına (qurumuna) təqdim olunacaqdır;

6.1.1.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.1.4.1. aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsində çətinliklər yarana bilər. Çətin həyat şəraitində olan şəxslərə sosial xidmətin göstərilməsi sahəsində bir sıra qanunvericilik akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmasında gecikmələr baş verə bilər. Bununla əlaqədar müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur;

6.1.2. sosial xidmət sahəsində həyata keçirilən tədbirlərin effektivliyinin artırılması məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) arasında əlaqələrin genişləndirilməsi:

6.1.2.1. Əsaslandırma: Sosial xidmətlərin koordinasiyalı və kompleks şəkildə təqdim olunması, inzibatçılığın və əlaqələndirmə işlərinin daha da güclənməsi məqsədilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) qarşılıqlı fəaliyyətinin genişləndirilməsinə ehtiyac vardır;

6.1.2.2. Görüləcək tədbirlər:

6.1.2.2.1. sosial xidmət sahəsində fəaliyyətinin əlaqələndirilməsi məqsədilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) səlahiyyətli nümayəndələrindən ibarət Koordinasiya Şurasının yaradılması və fəaliyyətinin təşkili;

6.1.2.2.2. penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası məqsədilə birgə tədbirlərin həyata keçirilməsi və bu sahədə əməkdaşlığın genişləndirilməsi;

6.1.2.3. Gözlənilən nəticə və nəticə indikatorları:

6.1.2.3.1. çətin həyat şəraitində olan şəxslərə sosial xidmətin təşkili ilə bağlı həyata keçirilən fəaliyyətin sistemliliyi, operativliyi və səmərəliliyi artacaqdır;

6.1.2.3.2. penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası prosesinin həyata keçirilməsində sistemlilik, operativlik və səmərəlilik artacaqdır;

6.1.2.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.2.4.1. Koordinasiya Şurası yaradılarkən və penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin adaptasiyası məqsədilə birgə tədbirlər həyata keçirilərkən aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsində çətinliklər yarana bilər. Bununla əlaqədar müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur;

6.1.3. sosial xidmət müəssisələrinin fəaliyyətinin təşkili və maddi-texniki bazasının təkmilləşdirilməsi:

6.1.3.1. Əsaslandırma: Yeni yaradılacaq dövlət sosial xidmət müəssisələrində fəaliyyətin təşkilinə, həmçinin mövcud müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə sosial xidmət müəssisələrinin mövcud infrastruktur təminatının yaxşılaşdırılmasına, habelə müəssisələrin maddi-texniki təminatının və reabilitasiya prosesinin müasir beynəlxalq təcrübəyə uyğun qurulması istiqamətində tədbirlərin görülməsinə ehtiyac vardır. Həmçinin uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideyn himayəsindən məhrum olmuş, həmin müəssisələri tərk etmiş və yaşayış yeri olmayan məzunlarının sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı müvafiq tədbirlərin görülməsi zəruridir;

6.1.3.2. Görüləcək tədbirlər:

6.1.3.2.1. dövlət sosial xidmət müəssisələrinin maddi-texniki təminatının möhkəmləndirilməsi və həmin müəssisələrdə reabilitasiya şəraitinin müasir beynəlxalq təcrübəyə uyğun təşkili məqsədilə tədbirlər görülməsi;

6.1.3.2.2. uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş yaşayış yeri olmayan məzunlarının yaşayış sahəsi ilə təmin edilməsi məqsədilə tədbirlərin həyata keçirilməsi;

6.1.3.3. Gözlənilən nəticə və nəticə indikatorları:

6.1.3.3.1. dövlət sosial xidmət müəssisələrinin (o cümlədən yeni yaradılan müəssisələrin) infrastrukturunun müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılması təmin ediləcəkdir;

6.1.3.3.2. uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 400 məzunu mənzillə təmin ediləcəkdir;

6.1.3.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.3.4.1. sosial xidmət müəssisələrinin maddi-texniki təminatının möhkəmləndirilməsi və reabilitasiya şəraitinin müasir beynəlxalq təcrübəyə uyğun təşkili, habelə uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideyn himayəsindən məhrum olmuş və müəyyən yaşayış yeri olmayan məzunlarının yaşayış sahəsi ilə təmin edilməsi ilə əlaqədar tədbirlər görülməsi üçün kifayət qədər maliyyə vəsaitinə və maddi-texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Bu məqsədlə, Dövlət Proqramının 7-ci hissəsində əks olunmuş mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər;

6.1.4. mütərəqqi beynəlxalq təcrübənin tətbiqi ilə sosial xidmət sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi:

6.1.4.1. Əsaslandırma: Hazırda Azərbaycan Respublikasında mövcud olan sosial xidmət sistemi şəxslərin (ailələrin) çətin həyat şəraitinə düşməsinin səbəblərinin əvvəldən müəyyən edilərək aradan qaldırılmasına deyil, artıq baş vermiş halların korreksiyasına yönəldilmişdir. Beynəlxalq təcrübədən yararlanaraq insanların çətin həyat şəraitinin yaranma riskinin erkən mərhələlərdə müəyyən edilərək sosial müdaxilə və müvafiq sosial dəstək tədbirlərinin həyata keçirilməsi ilə qarşısının alınması mexanizmlərinin müəyyən edilməsinə və tətbiqinə ehtiyac vardır;

6.1.4.2. Görüləcək tədbirlər:

6.1.4.2.1. çətin həyat şəraitinə düşmə riski olan şəxslərin (ailələrin) problemlərinin erkən aşkar edilərək aradan qaldırılması məqsədilə beynəlxalq təcrübənin, innovativ texnoloji həllərin öyrənilməsi və tətbiqi ilə əlaqədar tədbirlər görülməsi;

6.1.4.2.2. əlilliyi olan və ahıl şəxslər üçün mobil xidmətlərin göstərilməsi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və Azərbaycan Respublikasında tətbiqi ilə bağlı müvafiq tədbirlərin görülməsi;

6.1.4.2.3. əhalinin sosial xidmətlərlə təmin edilməsində ünvanlılığın artırılması məqsədilə mövcud sosial xidmətlər haqqında əhali arasında maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;

6.1.4.2.4. çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə (ailələrlə) sosial işin aparılması zamanı tətbiq olunan “Sosial işin idarə edilməsi” (“Keys menecment”) sistemi ilə bağlı sosial işçilərin hazırlığının təşkili;

6.1.4.2.5. “Sosial işin idarə edilməsi” sisteminin elektron versiyasının yaradılması və çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə (ailələrlə) sosial işin bu sistem vasitəsilə aparılmasının təmin edilməsi;

6.1.4.2.6. ailədaxili mübahisələrin həlli ilə bağlı mediasiya xidmətlərinin tətbiqinin genişləndirilməsi üçün müvafiq tədbirlərin görülməsi;

6.1.4.2.7. ahıl şəxslərin cəmiyyətə inteqrasiyası məqsədilə müvafiq tədbirlərin görülməsi;

6.1.4.2.8. Beynəlxalq Əmək Təşkilatının “Sosial təminatın minimum normaları haqqında” 102 saylı Konvensiyasının ratifikasiya edilməsi imkanlarının araşdırılması;

6.1.4.3. Gözlənilən nəticə və nəticə indikatorları:

6.1.4.3.1. risk qrupunda olan şəxslərin (ailələrin) müəyyən edilərək çətin həyat şəraitinə düşməsinin qarşısının alınması ilə bağlı beynəlxalq təcrübənin və innovativ texnoloji həllərin tətbiqi təmin ediləcəkdir;

6.1.4.3.2. Azərbaycan Respublikasının 4 şəhər və rayonunda mobil xidmət mərkəzləri vasitəsilə azı 200 nəfər əlilliyi müəyyən edilmiş və 150 nəfər ahıl şəxsə mobil xidmətlərin göstərilməsi təmin ediləcəkdir;

6.1.4.3.3. əhalinin mövcud sosial xidmətlər haqqında məlumatlılığı artacaqdır;

6.1.4.3.4. 200 sosial işçi üçün “Sosial işin idarə edilməsi” sisteminin aparılması ilə bağlı təlim keçiriləcəkdir;

6.1.4.3.5. bütün kateqoriyalardan olan çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə (ailələrlə) sosial işin “Sosial işin idarə edilməsi” altsistemi vasitəsilə aparılması təmin ediləcəkdir;

6.1.4.3.6. mediasiya hesabına həll edilən ailədaxili mübahisələrin xüsusi çəkisinin illər üzrə müsbət dinamikasına nail olunacaqdır;

6.1.4.3.7. Azərbaycan Respublikasının 6 şəhər və rayonunda ahıl şəxslərin ictimai faydalı fəaliyyətə cəlb edilməsi, onların bilik və bacarıqlarından məqsədyönlü istifadə edilməsi və asudə vaxtlarının səmərəli təşkili ilə bağlı layihələr həyata keçiriləcəkdir;

*(ardı 7-ci səhifədə)*

# Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün DÖVLƏT PROQRAMI

**(əvvəli 6-cı səhifədə)**

6.1.4.3.8. Beynəlxalq Əmək Təşkilatının "Sosial təminatın minimum normaları haqqında" 102 saylı Konvensiyasının və ya onun ayrı-ayrı fəsillərinin ratifikasiya edilməsinin mümkünlüyünə dair yekun hesabat hazırlanaraq aidiyyəti üzrə təqdim ediləcəkdir;

6.1.4.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.4.4.1. əlilliyi olan və ahıl şəxslər üçün mobil xidmət mərkəzlərinin yaradılması, mövcud sosial xidmətlər haqqında əhali arasında ictimai məlumatlandırma tədbirlərinin həyata keçirilməsi, sosial işçilər üçün mütəmadi təlimlərin təşkili məqsədilə maliyyə vəsaitinə və digər texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Bu məqsədlə, Dövlət Proqramının 7-ci hissəsində əks olunmuş mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər;

6.1.4.4.2. çətin həyat şəraitinə düşmə riski olan şəxslərin (ailələrin) problemlərinin erkən aşkar edilərək aradan qaldırılması və "Sosial işin idarə edilməsi" sisteminin tətbiqinin Azərbaycan Respublikasının normativ hüquqi aktları və digər aidiyyəti tələblər nəzərə alınmaqla tətbiqində çətinliklər yarana bilər. Bu zaman aidiyyəti üzrə təhlillər aparılması və həmin təhlillər əsasında razılaşdırılmış normaların müəyyən edilməsi məqsədəuyğun hesab olunur;

6.1.4.4.3. bir sıra layihələrin razılaşdırılmasında gecikmələr baş verə bilər. Bununla əlaqədar müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur;

6.1.5. uşaqların alternativ qayğı xidmətləri ilə əhatə olunması imkanlarının genişləndirilməsi:

6.1.5.1. Əsaslandırma: uşaqların stasionar sosial xidmət müəssisələrinə düşərək ailə qayğısından məhrum olmaları gələcəkdə onların cəmiyyətə adaptasiya və ya reinteqrasiya olunmalarında ciddi çətinliklər yaratdığından bunun qarşısının alınması məqsədilə bir sıra tədbirlər görülməsi, o cümlədən Azərbaycan Respublikasında himayədar ailə institutunun inkişaf etdirilməsi zəruridir;

6.1.5.2. Görüləcək tədbirlər:

6.1.5.2.1. uşaqların stasionar sosial xidmət müəssisələrinə düşməsinin qarşısının alınması məqsədilə stasionar tipli qayğının tədricən alternativ xidmətlərə transformasiya olunması;

6.1.5.2.2. himayədar ailə institutunun inkişafına hədəflənən tədbirlərin həyata keçirilməsi.

6.1.5.3. Gözlənilən nəticə və nəticə indikatorları:

6.1.5.3.1. 220 uşaq stasionar müəssisələrdən ailələrinə qaytarılacaq və 250 uşağın stasionar müəssisələrə düşməsinin qarşısı alınacaqdır;

6.1.5.3.2. azı 120 uşağın himayədar ailəyə verilməsi təmin ediləcəkdir;

6.1.5.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.5.4.1. valideyn himayəsindən məhrum olmuş uşaqların himayədar ailəyə qəbulunun təşviqi məqsədilə təbliğat xarakterli və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi üçün maliyyə vəsaitinə və maddi-texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Bu məqsədlə, Dövlət Proqramının 7-ci hissəsində əks olunmuş mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər;

6.1.6. sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi, sosial xidmət sahəsində dövlət–özəl tərəfdaşlığının genişləndirilməsi:

6.1.6.1. Əsaslandırma: Sosial xidmətlərin təminatında sosial sifariş mexanizminin tətbiqinin vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın genişləndirilməsində, eyni zamanda əhalinin sosial xidmətlərə əlçatanlığı və xidmətlərin səmərəliliyinin artırılmasında əhəmiyyəti nəzərə alınaraq, dövlət sifarişləri əsasında həyata keçirilən layihələr çərçivəsində göstərilən xidmətlərin genişləndirilməsi və keyfiyyətinin artırılması ilə bağlı müvafiq tədbirlərin görülməsi zəruridir. Bundan əlavə, özəl sektorun sosial xidmət təminatı ilə əlaqədar layihələrin təşkilinə cəlb edilməsi müvafiq sahədə bazar mexanizmlərini gücləndirəcək, bu da öz növbəsində Azərbaycan Respublikasında sosial xidmət sisteminin inkişafına və xidmətlərin keyfiyyətinin artmasına mühüm töhfə verəcəkdir;

6.1.6.2. Görüləcək tədbirlər:

6.1.6.2.1. Azərbaycan Respublikasının regionları üzrə sosial xidmətlərə olan ehtiyacın müəyyən edilməsi və dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin şəbəkəsinin genişləndirilməsi məqsədilə müvafiq tədbirlər görülməsi;

6.1.6.2.2. sosial xidmət sahəsində dövlət sifarişlərinin verilməsi ilə həyata keçirilən layihələrin davamlılığının təmin edilməsi, həmçinin layihələr çərçivəsində göstərilən xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı tədbirlər görülməsi;

6.1.6.2.3. sosial xidmət sahəsində korporativ sosial məsuliyyətin inkişafının təmin edilməsi və sosial xidmət göstərilməsi ilə bağlı layihələrin təşkilinə özəl sektorun cəlb edilməsi;

6.1.6.3. Gözlənilən nəticə və nəticə indikatorları:

6.1.6.3.1. dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin sayının hər il 10 faiz artmasına nail olunacaqdır;

6.1.6.3.2. sosial xidmət sahəsində həyata keçirilən layihələrin davamlılığının təmin edilməsi, habelə layihələr çərçivəsində göstərilən xidmətlərin minimum səviyyəsinə dair tələbləri və bu tələblərə riayət olunmasına nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktların layihələri təsdiq edilməsi üçün aidiyyəti dövlət orqanına (qurumuna) təqdim olunacaqdır;

6.1.6.3.3. çətin həyat şəraitində olan şəxslərin sosial xidmətlərlə təmin edilməsi ilə əlaqədar fəaliyyətin həyata keçirilməsində iştirak edən özəl sektor subyektlərinin sayının artması üzrə müsbət dinamikaya nail olunacaqdır;

6.1.6.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.6.4.1. çətin həyat şəraitində olan şəxslərin (ailələrin) xidmətlərə əlçatanlıq səviyyəsinin, eləcə də sosial xidmətlərə ehtiyacı olan şəxslərin regionlar üzrə paylanmasının müəyyən edilməsi, sosial xidmət müəssisələrinin və sosial xidmət sahəsində dövlət sifarişlərinin verilməsi ilə həyata keçirilən layihələrin şəbəkəsinin Azərbaycan Respublikasında genişləndirilməsi tədbirlərinin reallaşdırılması üçün maliyyə vəsaitinə və maddi-texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Bu məqsədlə, Dövlət Proqramının 7-ci hissəsində əks olunmuş mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər;

6.1.6.4.2. vətəndaş cəmiyyəti institutlarının və özəl sektorun sosial xidmət təminatı ilə əlaqədar layihələrin təşkilinə cəlb edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi zamanı koordinasiyalı fəaliyyətin qurulması zərurətindən müəyyən ləngimələr baş verə bilər. Bu məqsədlə işçi qruplar yaratmaqla müvafiq istiqamətdə fəaliyyətin daha çevik həyata keçirilməsi təmin edilə bilər;

6.1.7. sosial xidmət sistemində insan resurslarının inkişafı və təminatı:

6.1.7.1. Əsaslandırma: Dövlət Proqramının reallaşdırılması ilə sosial xidmət sahəsində intellektual potensiala və mütəxəssislərin təhsil səviyyəsinə olan tələb dəyişdiyi üçün profil üzrə ali təhsilli sosial işçilərə ehtiyac yaranacaqdır. Bu məqsədlə, müvafiq sahədə fəaliyyət göstərən ixtisaslı kadrların hazırlığı üzrə təhsil proqramlarının təkmilləşdirilməsinə, kadr hazırlığı üzrə müasir innovativ texnologiyalardan geniş istifadənin təmin edilməsinə zərurət vardır;

6.1.7.2. Görüləcək tədbirlər:

6.1.7.2.1. sosial xidmət sahəsində rəqabətqabiliyyətli kadr potensialının inkişafı üçün yeni peşə və kvalifikasiya standartlarının hazırlanması;

6.1.7.2.2. sosial xidmət sahəsində yüksəkixtisaslı və peşəkar kadr hazırlığının həyata keçirilməsi məqsədilə ali təhsil müəssisələrində mövcud təhsil proqramlarının təkmilləşdirilməsi;

6.1.7.3. Gözlənilən nəticə və nəticə indikatorları:

6.1.7.3.1. "Sosial işçi", "Sosial xidmətçi", "Sosial pedaqoq" və "Sosial iş üzrə mütəxəssis-psixoloq" peşələri üçün peşə və kvalifikasiya standartları təsdiq ediləcəkdir;

6.1.7.3.2. çətin həyat şəraitində olan şəxslərə sosial xidmətin göstərilməsi və sosial işin təşkili məqsədilə yeni təhsil proqramları qəbul olunacaqdır;

6.1.7.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.7.4.1. aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsində çətinliklər yarana bilər. Çətin həyat şəraitində olan şəxslərə sosial xidmətin göstərilməsi sahəsində bir sıra normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmasında gecikmələr baş verə bilər. Bununla əlaqədar müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur;

6.1.7.4.2. sosial xidmət sahəsində fəaliyyət göstərən əməkdaşların müvafiq sahədə tətbiq olunan yeni metodika və texnologiyalar barədə məlumatlandırılması məqsədilə müvafiq təlimlərin və kursların təşkili üçün maliyyə vəsaitinə və maddi-texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Bu məqsədlə, Dövlət Proqramının 7-ci hissəsində əks olunmuş mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər.

**7. Dövlət Proqramının maliyyələşdirilməsi**

Dövlət Proqramında qeyd olunan tədbirlərin icrasının təmin edilməsi üçün tələb olunan xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsait, büdcədənkənar vəsait, kredit və qrantlar, hüquqi və fiziki şəxslərin ianələri, eləcə də qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

# 8. "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı Tədbirlər Planı

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti (illər üzrə) | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **8.1. Sosial xidmət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və sosial xidmət göstərilməsinə nəzarət mexanizminin müəyyən edilməsi** | | | | | | | |
| 1 | **2** | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 8.1.1. | Sosial xidmət sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi | Nazirlər Kabineti | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi,<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə<br>Dövlət Komitəsi,<br>Səhiyyə Nazirliyi,<br>*İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi*, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, *Həmkarlar İttifaqları Konfederasiyası,*<br>Sahibkarlar<br>(İşəgötürənlər)<br>Təşkilatları Milli Konfederasiyası,<br>yerli icra hakimiyyəti orqanları | 2023–2025 | Müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi aktların layihələrinin müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq normativ hüquqi aktların təsdiq edilməsi üçün aidiyyəti üzrə təqdim olunması |
| 8.1.2. | Sosial xidmət müəssisələrinin fəaliyyətinə nəzarətin vahid mexanizminin müəyyən edilməsi | Nazirlər Kabineti | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə<br>Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi,<br>Səhiyyə Nazirliyi | 2024–2025 | Sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə və səmərəliliyinə nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktın layihəsinin hazırlanması | Sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə və səmərəliliyinə nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktın layihəsinin müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə və səmərəliliyinə nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktın təsdiq edilməsi üçün aidiyyəti üzrə təqdim olunması |
| **8.2. Sosial xidmət sahəsində həyata keçirilən tədbirlərin effektivliyinin artırılması məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) arasında əlaqələrin genişləndirilməsi** | | | | | | | |
| 8.2.1. | Sosial xidmət sahəsində fəaliyyətinin əlaqələndirilməsi məqsədilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) səlahiyyətli nümayəndələrindən ibarət Koordinasiya Şurasının yaradılması və fəaliyyətinin təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi,<br>Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi,<br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi,<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə<br>Dövlət Komitəsi,<br>*İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi,* Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, yerli icra hakimiyyəti orqanları | 2024–2025 | Sosial xidmət sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə Koordinasiya Şurasının yaradılması | Koordinasiya Şurasının əsasnaməsinin təsdiq olunması | Çətin həyat şəraitində olan şəxslərə sosial xidmətin təşkili ilə bağlı fəaliyyətin həyata keçirilməsində sistemliliyin, operativliyin və səmərəliliyin artırılması |
| 8.2.2. | Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası məqsədilə birgə tədbirlərin həyata keçirilməsi və bu sahədə əməkdaşlığın genişləndirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ədliyyə Nazirliyi,<br>Səhiyyə Nazirliyi,<br>Daxili İşlər Nazirliyi,<br>Elm və Təhsil Nazirliyi,<br>İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | 2025–2026 | Aidiyyəti dövlət orqanlarından (qurumlarından) ibarət komissiyanın yaradılması | Komissiyanın əsasnaməsinin təsdiq olunması | Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası prosesinin həyata keçirilməsində sistemliliyin, operativliyin və səmərəliliyin artırılması |
| **8.3. Sosial xidmət müəssisələrinin fəaliyyətinin təşkili və maddi-texniki bazasının təkmilləşdirilməsi** | | | | | | | |
| 8.3.1. | Dövlət sosial xidmət müəssisələrinin maddi-texniki təminatının möhkəmləndirilməsi və həmin müəssisələrdə reabilitasiya şəraitinin müasir beynəlxalq təcrübəyə uyğun təşkili məqsədilə tədbirlər görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Səhiyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2024–2026 | Müvafiq sahədə beynəlxalq təcrübənin öyrənilməsi ilə dövlət sosial xidmət müəssisələrində<br>maddi-texniki təchizatın və reabilitasiya şəraitinin yaxşılaşdırılması məqsədilə təkliflərin hazırlanması | Hər il 2 dövlət sosial xidmət müəssisəsinin təmiri və müasir avadanlıqla təchiz edilməsi | Dövlət sosial xidmət müəssisələrinin<br>(o cümlədən yeni yaradılan müəssisələrin) infrastrukturunun müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılması- nın təmin edilməsi |
| 8.3.2. | Uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş yaşayış yeri olmayan məzunlarının yaşayış sahəsi ilə təmin edilməsi məqsədilə tədbirlərin həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2023–2026 | Uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlarının siyahısının müəyyən edilməsi | Müəyyən edilmiş siyahılar əsasında həmin kateqoriyadan olan şəxslərin növbəlilik qaydasında mənzillə təmin edilməsi üçün zəruri tədbirlər görülməsi | Uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 400 məzununun mənzillə təmin edilməsi |
| **8.4. Mütərəqqi beynəlxalq təcrübənin tətbiqi ilə sosial xidmət sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi** | | | | | | | |

**(ardı 8-ci səhifədə)**

# 8. “Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı”nın icrası ilə bağlı Tədbirlər Planı

(əvvəli 7-ci səhifədə)

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.1. | Çətin həyat şəraitinə düşmə riski olan şəxslərin (ailələrin) problemlərinin erkən aşkar edilərək aradan qaldırılması məqsədilə beynəlxalq təcrübənin, innovativ texnoloji həllərin öyrənilməsi və tətbiqi ilə əlaqədar tədbirlərin görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2024–2026 | Müvafiq sahədə beynəlxalq təcrübənin və innovativ texnoloji həllərin öyrənilməsi | 200 sosial işçi üçün yeni təcrübənin və innovativ texnoloji həllərin tətbiqi ilə bağlı təlim keçirilməsi | Risk qrupunda olan şəxslərin (ailələrin) müəyyən edilərək çətin həyat şəraitinə düşməsinin qarşısının alınması ilə bağlı beynəlxalq təcrübənin və innovativ texnoloji həllərin tətbiqi |
| 8.4.2. | Əlilliyi olan və ahıl şəxslər üçün mobil xidmətlərin göstərilməsi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və Azərbaycan Respublikasında tətbiqi ilə bağlı müvafiq tədbirlərin görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Səhiyyə Nazirliyi, *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi,* Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, yerli icra hakimiyyəti orqanları | 2024–2026 | Hərəkət qabiliyyəti aşağı olan əlilliyi müəyyən edilmiş və ahıl şəxslərə sosial xidmətlərin operativ şəkildə göstərilməsini təmin edən mobil xidmət mərkəzlərinin fəaliyyəti ilə bağlı qabaqcıl təcrübənin öyrənilməsi | Müvafiq təcrübənin Azərbaycan Respublikasının ərazisində tətbiqi imkanlarının araşdırılması və regionlarda mobil xidmət mərkəzlərinin yaradılması ilə bağlı tədbirlərin həyata keçirilməsi | Azərbaycan Respublikasının 4 şəhər və rayonunda mobil xidmət mərkəzləri vasitəsilə azı 200 nəfər əlilliyi müəyyən edilmiş və 150 ahıl şəxsə mobil xidmətlərin göstərilməsi imkanının yaradılması |
| 8.4.3. | Əhalinin sosial xidmətlərlə təmin edilməsində ünvanlılığın artırılması məqsədilə mövcud sosial xidmətlər haqqında əhali arasında maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi,* Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, *Həmkarlar İttifaqları Konfederasiyası,* yerli icra hakimiyyəti orqanları, Medianın İnkişafı Agentliyi, Audiovizual Şura | 2024–2025 | Mövcud sosial xidmətlərə, bu xidmətlərlə təmin olunmaq üçün müraciət qaydalarına və s. dair müxtəlif verilişlərin və sosial çarxların hazırlanaraq mediada geniş işıqlandırılması | Azərbaycan Respublikasının bütün regionlarında əhaliyə buklet və yaddaş kitabçalarının paylanılması | Əhalinin mövcud sosial xidmətlər haqqında məlumatlılığının artırılması |
| 8.4.4. | Çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə (ailələrlə) sosial işin aparılması zamanı tətbiq olunan “Sosial işin idarə edilməsi” (“Keys menecment”) sistemi ilə bağlı sosial işçilərin hazırlığının təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2023–2025 | “Sosial işin idarə edilməsi” sistemi ilə bağlı sosial işçilər üçün təlimatın hazırlanması | Bakı şəhərində 100 sosial işçinin bununla bağlı təlimlərə cəlb edilməsi | Azərbaycan Respublikasında 200 sosial işçi üçün “Sosial işin idarə edilməsi” sisteminin aparılması ilə bağlı təlim keçirilməsi |
| 8.4.5. | “Sosial işin idarə edilməsi” sisteminin elektron versiyasının yaradılması və çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə (ailələrlə) sosial işin bu sistem vasitəsilə aparılmasının təmin edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2024–2025 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sistemində “Sosial işin idarə edilməsi” altsisteminin yaradılması | İlkin olaraq, əlilliyi olan və ahıl şəxslərlə sosial işin “Sosial işin idarə edilməsi” altsistemi vasitəsilə aparılmaqla həmin altsistemin test edilməsi | Bütün kateqoriyalardan olan çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə (ailələrlə) sosial işin “Sosial işin idarə edilməsi” altsistemi vasitəsilə aparılması |
| 8.4.6. | Ailədaxili mübahisələrin həlli ilə bağlı mediasiya xidmətlərinin tətbiqinin genişləndirilməsi üçün müvafiq tədbirlər görülməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Mediasiya Şurası, yerli icra hakimiyyəti orqanları | 2024–2026 | Ailədaxili mübahisələrdə mediasiya xidmətinin tətbiqi ilə bağlı qabaqcıl beynəlxalq təcrübə əsasında təkliflərin hazırlanması | Ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiya fəaliyyətinin genişləndirilməsinə dair təkliflərin həyata keçirilməsi | Mediasiya hesabına həll edilən ailədaxili mübahisələrin xüsusi çəkisinin illər üzrə müsbət dinamikasına nail olunması |
| 8.4.7. | Ahıl şəxslərin cəmiyyətə inteqrasiyası məqsədilə müvafiq tədbirlərin görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Yerli icra hakimiyyəti orqanları | 2024–2026 | Ahıl şəxslərin cəmiyyətin sosial-iqtisadi həyatında fəal iştirakının təmin edilməsi, potensiallarından səmərəli istifadə ilə bağlı təkliflərin hazırlanması, habelə Azərbaycan Respublikasının şəhər və rayonlarında tətbiq edilməsinin zəruriliyi imkanlarının araşdırılması | Bakı, Gəncə və Sumqayıt şəhərlərində ahıl şəxslərin ictimai faydalı fəaliyyətə cəlb edilməsi, onların bilik və bacarıqlarından məqsədyönlü istifadə olunması, asudə vaxtlarının səmərəli təşkili ilə bağlı layihələrin həyata keçirilməsi | Azərbaycan Respublikasının 6 şəhər və rayonunda ahıl şəxslərin cəmiyyətə inteqrasiyasını hədəfləyən layihələrin həyata keçirilməsi |
| 8.4.8. | Beynəlxalq Əmək Təşkilatının “Sosial təminatın minimum normaları haqqında” 102 saylı Konvensiyasının ratifikasiya edilməsi imkanlarının araşdırılması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Xarici İşlər Nazirliyi, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Həmkarlar İttifaqları Konfederasiyası | 2024–2026 | Konvensiyanın ratifikasiya edilməsi imkanlarının araşdırılması məqsədilə işçi qrupun yaradılması | İşçi qrup tərəfindən Konvensiyanın və ya onun ayrı-ayrı fəsillərinin qəbulunun mümkünlüyünə dair təkliflər verilməsi | Yekun hesabatın hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi |
| **8.5. Uşaqların alternativ qayğı xidmətləri ilə əhatə olunması imkanlarının genişləndirilməsi** | | | | | | | |
| 8.5.1. | Uşaqların stasionar sosial xidmət müəssisələrinə düşməsinin qarşısının alınması məqsədilə stasionar tipli qayğının tədricən alternativ xidmətlərə transformasiya olunması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi* | 2023–2026 | Stasionar sosial xidmətlərdən alternativ sosial xidmətlərə keçidlə bağlı beynəlxalq təcrübənin öyrənilməsi | Stasionar sosial xidmətlərin tədricən alternativ sosial xidmətlər sisteminə (icma və ailə əsaslı xidmətlər, günərzi qayğı xidmətləri, qəyyumluq, himayədarlıq və s.) transformasiyasını müəyyən edən mexanizmin tətbiqi | 220 uşağın ailəyə qaytarılması və 250 uşağın stasionar müəssisəyə düşməsinin qarşısının alınması |
| 8.5.2. | Himayədar ailə institutunun inkişafına hədəflənən tədbirlərin həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2023–2026 | Himayədar ailəyə qəbulun təşviqi məqsədilə təkliflərin hazırlanması | Cəmiyyətdə uşaqların himayəyə götürülməsinə müsbət münasibətin formalaşdırılması məqsədilə müxtəlif təbliğat xarakterli və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi | Azı 120 uşağın himayədar ailəyə verilməsi |
| **8.6. Sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi, sosial xidmət sahəsində dövlət–özəl tərəfdaşlığının genişləndirilməsi** | | | | | | | |
| 8.6.1. | Azərbaycan Respublikasının regionları üzrə sosial xidmətlərə olan ehtiyacın müəyyən edilməsi və dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin şəbəkəsinin genişləndirilməsi məqsədilə müvafiq tədbirlər görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, yerli icra hakimiyyəti orqanları | 2023–2026 | Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) xidmətlərə əlçatanlıq səviyyəsinin, eləcə də sosial xidmətlərə ehtiyacı olan şəxslərin regionlar üzrə paylanılmasının müəyyən edilməsi məqsədilə layihənin həyata keçirilməsi | Azərbaycan Respublikasının regionları üzrə sosial xidmətlərin prioritet istiqamətlərinin müəyyən edilməsi | Dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin sayının hər il 10 faiz artmasına nail olunması |
| 8.6.2. | Sosial xidmət sahəsində dövlət sifarişlərinin verilməsi ilə həyata keçirilən layihələrin davamlılığının təmin edilməsi, həmçinin layihələr çərçivəsində göstərilən xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı tədbirlər görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | *İcbari Tibbi Sığorta* üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2024–2025 | Layihələrin davamlılığının təmin edilməsi, habelə layihələr çərçivəsində göstərilən xidmətlərin minimum səviyyəsinə dair tələbləri və bu tələblərə riayət olunmasına nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktların layihələrinin hazırlanması | Layihələrin davamlılığının təmin edilməsi, habelə layihələr çərçivəsində göstərilən xidmətlərin minimum səviyyəsinə dair tələbləri və bu tələblərə riayət olunmasına nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktların layihələrinin müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Layihələrin davamlılığının təmin edilməsi, habelə layihələr çərçivəsində göstərilən xidmətlərin minimum səviyyəsinə dair tələbləri və bu tələblərə riayət olunmasına nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktların təsdiqi üçün aidiyyəti üzrə təqdim edilməsi |
| 8.6.3. | Sosial xidmət sahəsində korporativ sosial məsuliyyətin inkişafının təmin edilməsi və sosial xidmət təminatı ilə əlaqədar layihələrin təşkilinə özəl sektorun cəlb edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İqtisadiyyat Nazirliyi | 2024–2026 | Özəl sektorun sosial xidmət təminatı ilə əlaqədar layihələrin təşkilinə cəlb olunmasının təşviqinə dair təkliflərin hazırlanması | Kommersiya təşkilatları ilə müvafiq sahədə tərəfdaşlıq münasibətlərinin qurulması | Çətin həyat şəraitində olan şəxslərin sosial xidmətlərlə təmin edilməsi ilə əlaqədar fəaliyyətin həyata keçirilməsində iştirak edən özəl sektor subyektlərinin sayının artması üzrə müsbət dinamikaya nail olunması |
| **8.7. Sosial xidmət sistemində insan resurslarının inkişafı və təminatı** | | | | | | | |
| 8.7.1. | Sosial xidmət sahəsində rəqabətqabiliyyətli kadr potensialının inkişafı üçün yeni peşə və kvalifikasiya standartlarının hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2024–2025 | “Sosial işçi”, “Sosial xidmətçi”, “Sosial pedaqoq” və “Sosial iş üzrə mütəxəssis–psixoloq” peşələri üçün peşə və kvalifikasiya standartları layihələrinin hazırlanması | Peşə və kvalifikasiya standartları layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Peşə və kvalifikasiya standartlarının təsdiq edilməsi |
| 8.7.2. | Sosial xidmət sahəsində yüksəkixtisaslı və peşəkar kadr hazırlığının həyata keçirilməsi məqsədilə ali təhsil müəssisələrində mövcud təhsil proqramlarının təkmilləşdirilməsi | Elm və Təhsil Nazirliyi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2025–2026 | Çətin həyat şəraitində olan şəxslərə sosial xidmət göstərilməsi və sosial işin təşkili məqsədilə təhsil proqramlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması | Təhsil proqramlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Çətin həyat şəraitində olan şəxslərə sosial xidmət göstərilməsi və sosial işin təşkili üçün yeni təhsil proqramlarının qəbul edilməsi |

*Azərbaycan Respublikası Prezidentinin*
*2023-cü il 28 avqust tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası

**1. Qısa xülasə**

Azərbaycan Respublikasının informasiya məkanının müasir təhdidlərdən qorunması milli təhlükəsizliyin əsas istiqamətlərindəndir. Ölkənin sosial-iqtisadi tərəqqisinin aparıcı qüvvəsi olan informasiya-kommunikasiya texnologiyalarının (bundan sonra – İKT) dinamik inkişafı bu sahədə mövcud olan və yeni yaranan risklərin təhlilinin aparılmasını, mühafizə obyektlərinin dəqiqləşdirilməsini, onların aid olduğu informasiya infrastrukturlarının funksional dayanıqlığını, bu infrastrukturlardan istifadə edən subyektlərin hüquq və qanuni maraqlarını, fəaliyyətin davamlılığını təmin etmək üçün qabaqlayıcı və bərpaedici tədbirlərin müəyyənləşdirilmiş səviyyədə görülməsini, informasiya təhlükəsizliyini idarəetmə alətlərinin davamlı təkmilləşdirilməsini şərtləndirir.

Qloballaşan dünyada informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması istər milli, istərsə də beynəlxalq səviyyədə əsas məsələyə çevrilmişdir. Bu fəaliyyətdə insan, cəmiyyət və dövlət maraqlarının qorunması başlıca məqsəddir. Son zamanlar Azərbaycanın informasiya məkanına, o cümlədən onun tərkib hissələrinə (dövlət, özəl və qeyri-hökumət qurumlarının, fiziki şəxslərin sahib olduğu informasiya ehtiyatlarına və infrastrukturlarına, bu ehtiyatlarda olan məlumatların həyat boyu proseslərinə, həmin proseslər üçün istifadə olunan maddi və qeyri-maddi obyektlərə və onlar arasında əlaqələrə) qarşı texnoloji cəhətdən çoxşaxəli hücumlar genişlənməkdədir.

İnformasiya təhlükəsizliyi informasiya sahəsində milli təhlükəsizliyə təhdidləri müəyyən etmək, bu təhdidlərin istifadə edə biləcəyi zəifliklərin, boşluqların və təhdid nəticəsində yarana bilən fəsadların aradan qaldırılması və ya əvvəldən təyin edilmiş hədlərə qədər azaldılması üçün hüquqi, təşkilati, əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat, elmi-texniki və təhsil, informasiya-təhlil, kommunikasiya, kadr təminatı, iqtisadi və digər sahələr üzrə tədbirləri əlaqələndirilmiş qaydada təşkil, icra, nəzarət və davamlı təkmilləşdirmək üçün qanunvericiliklə müəyyən edilən mühafizə üsulları və vasitələri ilə təmin edilir.

Kibertəhlükəsizlik sahəsində milli ekosistemin formalaşdırılması və inkişafı istiqamətində aparılmış əməli fəaliyyət ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin ciddi şəkildə yaxşılaşdırılması ilə nəticələnmişdir. Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqının tərtib etdiyi "Qlobal kibertəhlükəsizlik indeksi 2020" (Global Cybersecurity Index, GCI) reytinqində mövqeyini 15 pillə yaxşılaşdıraraq, 194 ölkə arasında 89.31 xal ilə 40-cı yerdə qərarlaşmışdır.

"Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası" (bundan sonra – Strategiya) dövlətin, cəmiyyətin və insanların müasir İKT-dən təhlükəsiz istifadəsinin təmin edilməsi üçün milli informasiya təhlükəsizliyi səviyyəsinin yüksəldilməsinə, dövlət və özəl şəbəkələrin, kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin olunmasına aid tədbirlərin müəyyənləşdirilməsinin və həyata keçirilməsinin təşkilinə, həmçinin fərdi məlumatların mühafizəsinə, Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit edilmiş insan hüquq və azadlıqlarına riayət edilməsinə daha əlverişli şəraitin yaradılmasına xidmət edir.

Strategiya Azərbaycan Respublikasının Konstitusiyasına və digər normativ hüquqi aktlarına, o cümlədən "Milli təhlükəsizlik haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli 2198 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"na, habelə informasiya təhlükəsizliyi üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsaslanır.

Strategiya informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində Azərbaycan Respublikasında ilk strategiya olmaqla, ölkədə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə dövlət siyasətinin tərkib hissəsidir və bu sahədə fəaliyyətin əsas məqsədlərini, prinsiplərini, istiqamətlərini və prioritet vəzifələrini müəyyən edir.

Strategiyada qeyd olunan məsələlər həm milli, həm də ümumbəşəri xarakter daşıyır, insanların, cəmiyyətin və dövlətin maraqlarını nəzərə alaraq, dövlət, özəl və qeyri-hökumət təşkilatlarına, fiziki şəxslərə şamil edilir. İnsanların, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli bütün maraqlarının daha yüksək və təkmil səviyyədə qorunması hazırda həm də ölkənin informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik siyasətinin əsas məqsədi kimi müəyyənləşdirilir və onun dinamik inkişaf tələblərinə cavab verməsi nəzərdə tutulur.

Strategiyada informasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi sahəsində münasibətləri tənzimləyən Azərbaycan Respublikasının qanunlarında, digər müvafiq normativ hüquqi aktlarda, həmçinin texniki normativ hüquqi aktlarda müəyyən olunmuş anlayışlardan istifadə edilir.

**2. Qlobal trendlər**

2.1. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində fəaliyyət üçün aşağıda göstərilən müasir və yeni çağırışlar nəzərə alınır, qabaqcıl təcrübələrdən istifadə edilir:

2.1.1. informasiya təhlükəsizliyini real vaxt rejimində ("online") qiymətləndirmə və mühafizənin səmərəliliyini mütəmadi qiymətləndirmə texnologiyaları;

2.1.2. kibercinayətkarlığın xidmət kimi ("cybercrime as a service") beynəlxalq səviyyədə yayılmasına əks-cavab olaraq kibertəhlükəsizlik xidmətlərini milli və beynəlxalq səviyyələrdə şəbəkələşdirmə və bununla daha da gücləndirmə, kibertəhlükəsizlik toru ("cybersecurity mesh") arxitekturası;

2.1.3. informasiya təhlükəsizliyi ilə əlaqəli olan sahələrlə idarəetmə sistemləri arasında harmonizasiya, qurumdaxili və qurumlararası koordinasiya, beynəlxalq əməkdaşlıq, informasiya təhlükəsizliyini istiqamətləndirmə şuraları ("cyber-savvy boards"), informasiya təhlükəsizliyi ekosistemi;

2.1.4. informasiya təhlükəsizliyi ilə əlaqəli olan təchizat zəncirlərini standartlaşdırma tədbirləri;

2.1.5. identifikasiya – çoxfaktorlu autentifikasiya və texniki vasitələrin identifikasiyası – konfidensiallığı gücləndirmək üçün kritik texnologiyalar;

2.1.6. "məsafədən iş"in geniş yayılması və bundan yaranan kibertəhlükəsizlik riskləri, mobil kibertəhlükəsizlik texnologiyaları;

2.1.7. qurumların texniki xidmətlərində və informasiya təhlükəsizliyində hiperavtomatlaşdırma və burada informasiya təhlükəsizliyi tələblərinin pozulma hallarından yaranan zəiflikləri, riskləri idarəetmə texnologiyaları;

2.1.8. süni intellekt mühəndisliyi, idarəetmə üzrə qərarvermədə, riskləri, insidentləri müəyyənetmədə, o cümlədən funksionallıqda anomaliyaları və konfiqurasiyada sanksiyasız dəyişiklikləri dərhal aşkaretmədə, qabaqlayıcı (preventiv) və bərpaedici (korrektiv) əks-tədbirləri hazırlamaqda süni intellekt, rəqəmsal etimad ("digital trust") texnologiyaları;

2.1.9. "bulud" xidmətlərinin inkişafı, genişlənməsi və həm də onlara təhdidlərin artması, "paylanmış bulud" ("distributed cloud") texnologiyaları;

2.1.10. informasiya təhlükəsizliyi sahəsində riskyönümlü modelləşdirmə, simulyasiya və kiberpoliqonlar texnologiyaları;

2.1.11. internetdə davranış mədəniyyəti, sosial mühəndislik "hücumları"nın və onlara əks-tədbirlərin daha da "ağıllı" olması, maarifləndirmə işinin genişləndirilməsi;

2.1.12. kiberhücum vektorlarının çoxalması, o cümlədən pandemiya kontekstində sürətlə artan kibertəhdidlər;

2.1.13. kibertəhdidlərə qarşı mübarizədə daha mükəmməl texnoloji həllərin tətbiqi zərurəti;

2.1.14. kibercinayətkarlığın törədilmə üsul və vasitələrinin sürətli diversifikasiyası, o cümlədən kriptovalyutaların geniş vüsət alması və müxtəlif cinayətkar məqsədlərlə istifadə olunması;

2.1.15. "ransomware" hücumlarının artması və bu hücumlara qarşı intensiv maarifləndirmə təşəbbüslərinin icra olunması;

2.1.16. "insayder" təhdidlərinin artması və bu təhdidlərə qarşı mübarizənin gücləndirilməsi;

2.1.17. kibertəhdidlərlə mübarizə aparılması üçün "çoxfaktorlu autentifikasiya" metodlarından geniş istifadə zərurətinin yaranması;

2.1.18. insanların, proqram təminatı vasitələrinin internetdə (və digər qlobal şəbəkədə) ona qoşulmuş texniki təminat vasitələri ilə qarşılıqlı fəaliyyəti üçün yaranmış virtual mühitdə –kibərməkanda mühafizəsi tələb olunan rəqəmsallaşdırılmış məlumatların sürətlə çoxalması ilə əlaqədar təkmilləşdirilmiş mühafizə mexanizmlərindən istifadəyə dair ehtiyacın artması.

**3. Mövcud vəziyyətin təhlili**

Son illər ölkəmizdə kiberməkanda dövlət müstəqilliyinin, milli maraqların qorunması, informasiya təhlükəsizliyi sahəsində vahid dövlət siyasətinin təkmilləşdirilməsi və informasiya təhlükəsizliyinin texnoloji infrastruktur komponentlərinin yaradılması istiqamətində məqsədyönlü işlər aparılır.

Vətən müharibəsinin ilk günlərindən kiberməkanda mümkün təxribatların və döyüş əməliyyatları ilə bağlı məlumatların sızmasının qarşısını almaq məqsədilə Azərbaycanın internet seqmentinin, həmçinin sosial şəbəkələr, mesencerlər və digər elektron kommunikasiya platformaları vasitəsilə aparılan məlumat mübadiləsinin təhlükəsizliyinin təmin olunması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. İşğaldan azad olunmuş ərazilərdə müasir informasiya texnologiyalarına əsaslanan infrastrukturun yaradılması, "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının reallaşması regional sabitliyi və inkişafı şərtləndirən amillərdən biridir. Bu ərazilərdə dövlət və ictimai təhlükəsizliyin təmin olunması üçün mümkün terror-təxribat və digər nöqtələrin müəyyən edilməsi, çevik əks-tədbirlərin hazırlanması məqsədilə "big data", "cloud", "machine learning" texnologiyaları əsasında yaradılmış müvafiq həllərin tətbiqi nəzərdə tutulur.

Qlobal pandemiya şəraitində insanların, biznes dairələrinin, dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əsas hissəsi kiberməkana keçmiş, müəssisə və təşkilatların bir qismi işçilərini məsafədən işə cəlb etmişdir. Əksər hallarda bu keçid sürətlə baş vermiş və istifadə olunan texnologiyaların və proqram təminatının təhlükəsizlik baxımından qiymətləndirilməsi lazımi qaydada aparılmamışdır. Məsafədən iş üçün tətbiq olunmuş proqram təminatının müxtəlifliyini və çoxsaylı istehsalçılara məxsus olduğunu nəzərə alaraq, fərdi məlumatların, kommersiya sirrinin və digər qorunan informasiyanın sızması təhlükəsi ötən illərlə müqayisədə dəfələrlə artmışdır. Bununla bağlı, qorunan informasiyanın mühafizəsi istiqamətində əlavə tədbirlərin həyata keçirilməsi zərurəti yaranmışdır.

Ümumiyyətlə, ölkədə kibercinayətlərlə mübarizə imkanlarının genişləndirilməsi üçün bir sıra mühüm hüquqi və təşkilati tədbirlər görülmüşdür. İnformasiya təhlükəsizliyi, habelə kibertəhlükəsizlik üzrə hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası aidiyyəti beynəlxalq konvensiya və proqramlara qoşulmuş, milli qanunvericilik bazası inkişaf etdirilmişdir.

2001-ci il noyabrın 23-də Budapeşt şəhərində imzalanmış "Kibercinayətkarlıq haqqında" Konvensiyanın müvafiq bəyanatlarla və qeyd-şərtlərlə Azərbaycan Respublikasının 2009-cu il 30 sentyabr tarixli Qanunu ilə təsdiq edilməsi kibercinayətkarlıqla mübarizə sahəsində atılan mühüm addımlardan biridir. Həmin Konvensiyanın müddəalarından irəli gələrək, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə müvafiq dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində fəaliyyət göstərən standartlaşdırma üzrə "İnformasiya-kommunikasiya texnologiyaları" Texniki Komitəsi (TK05) tərəfindən informasiya təhlükəsizliyi üzrə beynəlxalq standartların əsasında 18 identik milli standart hazırlanmış və müvafiq qaydada dövlət qeydiyyatına alınmışdır.

Azərbaycan Respublikasında informasiya təhlükəsizliyi sahəsindəki əsas vəzifələrin yerinə yetirilməsi, milli informasiya resurslarının qorunması və təhdidlərin qarşısının alınması və bu sahədə effektiv tədbirlərin gücləndirilməsi məqsədilə informasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli 708 nömrəli Fərmanı ilə müəyyən edilmişdir. Bu Fərmanla informasiya təhlükəsizliyi məsələlərinə məsul olan qurumlar – Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi yaradılmışdır. "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 mart tarixli 833 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 sentyabr tarixli 276 nömrəli Fərmanı ilə qeyd olunan mərkəzə Xidmət statusu verilmişdir. Bununla yanaşı, "Xüsusi dövlət mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli 957 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin bazasında müstəqil olaraq Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli 359 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014 – 2020-ci illər üçün Milli Strategiya"-da müxtəlif sahələrin inkişafı kimi, informasiya təhlükəsizliyinin təmin edilməsi də öz əksini tapmışdır. Həmin Milli Strategiyanın əsas istiqamətlərindən biri olan "İnformasiya təhlükəsizliyinin təmin edilməsi"nin məqsədlərinə çatmaq üçün ölkənin milli informasiya məkanının və kritik infrastrukturlarının, o cümlədən informasiya infrastrukturunun informasiya təhlükəsizliyini təmin edən sistemin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Bundan irəli gələrək, qlobal informasiya məkanında Azərbaycan Respublikasının milli maraqlarının qorunması, informasiya təhlükəsizliyi sisteminin inkişaf etdirilməsi və İKT-dən təhlükəsiz istifadə mədəniyyətinin yüksəldilməsi həlli vacib olan əsas məsələlərdən biri kimi müəyyənləşdirilmişdir.

Ölkədə informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, dövlət və cəmiyyət üçün xüsusi əhəmiyyət kəsb edən infrastruktur obyektlərinin informasiya sistemləri və ehtiyatlarının kiberhücumlardan qorunması, belə təhdidlərin qabaqlanması, qarşısının alınması və araşdırılması sahəsində fəaliyyət göstərən dövlət qurumlarının işinin əlaqələndirilməsini təmin etmək üçün Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli Sərəncamı ilə İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası yaradılmışdır.

Bundan başqa, Azərbaycanda TIER III səviyyəli, ISO/IEC 20000 və ISO/IEC 27001 standartlarına uyğun Data Mərkəzi yaradılmış və fəaliyyəti təmin edilmiş, "Elektron hökumət"in inkişafı, "Rəqəmsal hökumət"ə keçidin təmin edilməsi, dövlət qurumlarının informasiya texnologiyalarına, elektron xidmətlərin yaradılmasına və göstərilməsinə tələb olunan dövlət xərclərinin optimallaşdırılması, informasiya sistemlərinin fəaliyyətinin daha müasir standartlar əsasında keyfiyyətli, dayanıqlı və təhlükəsiz infrastrukturda təşkilinin təmin edilməsi, vətəndaşların bu imkanlardan sərbəst istifadəsi məqsədilə "bulud texnologiyası"nın tətbiqi məqsədilə "Hökumət buludu"nun ("G-cloud") yaradılmasına başlanılmışdır.

"Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 aprel tarixli 1315 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun və onun tərkibinə daxil olan informasiya sistemlərinin, informasiya-kommunikasiya şəbəkələrinin və avtomatlaşdırılmış idarəetmə sistemlərinin təhlükəsizliyinin gücləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Azərbaycanda informasiya təhlükəsizliyinin təmin olunması məsələləri yuxarıda qeyd edilən hüquqi aktlarla yanaşı, "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli 2198 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"nda öz əksini tapmışdır.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, ölkədə informasiya təhlükəsizliyinin, həmçinin kibertəhlükəsizliyin təmin edilməsi sahəsində səlahiyyət və məsuliyyət bölgüsü müəyyənləşdirilmişdir. Dövlət orqanları səlahiyyətlərinə uyğun olaraq informasiya təhlükəsizliyinin müxtəlif məsələləri ilə məşğuldurlar, informasiya sistemlərinin mülkiyyətçiləri və ya sahibləri olan dövlət qurumları və özəl müəssisələr, həmçinin fiziki şəxslər onların fəaliyyətinin kibertəhlükəsizliyinə məsuliyyət daşıyırlar.

Beynəlxalq təcrübəyə uyğun olaraq ölkədə kibertəhlükəsizlik insidentlərinə cavabvermə qrupları (CERT) fəaliyyət göstərir. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti – Milli CERT (www.cert.az) ölkə üzrə kibertəhlükəsizliyin pozulmasına yönəlmiş hərəkətlərin aşkarlanmasını, qarşısının alınması üçün preventiv tədbirlərin həyata keçirilməsini təmin edən əlaqələndirici qurum kimi çıxış edir. Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi (www.cert.gov.az) dövlət qurumlarının kibertəhlükəsizliyinin pozulmasına yönəlmiş hərəkətlərin aşkarlanmasını, qarşısının alınması üçün preventiv tədbirlərin görülməsini, eləcə də onların təhlükəsiz internet şəbəkəsi ilə təmin edilməsini və 24/7 Təhlükəsizlik Əməliyyatları Mərkəzi (SOC) vasitəsilə təhlükəsizliyinin nəzarətdə saxlanılmasını həyata keçirir. Milli Elmlər Akademiyasının Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi "AzScienceCERT"(www.sciencecert.az) elm-kompüter şəbəkəsinin təhlükəsizliyinə məsuldur.

Sürətlə qloballaşan dünyada milli informasiya məkanına təhdidlər də qlobal xarakter daşıyır. Buna görə də kibertəhlükəsizliyin təminatının mühüm şərtlərindən biri beynəlxalq əməkdaşlığın mövcudluğudur.

Azərbaycan Respublikası informasiya təhlükəsizliyi və kibercinayətkarlıqla mübarizə məsələlərində beynəlxalq təşkilatlarla fəal qarşılıqlı əlaqə qurur və əməkdaşlıq edir. Həmçinin Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən "Kibercinayətkarlıq haqqında" Konvensiyaya uyğun olaraq, kiberməkanda törədilən cinayətlərin araşdırılması məqsədilə xarici həmkarlara təcili köməyin (verilənlərin mühafizəsi) təmin olunması ilə bağlı fəaliyyət həyata keçirilir.

Azərbaycan Respublikasının hərtərəfli inkişafı, dövlət idarəçiliyində, iqtisadi və sosial sahələrdə, insanların gündəlik tələbatlarının ödənilməsində informasiya texnologiyalarının və vasitələrinin geniş tətbiqi və əhəmiyyətinin artması təhlükəsizliyin təmin edilməsi baxımından bu sahədə mühafizə tədbirlərinin gücləndirilməsini zəruri edir. Bu məqsədlə beynəlxalq təcrübəyə əsaslanaraq, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə dövlət siyasətinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, təhdidlərin və real şəraitin, o cümlədən problemlərin dəqiq, obyektiv, elmi baxımdan düzgün təhlil olunması, qiymətləndirilməsi və informasiya təhlükəsizliyi sahəsində səmərəli fəaliyyətin təşkili Strategiyada öz əksini tapmışdır.

Milli informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə təsir edən amillər GZİT (Güclü tərəflər, Zəif tərəflər, İmkanlar, Təhdidlər) analiz metoduna uyğun olaraq mütəmadi qiymətləndirilir. Bu amillər Strategiyada nəzərə alınmışdır və prioritet istiqamətlər, vəzifələr, müvafiq həll yolları, eləcə də kompleks tədbirlər planı müəyyənləşdirilmişdir.

Strategiyanın hazırlanması zamanı qabaqcıl beynəlxalq təcrübə, region və Avropa dövlətlərinin müvafiq strategiyaları araşdırılmış və ölkəmizdə tətbiqi baxımından təhlil edilmişdir.

Hazırda Avropa İttifaqına daxil olan 27 ölkənin, Beynəlxalq Telekommunikasiya İttifaqına üzv olan 193 ölkənin isə 108-nin müəyyən dövrləri əhatə edən informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik strategiyaları mövcuddur.

Beynəlxalq təşkilatların hesabatlarında ölkələrin kibertəhlükəsizlik üzrə reytinqinə təsir edən əsas meyarlardan biri bu sahədə informasiya təhlükəsizliyi və ya kibertəhlükəsizlik strategiyasının olmasıdır.

**4. Hədəf göstəricilər**

4.1. Strategiyanın əhatə etdiyi dövr ərzində aşağıda qeyd olunan hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik riskləri reyestrinin formalaşdırılmasının və aparılmasının təşkili;

4.1.2. informasiya təcavüzünə və həqiqətlərin təhrif edilməsinə, milli dəyərlərin pozulmasına aid təhdidlərin qarşısını ala bilən müasir texnologiyaların (o cümlədən süni intellektə əsaslanan texnologiyaların) işlənib hazırlanması üçün fəaliyyətin gücləndirilməsi;

4.1.3. informasiya təhlükəsizliyi hadisələrinin monitorinqinin, insidentləri və kritik halları aşkarlama meyarlarının müəyyən edilməsinin və tətbiqinin təmin olunması;

4.1.4. informasiya mühafizəsinin texniki, kriptoqrafik, proqram və digər vasitələr üzrə təminatının təkmilləşdirilməsi, bu sahədə yerli istehsalçıların inkişafına dəstək verilməsi;

4.1.5. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində startapların fəaliyyətinin genişləndirilməsi;

4.1.6. informasiyalaşdırma obyektlərində, texniki xidmət və informasiya xidməti subyektlərində informasiya təhlükəsizliyini idarəetmə sistemlərinin (İTİS-lərin) formalaşdırılmasının, onların səmərəlilik səviyyələrinin ölçülməsinin təmin edilməsi;

4.1.7. fərdi məlumatların mühafizəsinin gücləndirilməsi;

4.1.8. İKT- xidmət subyektlərində fəaliyyətin təkmilləşdirilməsi;

4.1.9. "ağıllı" sistemlərin təhlükəsizliyinin təkmilləşdirilməsi;

4.1.10. mediada, o cümlədən milli rəqəmsal efir məkanında informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin davamlı təkmilləşdirilməsi;

4.1.11. kritik informasiya infrastrukturu obyektlərinin təhlükəsizliyinin təmini;

4.1.12. fövqəladə hallarda, müharibə şəraitində kritik informasiya infrastrukturlarının təhlükəsizliyini və onun idarə edilməsini təmin etmək üçün təşkilati əsasların yaradılması;

4.1.13. kibercinayətkarlığa qarşı mübarizə, o cümlədən kiberkriminalistika sahəsində fəaliyyətin gücləndirilməsi;

4.1.14. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində elmi tədqiqat və layihə-təcrübə işlərinin real tətbiqləri nəticəsində rəqabətədavamlı məhsulların işlənməsi və hazırlanması;

4.1.15. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində fəaliyyət üçün kompetensiya (bilik, bacarıq və səriştə) tələbatları, tədris və təlim proqramları, maarifləndirmə materialları bazasının formalaşdırılması və aktuallığının davamlı təmin olunması;

4.1.16. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində kadr hazırlığının və informasiya təhlükəsizliyi üzrə ixtisaslaşmış struktur bölmələrin müvafiq kadrlarla təminatının gücləndirilməsinin təmin olunması;

4.1.17. informasiya təhlükəsizliyi sahəsində ali təhsil almış məzunların ixtisası üzrə məşğulluq səviyyəsinin yüksəldilməsi;

4.1.18. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə ixtisaslaşan yeniyetmə və gənclərin təhdidlərdən mühafizəsinin təşkili;

4.1.19. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində qabaqcıl beynəlxalq hüquqi və texniki normativ alətlərin öyrənilməsi, informasiya təhlükəsizliyi və əlaqəli sahələrə aid beynəlxalq mənbələrin praktiki tövsiyələrinin təşviqi;

4.1.20. cəmiyyətdə geniş maarifləndirmə və məlumatlandırma nəticəsində informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin yüksəldilməsinin təmin edilməsi;

4.1.21. internetdən gələn qlobal təhdidlərdən, zərərli informasiyalardan və yaranan fəsadlardan uşaqların mühafizəsi;

4.1.22. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik ekosisteminin formalaşdırılması;

4.1.23. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə idarəetmə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi;

4.1.24. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılması;

4.1.25. informasiya təhlükəsizliyi üzrə beynəlxalq standartların ölkədə tətbiqinin genişləndirilməsi, o cümlədən müxtəlif standartlaşdırma təşkilatlarının məhsullarından ölkəmizdə vahid yanaşma ilə uyğunlaşdırılmış formada istifadənin təmin olunması və İnformasiya Təhlükəsizliyi üzrə Milli Standartların davamlı təkmilləşdirilməsi;

4.1.26. informasiya təhlükəsizliyi sahəsində kadr hazırlığını təmin edən təhsil müəssisələrinin səmərəliliyinin artırılması, yeni təhsil mərkəzlərinin formalaşdırılması;

4.1.27. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə beynəlxalq şirkətlərlə birgə laboratoriyaların formalaşdırılması.

**5. Məqsədlər**

5.1. İnformasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmini üzrə aşağıdakı məqsədlər hədəflərə nail olunmasına xidmət edir:

5.1.1. informasiya məkanında, xüsusən də kritik informasiya infrastrukturlarında təhlükəsizlik risklərinin müəyyənləşdirilməsi;

5.1.2. informasiya təcavüzünə və həqiqətlərin təhrif edilməsinə, milli dəyərlərin pozulmasına aid təhdidlərə qarşı hazırlığın gücləndirilməsi;

5.1.3. informasiya məkanında və kritik informasiya infrastrukturlarında informasiya təhlükəsizliyi struktur vahidlərinin, "CERT" şəbəkələrinin və onlar arasında qarşılıqlı fəaliyyətin davamlı təkmilləşdirilməsi;

5.1.4. informasiya təhlükəsizliyi, həmçinin kibertəhlükəsizlik sənayesinin formalaşdırılması, informasiya mühafizəsi texnologiyaları sahəsində xaricdən birbaşa asılılığın minimallaşdırılması, nəzarətdə saxlanılması, proqram mühəndisliyinin və rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi;

5.1.5. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində innovativ həllərin və startapların təşviqi, onların dəstəklənməsi, yeni məhsul və xidmətlərin yaradılması;

5.1.6. ölkənin informasiya infrastrukturlarında risklərin, xidmətlərin, insidentlərin idarə edilməsi üçün tələb olunan əsas tədbirlərin müəyyən edilməsində sistemliliyin təmin olunması, standartların və qabaqcıl təcrübənin tətbiqi, təhlükəsizlik səviyyəsinin yüksəldilməsi və bu səviyyənin ölçmə modelinin müəyyənləşdirilməsi;

5.1.7. informasiya sızması, o cümlədən fərdi məlumatların mühafizəsi üzrə təhlükəsizlik səviyyəsinin yüksəldilməsi;

5.1.8. İKT-məhsulların həyat tsiklinin optimal idarə edilməsinin, izafiliyinin minimallaşdırılmasının və adekvatlığının obyektiv qiymətləndirilməsinin təmin olunması;

5.1.9. "ağıllı" sistemlərin yaradılmasına, tətbiqinə və utilizasiyasına metodiki və təhlükəsizlik dəstəyi göstərilməsi;

5.1.10. milli rəqəmsal efir məkanının kibertəhlükəsizliyinin təmin edilməsi;

*(ardı 10-cu səhifədə)*

# Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası

(əvvəli 9-cu səhifədə)

5.1.11. kritik informasiya infrastrukturları obyektlərinin təhlükəsizliyinə dövlət nəzarətinin həyata keçirilməsi;

5.1.12. kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin, onların idarəetmə səviyyələrinin risklərə adekvat yüksəldilməsi;

5.1.13. kibercinayətkarlığa qarşı mübarizənin və mübarizə səviyyəsinin mütəmadi qiymətləndirilməsinin adekvatlığının təmin edilməsi;

5.1.14. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində elmi tədqiqat və layihə-təcrübə işlərinin aparılmasına davamlı təşkilati dəstək verilməsinin təmin olunması;

5.1.15. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə fəaliyyət sahəsi barədə məlumatların təhlükəsizlik xassələrinin təmin olunması, müvafiq kadrların hazırlanması üçün obyektiv informasiya ilə təmin edilməsi;

5.1.16. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində kadrların hazırlanmasına və idarə olunmasına aid planlaşdırma, icra və nəzarət işlərinin optimallığının təmin olunması;

5.1.17. təhsil müəssisələri ilə dövlət və özəl sektor arasında informasiya təhlükəsizliyi üzrə kadr hazırlığına dair əməkdaşlığın genişləndirilməsinin təşkili;

5.1.18. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində milli kadr ehtiyatının tükənməzliyi və mühafizəsi, ölkə xaricinə "beyin axını"nın qarşısının alınması;

5.1.19. informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin normativ əsasının aktuallığının təmin edilməsi;

5.1.20. İKT-məhsulları və xidmətləri bazarında informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması, həmçinin sifariş, istehsal, təchizat tərəflərinin qanuni maraqlarını qorumaq üçün tədbirlər görülməsi;

5.1.21. cəmiyyətdə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinə dair zəruri biliklərin, bacarıqların artırılmasına və təbliğinə dəstək verilməsi;

5.1.22. uşaqların internetdən təhlükəsiz istifadə imkanlarının möhkəmləndirilməsinə, tövsiyələrin işlənilməsinə təşkilati dəstək verilməsi;

5.1.23. dövlət, özəl və vətəndaş cəmiyyəti institutları və bu institutların subyektləri arasında əməkdaşlığın inkişaf etdirilməsi;

5.1.24. milli informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik ilə beynəlxalq informasiya təhlükəsizliyi arasında inteqrasiya əlaqələrinin təmin olunması;

5.1.25. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi, sahə üzrə hüquqi bazanın təkmilləşdirilməsi;

5.1.26. informasiya təhlükəsizliyi üzrə beynəlxalq standartların ölkədə geniş tətbiq olunmasına təşkilati və metodiki dəstək verilməsi, o cümlədən müxtəlif standartlaşdırma təşkilatlarının ölkəmizdə istifadə olunan məhsullarının uyğunluq baxımından vahid yanaşma ilə icmallaşdırılması və İnformasiya Təhlükəsizliyi üzrə Milli Standartların formalaşdırılması;

5.1.27. informasiya təhlükəsizliyi üzrə kadr hazırlığı üçün müasir təhsil müəssisələrinin və laboratoriyalarının formalaşdırılması.

**6. Prioritet istiqamətlər**

Azərbaycan Respublikasında informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin edilməsi sahəsində fəaliyyətin strateji planlaşdırılması və mərhələli olaraq həyata keçirilməsi nəzərdə tutulur.

6.1. Təhdidlərin müəyyənləşdirilməsi və risklərin idarə edilməsi

Təşkilatların, insanların fəaliyyətində İKT-nin rolunun daim artdığı müasir dövrdə informasiya mühafizəsinin obyektlərinə mümkün təhdidlərin baş verə bilməsinin, bu zaman zəifliklərdən (boşluqlardan və digər uyğunsuzluqlardan) istifadənin mümkünlüyünün və fəsadların yarana bilməsinin qiymətləndirilməsi zəruridir. Milli informasiya məkanında risklərin qiymətləndirilməsi Strategiyanın əsas elementlərindən biridir.

İnformasiya təhlükəsizliyinin təmin olunması üçün riskləri, xidmətləri və insidentləri idarəetmə sistemləri, o cümlədən bu sistemlərə tələb olunan əsas tədbirlər toplusu, təhlükəsizlik səviyyəsini ölçmə modeli və həmin sistemləri davamlı təkmilləşdirmə mexanizmi formalaşdırılır.

Bu baxımdan müvafiq sahəyə aid təhdidlərin müəyyənləşdirilməsi və risklərin idarə edilməsi ilə bağlı bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində həmin təhdidlərin qarşısını ala bilən müasir texnologiyalar hazırlanacaq, mühafizə qabiliyyəti yüksəldiləcəkdir.

6.2. İnformasiya təhlükəsizliyi hadisələrinin aşkarlanması tədbirlərinin və mühafizə texnologiyalarının gücləndirilməsi

İnformasiya təhlükəsizliyinin təmin edilməsi risklərə adekvat olan üsul və vasitələrin (informasiya təhlükəsizliyini idarəetmə alətlərinin) seçilməsindən, onlara qoyulan mükəmməllik və etimad tələblərinə uyğun olmasından, onların imkanlarının və istifadəsinin səmərəlilik göstəricilərindən asılıdır.

Bu baxımdan informasiya təhlükəsizliyi hadisələrinin aşkarlanması tədbirlərinin və mühafizə texnologiyalarının gücləndirilməsinə dair bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində informasiya mühafizəsinin təminatı təkmilləşdiriləcək, bu sahədə yerli istehsal və yerli istehsalçılar, innovativ fəaliyyət inkişaf edəcəkdir.

6.3. İnformasiya məkanının informasiya təhlükəsizliyinin təmin olunması səviyyəsinin yüksəldilməsi

İnformasiya təhlükəsizliyinin təmin edilməsi, informasiya təhlükəsizliyi risklərinin idarə olunması informasiya təhlükəsizliyinə təhdidlərin təsir ünvanı olan obyektlərin (informasiya prosesləri üçün lazım olan, mühafizəsinə tələblər qoyulan və ya zərurət olan aktivlərin), bu obyektlərin təyinatı üzrə yetərli və yararlı olmasının, bu obyektlərdə olan zəifliklərin, boşluqların və digər uyğunsuzluqların müəyyən edilməsindən və həmin obyektlərin davamlı təkmilləşdirilməsindən, həmçinin bu Strategiyada qeyd olunan vəzifələrin icrasından asılıdır.

Bu baxımdan informasiya məkanının informasiya təhlükəsizliyinin təmin olunması səviyyəsinin yüksəldilməsi ilə bağlı bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində İKT xidmət subyektlərində fəaliyyət, həmçinin milli rəqəmsal efir məkanında kibertəhlükəsizlik davamlı təkmilləşdiriləcəkdir.

6.4. Kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsi

Cəmiyyətin mühüm həyati funksiyalarını təmin etmək üçün böyük rola malik olan, fəaliyyətindəki nasazlıqların və ya sıradan çıxmasının əhalinin sağlamlığına, təhlükəsizliyinə, iqtisadi və sosial rifahına, həmçinin dövlət qurumlarının fəaliyyətinin davamlılığına ciddi təsir göstərən infrastrukturların və ya onların əhəmiyyətli hissələrinin informasiya təhlükəsizliyinin təmin olunması xüsusilə vacibdir. Bununla yanaşı, hər hansı bir sahədə baş vermiş hadisə digər sahələrdə də zəncirvari hadisələrə səbəb ola bilər. Qeyd edilən səbəblərdən kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmini mülkiyyət növündən asılı olmayaraq daim diqqət mərkəzində olmalı və bu məqsədlə müvafiq tədbirlər görülməlidir.

Bu baxımdan kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində kritik informasiya infrastrukturları obyektlərinin təhlükəsizliyinin təmin edilməsi vəziyyətinə nəzarət təkmilləşəcək, bu sahədə risklərin qiymətləndirilməsi və idarə olunmasının keyfiyyəti yaxşılaşacaqdır.

6.5. Kibercinayətkarlığa qarşı mübarizə, o cümlədən kiberkriminalistika sahəsində fəaliyyətin gücləndirilməsi

Kibercinayətkarlıq bütün dünyada artır və bəzən mütəşəkkil beynəlxalq qruplaşmalar vasitəsilə həyata keçirilərək, inkişaf etmiş İKT infrastrukturuna malik ölkələrin demək olar ki, hamısını əhatə edir. Azərbaycan Respublikasında da müasir texnoloji vasitələrdən istifadənin genişlənməsi kibercinayətlərin başvermə təhdidi ilə müşayiət olunur. Kibercinayətlər böyük həcmli və miqyaslı ola, həmçinin kritik infrastrukturların, informasiya sistemlərinin işinin pozulması, fərdi məlumatların oğurlanması, insanların şəxsi həyatına təhlükə törətməsi və onlara mənəvi zərər vurulması ilə nəticələnə bilir. Kibermakanın fiziki sərhədlərinin olmaması kibercinayətkarlara beynəlxalq problem olan terror, təxribat, casusluq, transmilli mütəşəkkil cinayətkarlıq kimi təhlükəli fəaliyyətləri bu məkanın imkanlarından istifadə etməklə həyata keçirmək üçün geniş şərait yaradır.

Bu baxımdan kibercinayətkarlığa qarşı mübarizə, o cümlədən kiberkriminalistika üzrə fəaliyyətin gücləndirilməsi ilə bağlı bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində cinayətlərin aşkarlanması, sübutların toplanılması, cinayət işlərinin istintaqının aparılmasına dair fəaliyyətin səmərəli təşkili sahəsində imkanlar genişləndiriləcəkdir.

6.6. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində potensialın gücləndirilməsi, institusional bazanın inkişaf etdirilməsi

İnformasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunmasının kompleks təşkili və həyata keçirilməsi bu sahədə aparılan elmi tədqiqatlardan və onların nəticələrinin praktikaya tətbiqindən, təhsilin mövcud və perspektiv tələbata uyğun olmasından asılıdır.

Bu baxımdan informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində potensialı gücləndirmə, institusional bazanı inkişaf etdirmə ilə bağlı bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində aparılan elmi tədqiqat və layihə-təcrübə işlərinin keyfiyyəti yüksəldiləcək, müvafiq sahələrdə kadr hazırlığı, kadrların təkmilləşdirilməsi və ixtisaslaşmış struktur bölmələrin keyfiyyətli kadrlarla təminatı təmin ediləcəkdir.

6.7. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair normativ bazanın təkmilləşdirilməsi

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair normativ hüquqi bazanın müasir çağırışlara uyğun olaraq təkmilləşdirilməsi davamlı təmin edilməlidir.

Bu baxımdan informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair normativ bazanın təkmilləşdirilməsi ilə bağlı bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində qabaqcıl beynəlxalq təcrübəyə uyğun olan və müvafiq sahənin bu Strategiya ilə müəyyən edilən məqsədlərə, prioritet istiqamətlərə uyğun tənzimlənməsinə imkan verən hüquqi baza formalaşacaqdır.

6.8. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin yüksəldilməsi

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin formalaşdırılması təşkilati məsələlərin həlli, insidentlərin qarşısının alınması və onlar baş verdiyi halda müvafiq fəaliyyətin həyata keçirilməsi, həmçinin fərdi təhlükəsizliyin təmin olunması üçün lazımi bilik və bacarıqların aşılanması ilə bağlı kompleks fəaliyyətdir. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin formalaşmasında maarifləndirmə mühüm rol oynayır. İnformasiya texnologiyalarının yüksək sürətlə inkişafı və dəyişməsi ona bağlı informasiya təhlükəsizliyi tələblərinin daim təkmilləşdirilməsinə ehtiyac yaradır. Qeyd edilən səbəblərdən də intensiv inkişaf və yeniliklər nəzərə alınmaqla, maarifləndirmə tədbirləri mütəmadi olaraq, günün tələblərinə uyğun aparılmalıdır.

Bu baxımdan informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin yüksəldilməsinə dair bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində cəmiyyətdə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyəti üzrə zəruri biliklər, bacarıqlar artırılacaq, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyəti təmin ediləcəkdir.

6.9. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliklə bağlı ölkədaxili və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi

İnformasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması üçün milli və beynəlxalq səviyyədə əməkdaşlıq mühüm rol oynayır. Ölkədə informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə məsul olan dövlət orqanlarının (qurumların) və maraqlı tərəflərin bütün məsələlər, o cümlədən hüquqi-təşkilati, texniki-texnoloji, maarifləndirmə və məlumatlandırılma, baş verən hadisələrə qarşı əlaqəli fəaliyyət kimi məsələlər üzrə əməkdaşlığının təşkili informasiya təhlükəsizliyinin təmin edilməsində vacib amillərdəndir. Həmçinin, kibertəhlükəsizlik məsələlərinin qlobal xarakterini nəzərə alaraq, bu məsələlər üzrə beynəlxalq səviyyədə də əməkdaşlıq günün tələbidir. Ölkədaxili və beynəlxalq əməkdaşlıq informasiya təhlükəsizliyinin, həmçinin kibertəhlükəsizliyin təmin edilməsinə ciddi zəmin yaradır.

İnformasiya təhlükəsizliyi üzrə əməkdaşlıq informasiya təhlükəsizliyinin subyektləri olan səlahiyyətli orqanlar (qurumlar), CERT-lər, özəl sektor və digər maraqlı tərəflər, o cümlədən fərdi istifadəçilər arasında təşkil edilir. Özəl sektor bir sıra kritik infrastrukturun sahibləri olmaqla yanaşı, həm milli informasiya təhlükəsizliyinin təmin olunmasına məsuliyyət daşıyır, həm də bu sahədə mühüm hüquq və vəzifələrə malikdir. Qeyd edilən səbəblərdən özəl sektor öz fəaliyyətinin təşkilində, dövlət qurumlarına və insanlara müxtəlif İKT xidmətlərinin göstərilməsində, İKT məhsulların təchizatında, İKT ilə əlaqəli digər işlərin görülməsində informasiya təhlükəsizliyi tələblərinə riayət etməlidir.

Bu baxımdan informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə ölkədaxili və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə dair bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində dövlət orqanları (qurumları), özəl sektor və vətəndaş cəmiyyəti institutları arasında, habelə informasiya təhlükəsizliyini idarəetmə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq inkişaf edəcəkdir.

**7. Maliyyələşdirmə mexanizmləri**

Strategiyada nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi büdcə təşkilatları üçün onların saxlanılması məqsədilə Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulan vəsaitdən və qanunla qadağan edilməyən digər mənbələrdən həyata keçirilir.

Təsərrüfathesablı qurumların, özəl qurumların Strategiyada nəzərdə tutulan tədbirlərdə iştirakı həmin qurumların vəsaiti hesabına və qanunla qadağan edilməyən digər mənbələrdən maliyyələşir.

## 8. "Azərbaycan Respublikasının İnformasiya Təhlükəsizliyi və Kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün strategiyası"nın həyata keçirilməsi ilə bağlı tədbirlər planı

| Tədbirlər | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|
| | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **8.1. Prioritet 1. Təhdidlərin müəyyənləşdirilməsi və risklərin idarə edilməsi** | | | | | | |
| **8.1.1. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik riskləri reyestrinin formalaşdırılmasının və aparılmasının təşkili** | | | | | | |
| 8.1.1.1. İnformasiya məkanında informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə təhdidlərin kateqoriyalarını müəyyən etmək və təsnifatlaşdırmaq | XRİTDX | DTX, RİNN, DİN, MN | [illegible] | Təhdidlərin analiz olunması | Kateqoriyaların təyin olunması | Təhdidlərin təsnifatlaşdırılması |
| 8.1.1.2. İnformasiya məkanında informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə təhdidlərin qarşısının alınması fəaliyyətinin səmərəli təşkili məqsədilə informasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma qaydasını müəyyən etmək | NK | XRİTDX, RİNN, DTX | [illegible] | İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma qaydasının hazırlanması | İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma qaydasının razılaşdırılması | İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma qaydasının təsdiq edilməsi |
| 8.1.1.3. İnformasiya təhlükəsizliyi üzrə yarana biləcək təhdidlərin və risklərin əvvəlcədən müəyyən edilməsi və görülməli tədbirləri proqnozlaşdırmaq məqsədilə süni intellekt əsaslı həllərin işlənib hazırlanmasını və tətbiqini təşkil etmək | XRİTDX | DTX, RİNN, ETN | [illegible] | Sahə üzrə müasir texnologiya və həllərin tədqiq edilməsi | Tətbiq sahələrinin öyrənilməsi | Süni intellekt əsaslı həllərin işlənib hazırlanması və tətbiq edilməsi |
| **8.1.2. İnformasiya təcavüzünə və həqiqətlərin təhrif edilməsinə, milli dəyərlərin pozulmasına aid təhdidlərin (bu bənd üzrə bundan sonra – müvafiq sahələrə aid təhdidlər) qarşısını ala bilən müasir texnologiyaların (o cümlədən süni intellektə əsaslanan texnologiyaların) hazırlanması ilə bağlı fəaliyyətin gücləndirilməsi** | | | | | | |
| 8.1.2.1. Müvafiq sahələrə aid təhdidlərdə istifadəsi ehtimal olunan, belə təhdidlərin qarşısını ala bilən müasir texnologiyaların (xüsusən süni intellekt, qeyri-səlis məntiq və s.) hazırlanmasını, tədqiq və tədris olunmasını, təlimlərin keçirilməsini təşkil etmək | XRİTDX | RİNN, DTX, DİN, MdN | müntəzəm | Müvafiq sahə üzrə müasir texnologiya və həllərin tədqiqi | Tətbiq sahələrinin öyrənilməsi | Müasir texnologiyaların hazırlanması, tədqiq və tədris olunması, təlimlərin keçirilməsi |
| 8.1.2.2. Kibermakanda informasiya-psixoloji ekspansiyaların, radikal dini təşkilatların fərdi və ictimai təfəkkürə destruktiv informasiya təsirlərinin qarşısının alınması və qabaqlayıcı tədbirlər üzrə hüquqi, təşkilati və texnoloji mexanizmlərin müasir texnologiyalar vasitəsilə təkmilləşdirilməsi üçün təkliflər vermək və tətbiqini təşkil etmək | DTX | DİN, RİNN | mütəmadi | Müvafiq sahə üzrə müasir texnologiya və həllərin tədqiqi | Praktik adaptasiya imkanlarının araşdırılması | Müasir texnologiyalar vasitəsilə təkmilləşdirilmiş mexanizmlərin tətbiqi ilə bağlı tədbirlər görülməsi |
| **8.2. Prioritet 2. İnformasiya təhlükəsizliyi hadisələrinin aşkarlanması tədbirlərinin və mühafizə texnologiyalarının gücləndirilməsi** | | | | | | |
| **8.2.1. İnformasiya təhlükəsizliyi hadisələrinin monitorinqinin, insidentləri və kritik halları aşkarlama meyarlarının müəyyən edilməsi və tətbiqinin təmin olunması** | | | | | | |
| 8.2.1.1. İnformasiya təhlükəsizliyi hadisələrinin monitorinqi üçün insidentləri və kritik halları aşkarlama, ölçmə meyarlarını və indikatorlarını müəyyən etmək | RİNN | DTX, XRİTDX, DİN, MN, ETN, VXSİDA | [illegible] | Sahə üzrə beynəlxalq təcrübənin öyrənilməsi | Yerli ekosistemə uyğun təcrübənin tətbiqi imkanlarının araşdırılması | Aşkarlama, ölçmə meyarları və indikatorlarının müəyyən edilməsi |

(ardı 11-ci səhifədə)

# 8. “Azərbaycan Respublikasının İnformasiya Təhlükəsizliyi və Kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün strategiyası”nın həyata keçirilməsi ilə bağlı tədbirlər planı

*(əvvəli 11-ci səhifədə)*

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 8.5.4. Hüquq mühafizə orqanlarının aidiyyəti əməkdaşları, mütəxəssisləri üçün kibercinayətlərin aşkar olunması və istintaqı üzrə təlimlərin keçirilməsini təşkil etmək | DTX | DİN, BP (tövsiyə olunur), ƏN, XRİTDX | mütəmadi | Sahə üzrə qabaqcıl təcrübənin öyrənilməsi | Təlimçilər üçün təlimlərin təşkil edilməsi | Təlimçilər vasitəsilə davamlı təlimlər keçirilməsi |
| 8.5.5. Hüquq mühafizə orqanları ilə informasiya sistemlərinin operatorları, telekommunikasiya operatorları və provayderlər arasında kibertəhlükəsizlik sahəsində əməkdaşlığı gücləndirmək | RİNN | DİN, DTX, BP (tövsiyə olunur), XRİTDX | mütəmadi | Hüquq mühafizə orqanları ilə əməkdaşlığa ehtiyacı olan informasiya sistemləri operatorlarının, telekommunikasiya operatorlarının və provayderlərin müəyyənləşdirilməsi | Sahə üzrə əlaqədar cavabdeh şəxslərin müəyyənləşdirilməsi | Əməkdaşlıq və koordinasiyanın təmin edilməsi |
| **8.6. Prioritet 6. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində potensialın gücləndirilməsi, institusional bazanın inkişaf etdirilməsi** | | | | | | |
| **8.6.1. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində elmi tədqiqat və layihə-təcrübə işlərinin aparılmasına təşkilati dəstək verilməsi** | | | | | | |
| 8.6.1.1. İnformasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin edilməsi üçün tələbat olan sahələrdə yeni laboratoriyaların yaradılmasına, mövcud olanların təkmilləşdirilməsinə təşkilati dəstək vermək | XRİTDX | ETN, RİNN, DTX | mütəmadi | Prioritet olan sahələrin müəyyənləşdirilməsi | Müvafiq sahələrdə yeni laboratoriyaların yaradılması, mövcud olanların təkmilləşdirilməsi üzrə ehtiyacların qiymətləndirilməsi | Yeni laboratoriyaların yaradılması və mövcud olanların təkmilləşdirilməsi |
| 8.6.1.2. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində elmi tədqiqat və layihə-təcrübə işləri sırasından prioritet mövzuların tətbiqi üçün seçilməsini təşkil etmək | ETN | RİNN, XRİTDX, DTX | mütəmadi | Prioritet mövzuların müəyyənləşdirilməsi | Həmin mövzular üzrə elmi tədqiqat və layihə təcrübə işlərinin keyfiyyətinin artırılması | İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində potensialın gücləndirilməsi |
| 8.6.1.3. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində xarici ölkələrin elmi mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsinə, birgə elmi tədqiqat layihələrinin həyata keçirilməsinə, beynəlxalq seminar və konfranslarda iştirakın təmin edilməsinə təşkilati dəstək vermək | ETN | DTX, XİN, XRİTDX, RİNN | mütəmadi | İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində xarici ölkələrin qabaqcıl elmi mərkəzləri-nin müəyyənləşdirilməsi | Birgə elmi tədqiqat layihələrinə başlanılması | Müvafiq sahədə xarici ölkələrin elmi mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsi |
| 8.6.1.4. Kriptoqrafiyanın əsaslarının dərindən öyrənilməsini, bu sahədə elmi tədqiqatların aparılmasını, milli kriptoqrafik alqoritmin tətbiq olunduğu informasiyanın kriptoqrafik mühafizə vasitələrinin layihələndirilməsini və təkmilləşdirilməsini təmin edəcək yüksəkixtisaslı kadrların və səriştəli mütəxəssislərin hazırlanmasını təşkil etmək | DTX | XRİTDX, ETN | [illegible] | Sahə üzrə siyasət və prioritetlərin müəyyənləşdirilməsi | Fəaliyyət planının hazırlanması | Yüksəkixtisaslı və səriştəli mütəxəssislərin hazırlanması |
| **8.6.2. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə fəaliyyət üçün kompetensiya (bilik, bacarıq** və səriştə) **tələbatları, tədris və təlim proqramları, maarifləndirmə materialları bazasının formalaşdırılması və aktuallığının davamlı təmin olunması** | | | | | | |
| 8.6.2.1. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə fəaliyyət üçün zəruri olan kompetensiyalara (bilik, bacarıq və səriştə) aid tələbatların mütəmadi öyrənilməsini, adekvat perspektivli ixtisasların müəyyən olunmasını təşkil etmək | ETN | RİNN, XRİTDX, DTX, ƏƏSMN | mütəmadi | Sahə üzrə daim artan tələbatların müəyyənləşdirilməsi | Yeni kompetensiyaların (bilik, bacarıq və səriştə) siyahısının və mövcud çatışmazlıqlar üzrə prioritetlərin müəyyənləşdirilməsi | Yeni kompetensiyalara (bilik, bacarıq və səriştə) uyğun ixtisasların müəyyən edilməsi və təkliflər verilməsi |
| 8.6.2.2. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə kompetensiyalar (bilik, bacarıq və səriştə)və ixtisaslar üçün zəruri olan kvalifikasiyaya aid tələbatların, ixtisas növləri, təhsil pilləri üzrə müvafiq tədris və təlim, habelə ixtisasartırma proqramlarının müəyyən edilməsi, bu proqramların texnologiyaların inkişaf istiqamətlərinə uyğun perspektivli olması və səmərəsinin davamlı yüksəldilməsi üçün tövsiyə, təklif və təşkilati dəstək vermək | NK | ETN, RİNN, XRİTDX, DTX, ƏƏSMN | mütəmadi | Sahə üzrə tədrisin texnoloji yeniliklərə və tələblərə uyğunluğunun ölçülməsi | Ölçü nəticəsində müəyyən edilən çatışmazlıqlar üzrə prioritetlərin müəyyənləşdirilməsi | Tədrisin texnoloji yeniliklərə və tələblərə uyğunluğunun davamlı təmin edilməsi üçün təkmilləşdirmə işlərinin həyata keçirilməsi |
| **8.6.3. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə kadr hazırlığının və ixtisaslaşmış struktur bölmələrin müvafiq kadrlarla təminatının gücləndirilməsi** | | | | | | |
| 8.6.3.1. Dövlət orqanlarında (qurumlarında) informasiya təhlükəsizliyi üzrə ixtisaslaşmış struktur bölmələrin yaradılması və onların müvafiq kadrlarla təminatının planlaşdırılması ilə bağlı təkliflər hazırlamaq | DTX | XRİTDX, ƏƏSMN, DİM, RİNN, ETN, MN | [illegible] | Qurumlardan sahə üzrə kadr ehtiyacları haqqında məlumatların toplanması | Kadr təminatı üçün planlı yanaşmanın tətbiqinin araşdırılması | İxtisaslaşmış struktur bölmələrin yaradılması və onların müvafiq kadrlarla təminatı ilə bağlı təkliflərin hazırlanması |
| 8.6.3.2. İnformasiya təhlükəsizliyi üzrə mütəxəssislərin əməyinin stimullaşdırılması üçün təkliflər vermək | XRİTDX | RİNN, MN, ƏƏSMN, DTX, ETN | [illegible] | Sahə üzrə əməyin qiymətləndirilməsinin özəl və dövlət qurumlarında müqayisəli təhlilinin aparılması | Qurumlarda sahə üzrə əməyin stimullaşdırılması üçün müvafiq mexanizmlərin hazırlanması | İxtisaslı kadrların əməyinin stimullaşdırılması |
| **8.6.4. İnformasiya təhlükəsizliyi üzrə kadr hazırlığında təhsil müəssisələri ilə dövlət və özəl sektor arasında əməkdaşlığın genişləndirilməsi** | | | | | | |
| 8.6.4.1. İnformasiya təhlükəsizliyi üzrə mütəxəssislərin tədris prosesinə cəlb olunması və tələbələrin təcrübə keçmələrinə şərait yaradılmasını təmin etmək | ETN | RİNN, DTX, XRİTDX, MN | mütəmadi | Sahə üzrə təcrübə imkanlarının araşdırılması | Təcrübə proqramları üçün əməkdaşlığın qurulması | Mütəxəssislərin tədris prosesinə cəlbi və təcrübə imkanlarının genişləndirilməsi |
| 8.6.4.2. Xarici ölkələrin qabaqcıl universitetlərində, elmi mərkəzlərində informasiya texnologiyaları və informasiya təhlükəsizliyi üzrə ölkə üçün mütəxəssis hazırlığına dəstək vermək | ETN | RİNN, DTX | mütəmadi | Xaricdə təhsilin müvafiq sahələrinin araşdırılması | Mütəxəssis hazırlığı ilə bağlı müvafiq proqramların seçilərək təşviq edilməsi | Xaricdə sahə üzrə mütəxəssis hazırlığına dəstək verilməsi |
| 8.6.4.3. İnformasiya təhlükəsizliyi sahəsində kadr hazırlığını təmin edən təhsil müəssisələri ilə, eləcə də informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə beynəlxalq və yerli şirkətlərlə birgə laboratoriyalar formalaşdırmaq | İN | DTX, ETN, RİNN, XRİTDX, XİN | [illegible] | Sahə üzrə tələblər nəzərə alınmaqla təkliflər hazırlanması | Beynəlxalq və yerli şirkətlərin təkliflərə uyğun laboratoriyaların formalaşdırılmasına cəlb edilməsi | Müvafiq laboratoriyaların formalaşdırılması |
| 8.6.4.4. İnformasiya təhlükəsizliyi üzrə ixtisaslaşan yeniyetmə və gənclərə hüquqi və texniki yardım göstərilməsi, istedadlı şəxslərə dəstək verilməsi ilə bağlı tədbirlər görmək | RİNN | DTX, ETN, XRİTDX | mütəmadi | Sahə üzrə biliklər bazasının toplanması | Prioritet-lərin seçilməsi | Müvafiq onlayn maarifləndirmə, məsləhət xidmətlərinin formalaşdırılması, dəstək verilməsi işlərinin həyata keçirilməsi |
| **8.7. Prioritet 7. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində normativ bazanın təkmilləşdirilməsi** | | | | | | |
| 8.7.1. Fərdi məlumatların işlənməsi və mühafizəsi sahəsində normativ hüquqi bazanın beynəlxalq təcrübə əsas götürülməklə təkmilləşdirilməsi | NK | RİNN, DTX, XRİTDX, DİN, ƏN | mütəmadi | Sahə üzrə beynəlxalq təcrübənin öyrənilməsi | Müvafiq təkliflərin təqdim olunması | Müvafiq sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsi |
| 8.7.2. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində qabaqcıl beynəlxalq hüquqi və texniki normativ alətləri, praktiki tövsiyələri təşviq etmək, milli standartların davamlı təkmilləşdirilməsinə dəstək vermək | RİNN | DTX, XRİTDX, ETN, İN | mütəmadi | Ölkədə beynəlxalq standartların tətbiq olunması, milli standartların aktuallıq vəziyyətlərinin, problemlərin və tələbatların mütəmadi araşdırılması | Ölkədə beynəlxalq standartların tətbiqinə, milli standartlar bazasının genişlənməsinə aid təkliflər verilməsi | Təşkilati və metodiki tövsiyələrin verilməsi, icmalın dərc olunması |
| **8.8. Prioritet 8. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin yüksəldilməsi** | | | | | | |
| **8.8.1. Cəmiyyətdə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyəti üzrə zəruri biliklərin, bacarıqların artırılmasına və təbliğinə dəstək verilməsi** | | | | | | |
| 8.8.1.1. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə maarifləndirmə tədbirlərinin keçirilməsini təşkil etmək, o cümlədən bu barədə televiziya proqramları, videoçarxlar hazırlamaq və nümayiş etdirmək, informasiya təhlükəsizliyi və kibercinayətkarlığa qarşı ictimai mübarizə üsulları və bu üsullardan istifadə barədə cəmiyyətin, fərdlərin bilik səviyyəsini yüksəltmək | RİNN | ETN, DTX, XRİTDX | mütəmadi | Maarifləndirmə tədbirlərinin qiymətləndirilməsi | Maarifləndirmə tədbirlərinin intensivləşdirilməsi | Müvafiq sahədə zəruri bilik və bacarıqların səviyyəsinin yüksəldilməsi |
| 8.8.1.2. Dövlət orqanlarında (qurumlarında), özəl təşkilatlarda informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətini formalaşdırmaq – kibergigiyenanı təmin etmək məqsədilə tədbirlər görmək | XRİTDX | RINN, DİM, VXSİDA | [illegible] | Nümunəvi kibergigiyena pilot layihəsinin həyata keçirilməsi | Kibergigiyenanın əməkdaşlar üçün əhəmiyyətinin təşviq olunması | Dövlət orqanlarında (qurumlarında), özəl sektorda informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin formalaşdırılması və kibergigiyenanın təmin edilməsi |
| **8.8.2. Uşaqların internetdən təhlükəsiz istifadə imkanlarının möhkəmləndirilməsinə təşkilati dəstək verilməsi** | | | | | | |
| 8.8.2.1. Ailələrin, valideynlərin və uşaqların internetdəki təhlükələr barədə məlumatlandırılması üçün tədbirlər təşkil etmək | AQUPDK | RİNN, ETN, DİN, DTX | mütəmadi | Maarifləndirmə tədbirlərinin hazırlanması | Maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Maarifləndirmə tədbirlərinin intensivləşdirilməsi |
| 8.8.2.2. “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrin həyata keçirilməsi məqsədilə milli onlayn məlumatlandırma mərkəzinin yaradılmasını, həmin mərkəzin beynəlxalq şəbəkələrə inteqrasiyasını təmin etmək | AQUPDK | RİNN, ETN | mütəmadi | Milli onlayn məlumatlandırma mərkəzinin yaradılması | Milli onlayn məlumatlandırma mərkəzinin fəaliyyətinin təşviq olunması, beynəlxalq şəbəkələrə inteqrasiyasının təmin edilməsi | Uşaqların zərərli informasiyadan qorunmasının təmin edilməsi |
| 8.8.2.3. Təhsilin bütün səviyyələrində kibertəhlükəsizlik üzrə təhsil modulları hazırlamaq, eləcə də internetdə təhlükələr barədə materialları tədris resurslarına daxil etmək | ETN | RİNN, DTX | mütəmadi | Təhsilin bütün səviyyələrinə uyğun sahə üzrə materialların yaradılması | Yaradılmış materialların tədris resurslarına daxil edilməsi | Bu materialların mütəmadi yenilənməsinin həyata keçirilməsi |
| **8.9. Prioritet 9. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə ölkədaxili və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi** | | | | | | |
| **8.9.1. Dövlət orqanları (qurumları), özəl sektor və vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın inkişaf etdirilməsi** | | | | | | |
| 8.9.1.1. İnformasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması, o cümlədən insidentlərə qarşı tədbirlər görülməsi üçün dövlət orqanları (qurumları), özəl sektor və vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlıq formalarını müəyyən etmək və onların hüquqi əsasını yaratmaq | XRİTDX | RİNN, DTX, DİN | [illegible] | Əməkdaşlığın müxtəlif formalarının effektivliyinin araşdırılması | Uyğun əməkdaşlıq formalarının seçilməsi | Əməkdaşlığın hüquqi əsasının yaradılması |
| 8.9.1.2. Təhdidləri qiymətləndirmə və həlli yollarını müəyyənetmə sahəsində dövlət–özəl koordinasiya və məsləhətləşmə platformalarını yaratmaq və onların inkişafına dəstək vermək | RİNN | DTX, DİN | [illegible] | Sahə üzrə müxtəlif koordinasiya və məsləhətləşmə platformalarının yaradılması | Müxtəlif mövzuların bu platformalarda müzakirələrə çıxarılması | Platformaların effektivliyinin ölçülməsi, inkişafına dəstək verilməsi |
| 8.9.1.3. Ölkə səviyyəsində kibertəhlükəsizliklə bağlı (təhdidlər, boşluqlar, risklər və s. barədə) informasiya mübadiləsi və qarşılıqlı əməkdaşlıq sahəsində əlaqələndirməni həyata keçirmək, təhdidlərə və hücumlara qarşı erkən xəbərdarlıq, cavabvermə imkanlarını formalaşdırmaq | RİNN | DTX, DİN, XRİTDX | müntəzəm | Təhdidlər, boşluqlar, risklər və s. məlumatların əldə edilməsi və toplanmasının təşkili | Əldə edilən məlumatların bölüşdürülməsi və erkən xəbərvermə mexanizmlərinin yaradılması | Mexanizmlərin avtomatlaşdırılması imkanlarının genişləndirilməsi |
| 8.9.1.4. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində fəaliyyət göstərən qabaqcıl onlayn təlim-tədris platformaları ilə əməkdaşlıq əlaqələri qurmaq | RİNN | XRİTDX, ETN, DİM | mütəmadi | Əməkdaşlığın müxtəlif formalarının effektivliyinin araşdırılması | Pilot layihələrin həyata keçirilməsi | Uğurlu layihələr üzrə əməkdaşlığın davam etdirilməsi |
| **8.9.2. İnformasiya təhlükəsizliyini idarəetmə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi** | | | | | | |
| 8.9.2.1. Kibercinayətkarlığa qarşı mübarizə üzrə beynəlxalq əməkdaşlığı genişləndirmək, qabaqcıl təcrübənin mənimsənilməsini və bölüşdürülməsini təmin etmək | DTX | DİN, ƏN, RİNN, XRİTDX | mütəmadi | Qabaqcıl təcrübənin və yeniliklərin mənimsənilməsi | Kibercinayətkarlığa qarşı mübarizə təcrübəsinin bölüşdürülməsi | Beynəlxalq əməkdaşlığın genişləndirilməsi |
| 8.9.2.2. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə beynəlxalq təlimlərdə, ekspert görüşlərində və müxtəlif tədbirlərdə mütəxəssislərin iştirakına təşkilati dəstək vermək | RİNN | XRİTDX, MN, DTX, ETN, MB, XKX | mütəmadi | İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə mütəxəssislərlə davamlı əlaqə yaradılması | Qabaqcıl təcrübəyə əsaslanan təlimlərin və görüşlərin kataloqunun yaradılması | Sahə üzrə mütəxəssislərin iştirakına təşkilati dəstək verilməsi |
| 8.9.2.3. İnformasiya təhlükəsizliyi subyektləri, o cümlədən Milli CERT və digər CERT-lər səviyyəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini, kibertəhlükəsizlik sahəsində beynəlxalq təcrübənin öyrənilməsini təşkil etmək | RİNN | XRİTDX, ETN, DTX, MB | mütəmadi | Beynəlxalq CERT mərkəzləri ilə əməkdaşlığın inkişaf etdirilməsi | Beynəlxalq CERT mərkəzlərinə üzvlüyün təmin edilməsi | Beynəlxalq fəaliyyətdə qarşılıqlı fəaliyyət və təcrübə mübadiləsinin gücləndirilməsi |
| 8.9.2.4. Əhalinin fərdi məlumatlar sahəsində hüquqlarının qorunması üçün beynəlxalq miqyaslı operatorlarla (kontentdaşıyıcılarla) əlaqələr yaratmaq | RİNN | XİN | mütəmadi | Əhalinin fərdi məlumatlar sahəsində hüquqlarının qorunması üçün beynəlxalq miqyaslı operatorların dairəsinin müəyyən ləşdirilməsi | Bu sistemlər üzrə cavabdeh şəxslərin müəyyənləşdirilməsinin təmin edilməsi | Beynəlxalq miqyaslı operatorlarla əlaqələrin yaradılması |

# Heydər Əliyev: “Xalq qəzeti” Azərbaycan həyatının güzgüsüdür

## Xalqın bir əsrlik salnaməsi



*(əvvəli “XQ”nin 23 və 25 avqust nömrələrində)*

Bu gün “Xalq qəzeti” oxucuları ilə 30300-cü görüşünə gəlib. Bu, milli mətbuatımızın tarixində rekord göstəricidir.

14 iyul 1969-cu il – Azərbaycan Respublikasında yeni dövrün başlandığı gün. Uzun illər respublikanın dövlət təhlükəsizliyi sistemində müxtəlif vəzifələrdə işləmiş, son iki ildə isə DTK-nın sədri olmuş general-mayor Heydər Əlirza oğlu Əliyev Azəbaycanın rəhbəri seçildi. Aydın səmada şimşək effektini verən bu seçim sanki Azərbaycanın mürgüləyən, ədalətli həyatını möhkəm silkələdi, respublika ictimaiyyətini yüksəlişə, tərəqqiyə və rəşadətli quruculuğa səfərbər elədi. Gənc, enerjili, təşəbbüskar Azərbaycan rəhbərinin apardığı islahatlar, reallaşdırırdığı tədbirlər, həyatımızın bütün sahələrinin inkişafına təkan verdi və dönüş yaratdı.

Bir vaxtlar Sovet İttifaqının geridə qalmış müttəfiq respublikalarından olan Azərbaycan sürətlə öz simasını dəyişdi, iqtisadiyyatını, elmini, mədəniyyətini, incəsənətini və ədəbiyyatını inkişaf etdirib, öncüllər sırasına çıxdı.

Ümummilli lider bu işlərin görülməsində mətbuatın gücündən səmərəli istifadə edirdi. Respublikanın bir nömrəli mətbu orqanı olan “Kommunist” Ulu öndərin ideyalarının həyata keçirilməsində mübariz tribunaya çevrilmişdi. Respublikanın həyatında baş verən müsbət dəyişikliklər qəzetdə geniş təbliğ olunur, neqativ hallara, nöqsan və çatışmazlıqlara qarşı ciddi mübarizə aparılırdı.

Təsadüfi deyil ki, Ulu öndər siyasi hakimiyyətə gəlişinin ilk günlərindən qəzet və jurnallar qarşısında ciddi vəzifələr qoymuş və mətbu sözün gücünə arxalandığını bəyan etmişdi. Bu məsələdə “Kommunist” qəzeti xüsusilə fəal rol oynayırdı. Heydər Əliyevin qəzetin tənqidi məqalələrinin diqqət mərkəzində saxlaması, ciddi yazıların Azərbaycan KP MK-nın bürosunda müzakirə olunması kollektivi daha böyük yaradıcılıq əzmi ilə işləməyə ruhlandırırdı. Respublika rəhbərinin daimi qayğısı sayəsində qəzetin gündəlik tirajı yarım milyon nüsxəni ötürdü.

Sənaye, kənd təsərrüfatı, tikinti-quruculuq sahələrində irəli sürülən təşəbbüslər, görülən işlər qəzetin aparıcı mövzularına çevrilirdi. Zərbəçi tikintilərdə, ilin mühüm buraxılış obyektlərində müxbir postları fəaliyyət göstərirdi. Metro tikintisindən, kondisioner zavodunun, neft-kimya sənayesi müəssisələrinin inşasından... verilən reportajlar, məqalələr, informasiyalar qəzet səhifələrində tez-tez görünürdü.

Heydər Əliyev o dövrdə tez-tez kənd rayonlarına, şəhərlərə şəfərlərə çıxır, tapşırıqlarının icrası ilə maraqlanır, görülmüş işlərlə tanış olur, fəhlələrlə, kolxozçularla söhbətlər edib onların ürək sözlərini dinləyirdi. Ulu öndər belə səfərlərə çıxarkən əsas qəzetlərin rəhbərlərini, həmin bölgə üzrə xüsusi müxbirlərini, habelə ziyalıları – elm, mədəniyyət, ədəbiyyat və incəsənət nümayəndələrini də özü ilə aparırdı. Belə səfərlər yaradıcı insanlar üçün yeni mövzular verir, dövrün tələblərinə uyğun əsərlərin yaranmasına səbəb olurdu.

Həm də belə səfərlər zamanı bəzən çay süfrəsi ətrafında söhbətlər, yaradıcılıq müzakirələri aparılırdı. Yetmişinci – səksəninci illərdə “Kommunist” qəzetinin Muğan bölgəsi üzrə xüsusi müxbiri işləmiş mərhum həmkarımız Telman Əliyev belə müzakirələrdən biri haqqında söhbət açır. Telman müəllim yazır ki, belə söhbətlərin birində Ulu öndər “Kommunist”ə yenicə redaktor təyin olunmuş Rəşid Mahmudovu sorğu-suala tutdu. Qəzetin həmin günkü nömrəsi Heydər Əliyevin kənd rayonlarına səfərinə və pambıqçılıqla bağlı keçirəcəyi müşavirəyə həsr olunmuşdu. Qəzetin manşetində iri hərflərlə verilmiş “Bir milyon ton Azərbaycan pambığı uğrunda!” çağırışı ulu öndərin diqqətindən yayınmamışdı. Redaktordan soruşdu ki, həmin rəqəmi haradan götürüb və hansı rəsmi sənəddə oxuyub?

Rəşid Mahmudov vəziyyətdən çıxmaq üçün respublikada sürətlə gedən quruculuq işlərindən söz açdı, aparılan islahatları, həyata keçirilən mühüm tədbirləri yada saldı. Redaktorun cavabından razı qalmayan Heydər Əliyev ciddi şəkildə bildirdi:

–Bizim rəsmi öhdəliyimiz var. Doğrudur, pambıqçılarımız bir milyon ton məhsul uğrunda mübarizə aparırlar. Yaxşı bilirsiniz ki, kənd təsərrüfatında qarşıya qoyulan məqsədlərə çatmaq üçün hava şəraiti həlledici rol oynayır. Olmadı elə, oldu belə. Yadda saxlayın, sizin taleyiniz həmin rəqəmin reallaşmasından asılı olacaqdır...

Xoşbəxtlikdən həmin il qəzetimizin yazdığı kimi, Azərbaycan bir milyon tondan çox pambıq istehsal etdi. Buna hamıdan çox sevinən, bəlkə də, Rəşid müəllim oldu.

Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişindən sonra respublika həyatının bütün sahələrində islahatlar, tikinti-quruculuq işləri görünməmiş surətdə aparıldı. Sənayedə, əsaslı tikintidə, kənd təsərrüfatında, nəqliyyat sektorunda, ticarət, xidmət, təhsil, elm, mədəniyyət, səhiyyə... sahələrində güclü inkişaf meyilləri özünü göstərdi. Bütün bu inkişaf və tərəqqi dinamikası “Kommunist”in səhifələrində öz əksini taparaq salnamələşirdi.

Qəzetin səhifələrini vərəqlədikcə məlum olur ki, 1969–1982-ci illərdə Azərbaycan iqtisadiyyatının mühüm aparıcı və böyük potensiala malik sənaye sahəsində, digər sferalarda olduğu kimi, yüksək nailiyyətlər qazanılmışdır. Bu dövrdə sənaye məhsulları istehsalının real həcmi 2,7 dəfə artmışdır. Respublika sənayesi keçmiş SSRİ-nin müttəfiq respublikaları arasında ən yüksık sürətlə (orta illik artım 7,9 faiz) inkişaf etmişdir. Sənaye istehsalının 13 il ərzində ümumi həcmi müharibədən sonrakı bütün dövrün (1970-ci ilə qədər) istehsalını 2 dəfə üstələmişdir.

Həmin dövrdə ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyəti olan 170-dən çox sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, mövcud zavod və fabriklər yenidən qurulmuş, genişləndirilmiş, əlavə istehsal sahələri istismara buraxılmışdır. Belə müəssisələr arasında Bakı məişət kondisionerləri, “Azon”, Bakı dərin özüllər, Elektron hesablama maşınları, Bakı radioquraşdırma, Sumqayıt kompressorlar zavodları, Bakıda və Mingəçevirdə iri panelli evtikmə kombinatları və onlarca digər müəssisələr vardır.

1969 – 1982-ci illərdə respublikada iqtisadiyyatıın inkişafına 7,2 milyard manatlıq, başqa sözlə, 1920 – 1968-ci illər ərzində istifadə edilmiş vəsaitdən 4,5 dəfə çox kapital qoyuluşu yönəldilmişdi.

“Kommunist”in o dövrki qəzetlərini nəzərdən keçirərkən, görürük ki, respublikanın kənd təsərrüfatı digər sahələrə nisbətən daha sürətlə inkişaf etmişdir. Ulu öndər hakimiyyətinin ilk dövrlərindən bu sahənin intensiv inkişafı üçün SSRİ hakimiyyətinin beş mühüm qərar çıxarmasına nail olmuşdu. Həmin qərarların icrası nəticəsində Azərbaycanda 1982-ci ildə 1969-cu ildəki 573,9 min ton əvəzinə, 1 milyon 211,3 min ton taxıl, 299,4 min ton əvəzinə 1 milyon 15 min ton pambıq, 272 min ton əvəzinə 1 milyon 865,7 min ton üzüm, 372 min ton əvəzinə 916,7 min ton tütün, 52,2 min ton əvəzinə 345 min ton meyvə və giləmeyvə istehsal olunmuşdu...

Ulu öndərin respublikaya rəhbərlik etdiyi birinci dövrdə milli özünüdərk prosesi xüsusilə qüvvətlənmişdi. Hakimiyyətinin ilk ilindən başlayaraq ümummilli liderliyin əlamətləri Heydər Əliyevin çoxşaxəli və gərgin fəaliyyətində özünü büruzə vermişdi. Sosial-iqtisadi və mənəvi yüksəlişin başlıca məğzi də məhz Azərbaycanın əsrlər boyu arzusunda olduğu müstəqilliyə doğru addım-addım irəliləməsi idi.

**(ardı var)**

***Qüdrət PİRİYEV,***
***“Xalq qəzeti”***

## Ənənəni yaşadan kollektiv

**Mən jurnalistikaya qəlbimin diktəsi ilə gəlmişəm. Fəxr edirəm ki, Bakı Dövlət Universitetinin İkinci Dünya müharibəsindən sonra açılmış jurnalistika şöbəsinin üçüncü buraxılışının məzunu olmuşam. Bu peşənin adını, şərəfini hər zaman, hər yerdə uca tutmağa çalışmışam.**



1953-cü ildə ölkənin avanqard dövri nəşri sayılan “Kommunist” (indiki “Xalq qəzeti”) qəzetində ilk ali təhsilli jurnalist qadın kimi fəaliyyətə başlamışam. Düz 35 il fasiləsiz olaraq burada çalışmış, müxtəlif şöbələrdə müxbir, müdir vəzifələrini tutmuşam, ayrı-ayrı illərdə redaksiyanın partiya və həmkarlar təşkilatlarına rəhbərlik etmişəm.

Mən “Xalq qəzeti”nə həyatımın ən əziz və gözəl günlərini həsr etmişəm və bundan zərrə qədər peşman deyiləm. Bu qəzetdə mənimlə bərabər, məndən əvvəl və sonra çalışan hər kəs mənə son dərəcə doğma və əzizdir. Kollektivin hər bir üzvünü özümə doğma qardaş və bacı bilmişəm. Hətta nəvəm Gülər deyir ki, “Xalq qəzeti” sənin özündən 10 yaş böyük qardaşındır”. Hər dəfə bu sözləri eşidəndə çox təsirlənir və qürurlanıram.

Mən xeyli vaxtdır ki, təqaüddəyəm. Amma doğma kollevtivim, həmkar dostlarım bir an məni unutmur. Bir faktı burada xüsusi qeyd etmək istəyirəm. Doqquz il əvvəl 85 yaşım ilə bağlı Mətbuat Şurasının Ahıl Jurnalistlər Məclisinin təşəbbüsü ilə bir qrup tanınmış jurnalist məni evimdə ziyarət etdilər. Mətbuat Şurasının sədri Əflatun Amaşov (hazırda “Xalq qəzeti”nin baş redaktorudur) söhbət zamanı məni Azərbaycanda qadınları jurnalist peşəsinə bağlayan canlı örnəklərdən biri kimi dəyərləndirdi. Mənə rəhbərlik etdiyi qurumun yubiley plaketini təqdim etdi. Eyni zamanda, Ahıl Jurnalistlər Məclisinin xatirə hədiyyəsi ilə də mükafatlandırıldım.

Yaxşı xatırlayıram ki, mənimlə görüşə vaxtilə birlikdə işləmiş jurnalistlərdən Rafiq Həsənov, Flora Sadıqova və Məzahir Süleymanzadə də təşrif buyurmuşdular. Onlar məni məsuliyyətli işçi və bacarıqlı jurnalist, yaxşı təşkilatçı və qayğıkeş yoldaş kimi kollektivdə böyük nüfuz qazandığımı söylədilər. “Xalq qəzeti”nin təmsilçiləri Tahir Aydınoğlu, İlqar Musaoğlu, Rafiq Salmanov qəzetin keçmiş işçilərinin xidmətlərini qeyd etdilər, onlara ehtiramlarını bildirdilər.

Jurnalist həmkarlarımı dəmlədiyim plova qonaq etdim. Süfrə arxasında davam edən söhbətdə jurnalistikada keçən günlərdən xoş duyğularla söhbət açdıq, həmkarlarıma peşəkar mətbuatımızın sınaqdan çıxmış ənənələrini xatırladıb, yeni nəsil qələm sahiblərinin söz azadlığından bacarıqla yararlanmasının vacibliyini önə çəkdim.

Bu gün çap mətbuatında işləmək asan deyil. İnternet, sosial şəbəkələr, televiziyalar oxucunun diqqətini özünə cəlb etməyə çalışır, bir çox hallarda buna nail olurlar.

Son aylar qəzetdə aktual, rəngarəng materialların, tənqidi yazıların sayı artıb. Bu, məni çox sevindirir.

Bu gün “Xalq qəzeti”nin 104 yaşı tamam olur. Mənim isə 94 yaşım var. Deməli, mənim üçün son dərəcə doğma olan qəzetim məndən 10 yaş böyükdür. Arzu edirəm ki, mənə gələn il 95 yaşımda doğma qəzetimin 105 illik yubileyini görmək və yubiley tədbirlərində iştirak etmək xoşbəxtliyi nəsib olsun.

***Tamara ƏLİYEVA,***
***“Xalq qəzeti”nin sabiq şöbə müdiri***

## Mötəbər söz tribunası

**“Xalq qəzeti”nin redaksiyası mənim üçün çox əziz yerdir. Mən burada 1984-cü ildən çalışmağa başladım. Məni qəzetin baş redaktoru Rəşid Mahmudov buraxıcı vəzifəsinə dəvət etmişdi. Ondan əvvəl “Azərbaycan” nəşriyyatında işləyirdim.**



Kollektiv indi olduğu kimi o zaman da çox mehriban idi. İnsanlar bir-birinə hörmət və rəğbətlə yanaşırdılar. Burada Əşrəf Hacıyev, Rafael Nağıyev, Telman Heydərov, Məzahir Süleymanzadə, Şakir Yaqubov kimi korifey jurnalistlər çalışırdılar. O illərdə “Xalq qəzeti” çox nüfüzlü idi. Zarafat deyil, qəzet 400-450 min tirajla çıxırdı. Qəzetin nüsxələri dünyanın 80-90 ölkəsinə göndərilirdi.

Mən məktəbin aşağı siniflərində oxuduğum dövrdə “Xalq qəzeti”ni həvəslə mütaliə edirdim. Lənkəran rayonunun Kəlgalan kəndində yaşayırdıq. Yadımdadır, mən qəzeti ucadan oxuyur, babam, atam isə mənə diqqətlə qulaq asırdılar. Oxu tərzim onların xoşuna gəlirdi. Müxtəlif yazıları göstərib deyirdilər ki, bunları da oxu.

Bəzən kənd məktəbində hansı sözün necə yazıldığı barədə mübahisə düşürdü. Belə hallarda mötəbər hakim rolunda “Xalq qəzeti” çıxış edirdi, Belə ki, həmin sözü məhz “Xalq qəzeti”nin yazdığı kimi qəbul edirdilər. Hamı hesab edirdi ki, qəzetdə səhv gedə bilməz.

Sonra tale elə gətirdi ki, bu kollektivdə çalışmaq mənə nəsib oldu. Mən burada qəzetin 4 baş redaktoru – Rəşid Mahmudov, Ramiz Əhmədov, Cəmil Əlibəyov və Tofiq Rüstəmov ilə birlikdə işləmişəm. Onların hər biri ilə dost və yoldaş olmuşam. Ailəvi dostluq etmişik.

Sonrakı dövrlərdə də harada işləməyimdən asılı olmayaraq “Xalq qəzeti” ilə sıx əlaqəm olub. Mən respublikanın bir neçə böyük nəşriyyatına rəhbərlik etmişəm. Bir arada “Xalq qəzeti”nin çap kağızı ilə bağlı çətinlikləri yaranmışdı. Minnət qoymaq kimi səslənməsin, həmin anlarda gücüm çatan qədər kömək etmişəm.

Bu gün, demək olar ki, hər gün kollektivlə maraqlanıram. Yeni baş redaktor Əflatun Amaşov çox istedadlı və təcrübəli jurnalistdir. Qəzetə yeni ab-hava gətirib. Bu, məni çox məmnun edir. “Xalq qəzeti” yaxşılığa doğru çox dəyişib. Qəzetdə hər gün bir-birindən maraqlı yazılar dərc olunur. Ara-sıra tənqidi yazılara yer verilir. Bunlar, əlbəttə, təqdirəlayiq haldır.

Sonda qəzetin kollektivinə yeni yaradıcılıq uğurları arzulayıram. “Xalq qəzeti”nin qəlbimdə xüsusi yeri var. Bura mən öz evimə gələn kimi gəlirəm. Çünki burada mənim ürək dostlarım, yüksək peşəkarlar çalışırlar.

**Mehman FƏRZULLAYEV,**
**“Xalq qəzeti”nin keçmiş əməkdaşı**

## Milli mətbuatın lideri

**Mənim 55 illik jurnalistlik fəaliyyətimin ilk 27 ili 1968-ci ildən “İdman” qəzetində keçib, 1995-ci ildən isə 2019-cu ildə təqaüdə çıxanadək “Xalq qəzeti”ndə çalışmışam. Bu qəzet əməkdaşı olduğum 23 il ərzində öz səhifələrində Azərbaycanda bədən tərbiyəsi və idmanın təbliğatına kifayət qədər yer ayırmış, ölkədə və dünyada baş verən idman hadisələrini diqqət mərkəzində saxlamış, ən yaxşı idmançı və mütəxəssislərin uğurlarını geniş işıqlandırmışdır.**



“Xalq qəzeti” yaranmış ənənəni bu gün də inamla davam etdirir. Onun, demək olar, bütün nömrələrində Azərbaycan idmançılarının iştirakı ilə keçirilən beynəlxalq yarışlar, təmsilçilərimizin çıxışları haqqında operativ məlumatlar, qalib və mükafatçılar haqqında yazılar dərc edilir. Dünyada çoxdandır idman ölkəsi kimi tanınan dövlətdə başqa cür ola da bilməz . Azərbaycanın idman nailiyyətləri onlara layiqli şəkildə təbliğ olunmalıdır.

Daim respublika mətbuatının lideri olmuş “Kommunist”in davamçısı “Xalq qəzeti”nin fəaliyyətinin növbəti ildönümü münasibətilə qələmə alınan bu qeydlərə onu da əlavə etmək istərdim ki, mənə yaradılmış şərait sayəsində ötən ilin oktyabr ayından bugünə qədər qəzetdə 70-ə qədər yazım dərc olunub. Həmin materiallarda söhbət əsasən Azərbaycan idman mətbuatının unudulmaz nümayəndələri, məşhur idmançılarımız, çempionlar haqqında getmiş, onların idmanımız qarşısında böyük xidmətləri xatırlanmışdır.

Əlbəttə ki, belə bir imkan qazandığıma görə qəzetin rəhbərliyinə və kollektivinə təşəkkür etməyi özümə borc sanıram. Bayramınız mübarək, əziz həmkarlar!

***Oqtay BAYRAMOV,***
***“Xalq qəzeti”nin idman şöbəsinin sabiq müdiri, Əməkdar jurnalist***

# Xalqın qəzetinə çevrilmiş qocaman anadilli nəşr

## “Azərbaycan” qəzetindən “Xalq qəzeti”nə gələn yol

**“Xalq qəzeti” öz tarixinin 104-cü ilinin tamamında oxucuları ilə görüşə 30 min 300-cü nömrəsi ilə gəlir. Kollektiv milli jurnalistikamızın ötən nəsillərinin qiymətli əmanəti olan bu avanqard nəşrin fəaliyyətinin 105-ci ilini ölkənin ən qocaman gündəlik qəzetinin tarixinin işıqlı məqamlarından doğan öyünc hissi, azad sözə sədaqət amalı, ölkəmizin sabahına, xalqımızın firavanlığına inam duyğuları ilə qarşılayır.**




XALQ qəzeti
Азәрбајҹанын дәрсләри
ҮЗҮМ ЈЕТИШИБ


Qommunist
APREL 15
Azərbajçan inçəsənəti dəqadası SSRI ordenləri ilə təltif etmişdir.
Azərbajçun inçəsənətinin ordenli ustalarьna salam!
TARIXI QƏLƏBƏNIN MYKAFATЬ

Böyük Həsən bəy Zərdabi demokratik düşüncə tariximizin ən öyünclü səhifələrindən birini təşkil edən milli-məfkurəvi fəaliyyətinə “məktəb – mətbuat – teatr” triadasını qurub gerçəkləşdirməklə başlamışdı. Milli mətbuatımızın atası, görkəmli maarifçi-demokrat mübarizə meydanında bu fəaliyyətləri ard-arda deyil, məhz yan-yana qoymuşdu. Məktəb xalqı savadlandırmaqla mətbuat və teatrın inkişafına kömək etməli; mətbuat ictimai maarifləndirmə ilə təhsil və teatrın meydanını genişləndirməli; teatr isə ictimai mövzuları və canlı çıxışları ilə xalqa tərəqqi yolunu göstərməli idi.

Böyük “Əkinçi” “millət zəmisini bu üsulla əkib-becərməyə” başladı və onun səpdiyi toxumlar cücərib milli istiqlal mübarizəsini ərsəyə gətirdi. 1918-ci ilin 28 mayında milli dövlətçiliyimiz dirçəldiləndə Zərdabi yolunun davamı olaraq ilk dövlət qəzetinin yaradılması milli rəsmi atributlar səviyyəsində gündəmə gəldi. Həsən bəyin “Əkinçi”sindən nəşət etmiş milli nəşrlərin təkamülü zəminində Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi nəşri olan “Azərbaycan” qəzeti belə ərsəyə gəldi.

AXC hökuməti 1918-ci il iyulun 3-də “Azərbaycan Cümhuriyyəti hökumətinin əxbarı” adlı rəsmi nəşrin buraxılması barədə qərar verdi. Qısaca “Azərbaycan” adı ilə tanınan bu qəzet sentyabrda Gəncədə nəşrə başladı. Az sonra Bakının paytaxt elan olunması ilə “Azərbaycan” qəzeti də hökumətlə bərabər fəaliyyətini bu şəhərdə davam etdirdi. Sonrakı 1 il 8 ay müddətində “Azərbaycan” qəzeti istiqlalçı ziyalıları ətrafına cəm etməklə milli dövlət quruculuğunun söz tribunası oldu, hökumətin və onun parlamentinin fəaliyyətinin salnaməsinə çevrildi.

1920-ci ilin 28 aprel bolşevik çevrilişi və Rusiya qoşunlarının ölkəmizi işğal etməsi “Azərbaycan” qəzetinin də bu adla fəaliyyətinə son qoydu. Yeni “qırmızı” ağaların bütün dövlət və hökumət idarəçiliyini ələ keçirdikləri 27 aprel gecəsinin səhərisi müstəqil dövlətin devrilməsində “siyasi vasitəyə” çevrilmiş milli xəyanətkarların ideya rəhbərləri “Azərbaycan” qəzetinin də binasını tutaraq giriş qapısındakı lövhəni və nəşrin adını dəyişərək “Kommunist” qoydular. Bu, Azərbaycanın müstəqilliyinə son qoyulmasının və bu Şərq ölkəsində Rusiyanın kommunist hakimiyyətinin yerli vassallığının yaradılmasının daha bir rəsmi təsdiqi demək idi.

“Azərbaycan” qəzetinin redaktoru bəstəkar-publisist Üzeyir Hacıbəyli bu acı gerçəyə etiraz olaraq vəzifəsini tərk etdi. Əslində, son günlərin parlamet müzakirələri ilə bağlı qəzetdə hakimiyyətin bolşeviklərə təslim edilməsinə kəskin etiraz etmiş Üzeyir bəy getməsəydi də, bu vəzifədə saxlanılmayacaqdı. Az sonra isə onu “güllələnmə siyahısı”ndan yeni oyuncaq hökumətin başçısı Nəriman Nərimanov güc-bəla ilə xilas etdi. “Azərbaycan” qəzetinin yaradıcı-texniki heyəti isə yeni “Kommunist” qəzetinin buraxılışına məcbur edildi. Dəyişən qəzetin adı və ideya istiqaməti oldu. Ümumi tərtibat və texniki elementlər isə əvvəlki nömrələrdəkinin eynisi idi.

Milli kommunist ideoloqların başı hakimiyyət və vəzifə bölgüsünə elə qarışmışdı ki, qəzetə redaktor təyin etməyi də unutmuşdular. Qəzeti alban mənşəli məsul katib Əhməd Triniç buraxır, növbə ilə kommunist publisistlər Əliheydər Qarayev və Ruhulla Axundov imzalayırdılar. Yaradıcı heyəti ilk vaxtlar kommunist təbliğatına səfərbər etmək o qədər də asan keçmirdi. Bolşeviklərin vədləri nə qədər cazibədar olsa da, kommunist quruluşu nə qədər ədalətli cəmiyyət kimi qələmə verilsə də, qəzetin əməkdaşları milli varlığa divan tutulduğunu görüb qəzetdə candərdi çalışır, müstəqillik ideyalarına sədaqətlərini gizlətmidilər. Bu isə onlara baha başa gəlirdi.

Yalançı milli suverenlik şüarları altında dövlət müstəqilliyinə son qoyulması, passiv də olsa, qəzetdə etirazla qarşılanır, kommunist rəhbərlik isə belə müəllifləri sərt cəzalandırıdı. İlk illərdə “qəzetdə millətçilik yuvası”nın mövcudluğu ilə bağlı bir neçə dəfə partiya qərarı da qəbul edilmişdi. Redaktorlar tez-tez dəyişdirilsə də, redaksiyada milli təmayülü yox etmək mümkün olmurdu. Ədliyyə naziri Həmid Sultanovun isə 1922-ci ildə qəzetdə ehtiyatsız bir yazısı – “qatarların əvvəlki kimi Rusiyaya dolu gedib boş qayıtması” məsələsi onun karyerasına son qoydu.

Bu yerdə xatırladaq ki, “Azərbaycan” qəzetini “Kommunist”ləşdirməkdə müstəsna rol oynamış “Əliheydər – Ruhulla” tandemi sonrakı illərdə qəzetin ilk dövlət qəzetimizə bağlılığını unutdurmaq üçün onun tarixini Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı demokratik şəraitdə və mətbuat azadlığına verdiyi təminat zəminində 1919-cu il avqustun 29-da “Kommunist” adı ilə dərc olunmuş 1 nömrəlik bülletenlə bağladılar. Onlar 1929-cu ildə həmin tarixi rəsmiləşdirərək “Kommunist” qəzetinin 10 illik yubileyini təntənə ilə qeyd etməklə öz “xidmətlərini” tarixə yazmaq istədilər. Həqiqətdə isə dövlət qəzeti kimi “Kommunist”in ilk nömrəsi 1920-ci il aprelin 30-da çıxmışdı.

Bu qəzetin ilk və sonrakı kollektivləri Azərbaycanda rəsmi mətbuat ənənəsini davam etdirdi və zənginləşdirdi. “Azərbaycan” qəzetinin milli dövlətçiliyə və xalqa xidmət məramı sonrakı 71 ildə redaksiya divarları arasında açıq və gizli şəkildə yaşadıldı, yazarların milli varlığımıza bağlılığı heç bir zaman qırılmadı. Təsadüfi deyil ki, “Kommunist”ə 1937-ci ilədək rəhbərlik etmiş redaktorların hamısı “milli təmayülə sədaqətə” görə millətçilik damğası ilə repressiya olundu, redaksiya həmişə ciddi ideoloji nəzarət altında saxlandı.

Belə bir şəraitdə “Kommunist” qəzetinin milli-demokratik mətbuatımızın ənənələrinə daxilən sadiq qalan yaradıcı qüvvələri mübarizəni alt qata keçirərək xalq işinə sədaqətlərini iqtisadi quruculuğa, mədəni inqilaba, elmin və milli ədəbi-bədii yaradıcılığın inkişafına yönəltdilər. Redaksiyanın ideoloji istiqaməti ilə yanaşı davam edən milli təmayülə bağlılıq xətti sonrakı nəsillərə ötürüldü. Artıq əsrin 50–60-cı illərində “Kommunist” qəzeti respublikanın yerli maraqlarını ön plana çəkmişdi, mili inkişafa daha böyük maraq və həvəslə xidmət göstərirdi.

Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi isə qəzetin tarixində milliləşmənin yeni mərhələsini açdı. Ötən əsrin 70–80-ci illərində respublikada gedən geniş quruculuq və milli-mədəni yüksəliş dövründə qəzetin kollektivi Heydər Əliyevin liderlik nümunəsindən güc aldı, həmin proseslərin əhatəli xronikasını yaratdı. Müstəqil Azərbaycan dövlətinin rəhbəri kimi Heydər Əliyevin indiki intibah və tərəqqiyə özül olmuş tarixi fəaliyyəti də “Xalq qəzeti”nin tarixində parlaq səhifələr yaratdı.

Bütün bunların canlı şahidi və ideya rəhbəri olmuş Ulu öndər müstəqil Azərbaycanın Prezidenti kimi, 1994-cü ildə qəzetin 75 illik yubileyində kollektivə ünvanladığı təbrikində bildirirdi: “Xalq qəzeti” mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərimizdəndir. Uzun müddət “Kommunist” adı ilə nəşr edilən bu qəzet bütün sovet dövrü ərzində Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur. Respublikanın qəzetçilik ənənələrinin formalaşmasında, jurnalistikamızın inkişafında “Xalq qəzeti”nin xidmətləri xüsusi qeyd olunmalıdır”.

1988-ci ildə erməni millətçi-separatçılarının Azərbaycana ərazi iddiası ilə siyasi-hərbi təcavüzə başlaması, keçmiş SSRİ-nin kommunist rəhbərliyinin ermənipərəst Mixail Qorbaçovun himayəsi ilə bu ədalətsizliyin qarşısını almaması bütün xalqımız kimi, “Kommunist” qəzetinin redaksiyasının da sovet sisteminə bağlılığını heçə endirdi. 20 Yanvar qırğınından sonra kommunist ideologiyasına xidmətdən rəsmi surətdə imtina edən yaradıcı heyət qəzetin adını dəyişməyə cəhd etdi. Lakin Moskvaya bağlı siyasi rəhbərlik və hərbi vəziyyət bu addımı ilyarım ləngitdi.

1991-ci ilin yayında Sovet imperiyasının və onun kommunist rejiminin süqutunu həlledici mərhələyə yaxınlaşdırmış “QKÇP” olayları zamanı qəzet redaksiyasının kollektivi avqustun 23-də respublikada bundan sonra da 24 gün mövcud olmuş Azərbaycan Kommunist Partiyasının orqanı olmaqdan imtina etdi. Yaradıcı kollektiv nəşrin təsisçiliyini öz üzərinə götürdü. O vaxtkı baş redaktor Tofiq Rüstəmovun təklifi ilə xalqa və azad sözə xidmət məramı ilə 71 il Azərbaycan mətbuatının avanqardı olmuş “Kommunist” fəaliyyətini “Xalq qəzeti” adı ilə, müstəqil ictimai-siyasi nəşr kimi davam etdirməyi qərara aldı. 1920-ci ilin 28 aprelində xalqdan ayrı salınmış ilk dövlət qəzetimizin fəaliyyətini davam etdirən bir nəşr, nəhayət, “Xalq qəzeti” adı ilə xalqa xidmət amalına qovuşdu – xalqın qəzeti oldu.

Azərbaycanın dövlət müstəqilliyinin bərpa edildiyi günlərdə xalqla respublika rəhbərliyi arasında rəsmi informasiya körpüsü olmuş “Xalq qəzeti” sonrakı 2 il yarımda baş verən siyasi təbəddülatlar, uğursuzluqlar dövründə dövlət suverenliyinə və mətbuat azadlığı prinsiplərinə sadiq qaldı. 1993-cü ilin böhranlı yayında kollektiv öz mövqeyi və qələmi ilə ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası ilə hakimiyyətə qayıdışını təkidlə tələb edən xalqımızla bir yerdə oldu. Ümummilli lider o zaman kollektivi təbrikində qəzetin bu dövr fəaliyyətini belə dəyərləndirdi: “Müstəqilliyimizin qazanılmasından sonra “Xalq qəzeti” respublikanın ictimai həyatında baş verən hadisələrə cəsarətlə müdaxilə etmiş, bir çox problemlərin aşkarlanmasında mühüm rol oynamışdır”.

Qəzetin tarixində yeni məsul mərhələ, bax, belə başladı. Müstəqil Azərbaycanda 1993 – 1995-ci illərdə həyata keçirilmiş tarixi tədbirlərə, ölkənin xaos və böhrandan çıxarılması prosesinə fəal informasiya dəstəyi vermiş “Xalq qəzeti” Ulu öndərin etimad və himayəsi ilə 1995-ci ilin noyabrından Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin və redaksiya kollektivinin həmtəsisçiliyi ilə nəşr olunur. Bu statusla qəzet yeni fəaliyyətinə ümumxalq səsverməsi ilə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Konstitusiyasını çap etməklə başladı.

Ümummilli lider o günləri belə səciyyələndirirdi: “Bu gün qəzet müstəqil Azərbaycanda hüquqi və demokratik dövlət quruculuğu işində güclü səfərbəredici rol oynayır”. Qəzetin son 20 ildəki 6 mindən yuxarı sayı Ulu öndərin layiqli davamçısı İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə işıq üzü görüb. Bu mərhələ ölkəmizdəki hərtərəfli tərəqqinin geniş əks etdirilməsi ilə yanaşı, həm də qəzetin özünün inkişafında irəliyə doğru yeni addımlarla əlamətdardır. Maddi-texniki bazanın, buraxılış texnologiyasının daim yeniləşməsi, söz azadlığı prinsipinin ardıcıl bərqərar olması qəzetin öz populyarlığını, mötəbər media qurumu kimi cəmiyyətdə öncüllüyünü qoruyub-saxlamasına təminat yaradıb.

Ötən 104 ildə Azərbaycanda baş vermiş siyasi, iqtisadi, sosial və mədəni hadisələrin davamlı, əhatəli salnaməsi kimi “Xalq qəzeti” nadir mətbu tarixi mənbədir. Bu gündəlik milli qəzet həmişə xalqla bir yerdə olub, bundan sonra da belə olacaq.

**Tahir AYDINOĞLU,**
**“Xalq qəzeti”**

**Bu qəzeti oxumağa başlayanda mənim cəmi 15 yaşım vardı, “Kommunist”in isə 50. İndi – bu kollektiv haqqında qısa xatirələrimi qələmə alanda mənim 71 yaşım var, ən qocaman anadilli qəzetimizin isə 104. Yəni, saçımız, saqqalımız ağarıb, ana qəzetimiz. Amma son iki il yarımda ağaran təkcə saçımız deyil, həm də üzümüz ağarıb. Ordumuzun və dövlətimizin Şanlı Qələbəsini birlikdə görməyin, birlikdə təbliğ etməyin məmnunluğunu yaşayırıq. Elə sən də son bir ilə yaxın müddətdə xeyli “cavanlaşmısan”, ay dünyalar görmüş ağsaqqalımız.**

## Unudulmazlar redaksiyası

Vaxtilə yarım milyon, bəzən altı yüz min tirajla çıxan qəzetin on milyonlarla oxucusunun ürəyində geridə qalan 104 ilin hansı tarixləri, faktları, hadisələri baş verib və indi nə kimi hisslər yaşanılır? Təbii ki, bu suallara cavab tapmaq o qədər də asan deyil. Amma birmənalı şəkildə deyə bilərəm ki, bu qəzet şəxsən mənim müəllimim olub. Həmin arqumentimi dəfələrlə danışmışam, indi isə yazıram.

***

“Dalğa” qəzetinin baş redaktoru, mərhum yazıçımız Nahid Hacızadə bir dəfə kollektivin iclasında mənim müxbir kimi fəaliyyətimdən razılıq edəndə onun müavini Ələkbər Abbasovdan heç kəsin gözləmədiyi sual eşitdim:

– İttifaq, sən ixtisasca nəinki jurnalist, heç filoloq da deyilsən. Üstəlik, İncəsənət İnstitutunun mədəni-maarif fakültəsini də qiyabi oxumusan. Maraqlıdır, bəs səndə belə səlis yazmaq qabiliyyəti haradandır?

Dedim:

– Mən 1969-cu ildən bəri “Kommunist” qəzetini, demək olar ki, hər gün oxuyuram. İnana bilərsiniz ki, müəllimim o qəzet olub.

Bu əhvalat SSRİ-nin dağılmasından il yarım sonra baş vermişdi. Yəni kommunist sözünü heç kəs işlətmək istəmirdi. Ona görə də Ələkbər müəllim məni alqışladı və uğurlar arzuladı.

Mən dörd-beş məqalənin adını çəkdim. Əli müəllim qayıtdı ki, hər ili deyə bilmərəm, amma bir il qalib ola bilərdin.

***

Çox sonralar tanıdığım qocaman həmkarımız Bariz Əsədovun bölgə müxbiri kimi hazırladığı məqalələrə verdiyi “Kürün sağ sahilində” və “Bir qovaq, on bir qonaq” (maşının xarab olduğuna görə yol kənarıdakı bir qovağın kölgəsinə sığınmış qonaqların bəziləri bu ağacı əkmiş adamı tanıyırlarmış) sərlövhələrini dəfələrlə onun yadına salmışdım.

Bariz müəllim bir dəfə dedi ki, yorulmuşam. Altmış yaşım tamam olan kimi işdən çıxacam. Doğrudan da, altmış yaşı tamam olan kimi işdən çıxdı. Amma işə öyrənmiş adan işsizliyə tab gətirə bilmədi. Bir müddətdən sonra “Azərbaycan” qəzetində işləməyə başladı.

***

“Xalq qəzeti” redaksiyasında ən çox çörək kəsdiyim adamlardan biri də Qarabağ üzrə bölgə müxbirimiz olmuş Firudin Rəsulov idi. Bir dəfə eşitdim ki, Firudin müəllim araq içməyi tərgidib və ancaq siqaret çəkir. Dedim: “Ay Firudin müəllim, gərək siqareti tərgidəydin”.

Dedi: “İttifaq, siqaret adamın canını alır, araq isə abırını. Mən 60 yaşdan sonra abırımı qorumalıyam”.

***



***

Azərbaycan Jurnalistlər Birliyi doxsanıncı illərdə “Xalq qəzeti” redaksiyasında Milli Mətbuat Günü münasibətilə tədbir keçirirdi. Dövlət radiosundan mən gəlmişdim. Tədbir başa çatandan sonra qəzetin baş redaktoru Tofiq Rüstəmov jurnalistlərə xitabən dedi:

– Uşaqlar, (oradakı jurnalistlərin əksəriyyəti onun tələbəsi olmuşdu) mən Teleradio Verilişləri Şirkətinə gedirəm. Ora gedən varsa, əyləşsin mənim maşınıma.

Hamı bir-birinə baxanda televiziya işçiləri də mənə baxdılar. Çünki onlar idarə maşınıyla gəlmişdilər, mən isə avtobusla. Ürəyimdə “Xalq qəzeti” baş redaktorunun bu sadəliyini alqışlayaraq onun maşını ilə tədbirdən iş yerimə qayıtdım və onun həmin günlərdə dünyasını dəyişmiş atası Hacı Tağıya Allahdan rəhmət dilədim.

***

Bir dəfə Şövkət Məmmədova haqqında məqalə hazırlayırdım. Bəzi faktları dəqiq bilmədiyimə görə axtarış aparmalı idim. Şöbə müdirimiz Telman Heydərov dedi ki, tələsmə, sabah Alp ( qəzetin keçmiş məsul katibi Alp Ağamirovu nəzərdə tuturdu) bura gələcək, mədəniyyət aləmində onun bilmədiyi şey yoxdur.

Ertəsi gün Alp müəllim gəldi və mən... onun danışdıqlarına qulaq asanda ilk dəfə idi ki, canlı ensiklopediya görürdüm.

***

Qəzetin tanınmış qələm sahiblərindən olmuş Əşrəf Hacıyevin yazılarını məhz məsələyə yanaşma tərzini öyrənmək üçün oxuyurdum. Həm də söhbətlərinə maraqla qulaq asırdım. Bir dəfə ona dedim ki, Əşrəf müəllim, Füzuli bir beytdə “Vətənimdir” ifadəsini dörd dəfə işlədib. Siz isə üç dəfə işlədə bilərsiniz. Çünki Ucarda doğulmusunuz, Qəbələdə böyümüsünüz, Bakıda isə yaşayırsınız.

– Mənim də dörd Vətənim var – dedi və əlavə etdi ki, “Xalq qəzeti”ni unutma.

O, doğrudan da, redaksiyaya gələndə öz doğma evinə gələn kimi xoşbəxt görünürdü.

***

Bir neçə il qabaq redaksiyamızda mərhum əməkdaşımız Əli İldırımoğlu ilə görüş keçirilirdi. Mən də çıxış etdim və dedim ki, Skandinaviya ölkələrində “ilin ən yaxşı” yazıçısı, rəssamı, bəstəkarı və ya jurnalisti nominasiyaları ilə yanaşı, “ən yaxşı oxucu” müsabiqəsi də keçirilir. Sovet dönəmində “Kommunist”in ən yaxşı oxucusu müsabiqəsi keçirilsəydi, bəlkə də hər il mən qalib olardım.

Qocaman həmkarımız soruşdu ki, həmin illərdə bu qəzetdə məsələn, nələri oxumuşdun?

Rəsmi tədbirlərdən birinin başlanması gecikirdi. Foto-müxbirimiz Cahangir İbadov narahatlıq keçirir, tez-tez “redaksiyada məni gözləyirlər” ifadəsini təkrar edirdi. Ona ərki olan foto-müxbirlərdən biri dedi ki, Cahangir, o qədər həyəcanlısan ki, elə bil səni “Pravda”da gözləyirlər. Uzun illər “Kommunist” adıyla çıxmış “Xalq qəzeti”-dir də, qoy gözləsinlər.

Cahangir müəllimin cavabı ətrafdakıların hamısının susmasına səbəb oldu: – “Kommunist” – “Xalq qəzeti”nin nə demək olduğunu anlamaq üçün savad və bilik tələb olunmur. Bunun üçün, sadəcə, gerizəkalı olmamaq kifayətdir.

***

Mən bu redaksiyaya təzə gələndə köhnə iş yoldaşım Arif Quliyev dedi ki, gedək səni həmyerlinlə tanış edim. Getdik və siyasət şöbəsinin müdiri Telman Heydərovla tanış olduq. Bu məqamda Telman müəllimin otağına bəstəboy, üzündə körpə uşaq təbəssümü olan bir kişi gəldi. Telman müəllim məni o adama təqdim edərək dedi:

– Feyzi Fərəcullayev, tanış ol, İttifaq mənim yerlimdir. Radioda çalışırdı. İndi bizimlə işləyəcək.

Yeni tanışım mətbuatımızın mərkəzinə xoş gəlmisən! – deyə əlimi sıxdı.

Nə dediyini başa düşmədim və cavab verə bilmədim. Əlavə etdi:

– Azərbaycan mətbuatının hansı sahəsində, qolunda çalışsan da, milli mətbuatımızın mərkəzi bura – “Xalq qəzeti”dir.

Gədəbəydən – əsgərlərlə görüşdən qayıdandan sonra hazırladığım yazını baş redaktorun birinci müavini Məmməd Nazimoğluya təqdim etdim. Oxuyub qol çəkəndən sonra dedi: – Biz hamımız bu dünyada müvəqqətiyik. Mən də öləcəm, sən də, Mahir də, o birilər də. Mən, bəlkə, bir az tez öldüm. Amma yazdıqlarımız qalacaq. Onlar övladlarımız kimi bizə rəhmət də oxuda bilərlər, lənət də. Ona görə də elə yazmalıyıq ki, rəhmət oxuyanlar daha çox olsun.

Allah sənə rəhmət eləsin, Məmməd Nazimoğlu, sən o sarıdan bəxtəvərsən.

***

104 yaşın mübarək, “Xalq qəzeti”! Mən təkcə sənin çörəyini yemədim, sənin nüfuzundan da, qazandığın xalq inamından da, etimaddan da mənə pay düşdü. Məmnunam ki, 1996-cı il fevralın 10-dan bəri sənin əliçəkicli fəhlənəm. Yolun açıq olsun. Dövlətimizin qüdrətinə və Böyük Zəfərimizin adına layiq olmaq üçün başladığın müasirləşmə prosesi dönməz olsun, İnşallah!

**İttifaq MİRZƏBƏYLİ,**
**“Xalq qəzeti”, Əməkdar jurnalist**

# Yüksək inkişaf bütün ölkəni əhatə edir

## 7 ayda regional investisiya 6 milyard manata çatıb

**Prezident İlham Əliyevin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiqlədiyi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda artıq ölkə iqtisadiyyatında makroiqtisadi sabitliyin və dayanıqlığın təmin edildiyi, sosial rifahı dəstəkləyən iqtisadi artıma nail olunduğu bildirilib. Adıçəkilən strategiyada, eyni zamanda, milli iqtisadiyyatın aparıcı sahələrində müasir texnologiyaların geniş tətbiqi və keyfiyyətli insan kapitalının cəlbi nəticəsində məhsuldarlığın xeyli yüksəldiyi, iqtisadiyyatın sürətlə şaxələndiyi və daxili istehsalın qlobal dəyər zəncirinə səmərəli inteqrasiyasının yekunlaşdığı da vurğulanıb. Bütün bunlar isə son 10 ilin statistikasında öz əksini tapıb. Belə ki, bu dövrdə milli iqtisadiyyat 15 faiz genişlənib, qeyri-neft-qaz Ümumi Daxili Məhsul (ÜDM) isə 1,4 dəfə çoxalıb.**





Azərbaycan düşünülən iqtisadi siyasətin gerçəkləşdirilməsi, uğurlu iqtisadi islahatların həyata keçirilməsi nəticəsində son 10 ilin iki qlobal maliyyə böhranından uğurla çıxıb, ölkə iqtisadiyyatının xarici təsirlərə davamlılığı özünü göstərib. Məsələn, 2014–2015-ci illərdə qlobal əmtəə bazarında neftin qiymətinin 3 dəfəyə qədər azalanda, 2020-ci ilin əvvəllərindən başlayan və pandemiya böhranının ölkədə makroiqtisadi sabitlik üçün ciddi təhdidlər yaratdığı bir vaxtda çevik və effektiv iqtisadi idarəetmə hesabına, köklü struktur–institusional islahatların reallaşdırılması nəticəsində milli iqtisadiyyatın strukturunun dəyişməsi davam etdirilib, qeyri-neft sektorunun payının yüksəlməsi diqqətdə saxlanılıb. Bütün bunların sayəsində respublikamızda makroiqtisadi sabitlik, həmçinin əhalinin rifahı və sağlamlığı qorunub.

Ümumiyyətlə, dövlətimizin başçısının uğurlu iqtisadi siyasəti ilə ÜDM istehsalı 2011-ci ildə 25,4 milyard manat olduğu halda, 2022-ci ildə 133,8 milyard manat və ya 2021-ci illə müqayisədə 4,6 faiz çox təşkil edib.

Ümumiyyətlə, respublikamızın qeyri-neft-qaz sektorunun dinamik inkişafını bildirən uğurlu göstəricilər əldə edilməsi iqtisadiyyatın bütün sahələrində ötən illərdəki artım dinamikasının qorunub saxlanılmasından xəbər verir. Belə bir nailiyyət makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində nəzərdə tutulan tədbirlərin ardıcıl həyata keçirilməsi ilə şərtlənir.

Hazırda ölkəmizdə ÜDM istehsalının böyük bir hissəsinin sənayenin payına düşməsi uğurlu sənayeləşmə siyasəti sayəsində mümkün olub. Sənaye parklarının mövcud sahədəki fəaliyyəti, həmin zonalarda yeni sənaye sahələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının təşkili, bu işə investorların cəlb olunması kimi məsələlər hökumətin daim diqqət mərkəzində saxlanılıb və bu, cari ilin yanvar–iyul aylarında dövlət büdcəsinin gəlirlərinin 15 milyard 480 milyon manat, xərclərinin isə 14 milyard 63 milyon manat təşkil etməsinə səbəb olub. Dövlət Statistika Komitəsinin məlumatına görə, büdcənin icrasında yaranmış 1 milyard 416,6 milyon manatlıq profisit ümumi daxili məhsulun 2,3 faizinə bərabər olub.

İqtisadiyyatda şəffaflaşmanın artması, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin leqallaşdırılması vergi daxilolmalarının dinamik artımı ilə nəticələnib. Bu, statistik rəqəmlərdə də öz ifadəsini tapıb. Belə ki, cari ilin I yarısında büdcə daxilolmalarında qeyri-neft-qaz sektorunun payı 57 faiz təşkil edib. Sektor üzrə daxilolmaların 58,8 faizi və yaxud 5 milyard 193,7 milyon manatı vergi daxilolmaları, 34,8 faizi və yaxud 3 milyard 75,5 milyon manatı gömrük rüsumları və idxala vergi daxilolmaları, 4,5 faizi və yaxud 393,9 milyon manatı büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, 0,2 faizi və yaxud 16 milyon manatı dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar, 1,7 faizi və yaxud 152,1 milyon manatı isə sair gəlirlər olub.

Göründüyü kimi, reallaşdırılan məqsədyönlü siyasət nəticəsində qeyri-neft sektorunda özəl sektorun payı əhəmiyyətli dərəcədə böyüyüb. Həyata keçirilən uğurlu struktur–institusional islahatlar nəticəsində ÜDM-də özəl sektorun xüsusi çəkisi 2019-cu ildə 85 faiz olub, pandemiya səbəbindən 2020-ci ildə həmin göstərici 80,8 faizə enib və 2022-ci ildə bu sektorda əlavə dəyər 9,1 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM 13 min 292,2 manata çatıb.

Son illərdə iqtisadiyyatda kiçik və orta biznesin dominantlığı xeyli yüksəlib. Xüsusilə dövlət investisiyaları hesabına yaradılan müasir iqtisadi infrastrukturla kiçik və orta sahibkarlığın (KOB) inkişafı dəstəklənib. Son 10 ildə dövrdə qeydiyyatda olan KOB subyektlərinin sayı 3,1 dəfə çox artıb, qeyri-neft ÜDM-də payı isə 30 faizə yaxın olub.

Regionlarda investisiya qoyuluşunun diqqətdə saxlanılması da bölgələrin inkişafını sürətləndirir. Cari ilin yanvar-iyul aylarında Azərbaycanın regionlarına investisiya qoyuluşu ötən ilin müvafiq dövrü ilə müqayisədə 30 faizə yaxın artıb. Cari ilin 7 ayında regionlara investisiya qoyuluşunun həcmi 6 milyard manata yaxınlaşıb.

Qeyd edək ki, 2022-ci ildə Azərbaycanda əsas kapitala investisiyaların həcmi 18 milyard 272 milyon manatdan çox olub. Real ifadədə artım 2021-ci illə müqayisədə 5,5 faiz təşkil edib.

Əlbəttə, bu uğurların əldə edilməsində regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası da önəmli rol oynayıb. Bu, bir neçə gün bundan əvvəl ölkə rəhbərinin Füzuli, Şuşa, Kəlbəcər və Laçın rayonlarına səfərlərindən də aydın görünür. Yeri gəlmişkən, Prezident İlham Əliyev Azərbaycanın bütün regionlarının, o cümlədən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafını, xüsusilə işğaldan azad edilən şəhər və kəndlərimizin yenidən qurulmasını diqqət mərkəzində saxlayır. Vətən müharibəsindən ötən müddətdə bu torpaqlarda həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq layihələri bunun bariz ifadəsidir.

Bununla bağlı bəzi məqamlara diqqət yetirmək istərdik. Əvvəlcə onu xatırladaq ki, Azərbaycan hökuməti böyük maliyyə ehtiyatlarına malik fondları, investorları Qarabağ və Şərqi Zəngəzur ərazilərinin bərpasına cəlb etmək istiqamətində bir sıra addımlar atıb. Məsələn, bu ilin yanvarından etibarən işğaldan azad edilən ərazilərdə fəaliyyət göstərən sahibkarlara vergi təşviqləri verilib. Düşməndən təmizlənən sahələrin rezidentləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azad edilib. Habelə bu azadolmanın həmin ərazilərdəki rezidentlərin fəaliyyəti ilə bağlı əldə olunan satışdankənar gəlirlərinə də şamil edilməsi nəzərdə tutulub. Həmçinin işğaldan azad edilmiş ərazilərdə ƏDV ödəyicisi olan rezidentlər tərəfindən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnika, texnoloji avadanlıqlar və qurğular, habelə xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində ƏDV-dən azad edilib. Bu məqsədlə ƏDV-dən azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturalarının siyahısının ayrıca təsdiqlənməsi nəzərdə tutulub.

Bununla yanaşı, işğaldan azad olunmuş ərazinin rezidenti olan hüquqi şəxslərin səhmdarları və payçılarının dividend gəlirləri də 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində vergidən azad edilib. İşğalçıdan təmizlənən yaşayış sahələrində fəaliyyət göstərəcək sahibkarlara kommunal ödənişlərdə də güzəştlər tətbiq olunur. Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara 2023-cü ilin 1 yanvar tarixindən 10 il müddətində istehlak olunan kommunal xidmətlərə (elektrik enerjisi və təbii qazın satışı, su təchizatı və tullantı sularının axıdılması xidmətləri) görə xidmətlərinin ölkədaxili tariflərinə uyğun şəkildə ödənilən vəsaitin 20 faizi həcmində dövlət büdcəsi hesabına maliyyə yardımının da göstərilməsi planlaşdırılıb.

**Vaqif BİNYATOĞLU,**
**"Xalq qəzeti"**

### Ekspert rəyi

**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**



Son illərdə ölkəmizdə investisiya mühitinin yaxşılaşdırılması istiqamətində davamlı islahatlar həyata keçirilib. Azərbaycan iqtisadiyyatına böyük həcmdə sərmayə yatırımını isə Prezident İlham Əliyev tərəfindən yaradılan ictimai-siyasi sabitlik və xalq–iqtidar birliyi şərtləndirib.

Ümumiyyətlə, hər bir investor investisiya qoyduğu ölkə ilə bağlı məlumatları nəzərdən keçirir, o cümlədən burada müəyyən reytinqlərdə əksini tapan göstəricilər də mühüm önəm daşıyır. Təsadüfi deyil ki, ölkəmiz "Doing Bisness" reytinqində 190 ölkə arasında 28-ci yerdə qərarlaşır. Ölkəmiz bu sıralamada dünyanın bir çox qabaqcıl ölkələrindən öndədir. Bu, respublikamızda həyata keçirilən islahatlar nəticəsində yaranmış müsbət investisiya mühütindən xəbər verir.

Ümumiyyətlə, investisiyalar xarici və daxili mənbələr hesabına həyata keçirilir. Son illər daxili sərmayə xarici sərmayəni üstələyir. Keçən il daxili investisiyaların həcmi əvvəlki illə müqayisədə 21,6 faiz artıb. Buna səbəb isə yaradılan əlverişli investisiya şəraitidir ki, sahibkarlar bu mühütdən səmərəli yararlanır.

Azərbaycanda qeyri–neft sektorunda yaradılan investisiya mühiti xarici və daxili rezidentlərin investisiya yatırmasına şərait yaradır. Respublikamızda qeyri–neft sektoruna yatırılan investisiyaların həcmində daha çox qardaş Türkiyə üstün mövqeyə malikdir. Bundan başqa, ABŞ, Böyük Britaniya, BƏƏ, Almaniya, Fransa və Rusiyadan da demək olar ki, hər il Azərbaycanın qeyri–neft sektoruna böyük həcmdə investisiyalar yatırılır. Xarici investorlar tərəfindən əsasən, tikinti, nəqliyyat, elektrik enerjisi istehsalı, elm və təhsil sahələrinə böyük maraq göstərilir.

İnvestisiya mühitinin yaxşılaşdırılması və ölkədə biznes fəaliyyətinin asanlaşdırılması məqsədilə Azərbaycan Prezidentinin "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" 21 dekabr 2015- ci il tarixli fərmanına əsasən, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib. Rəqəmsal transformasiyaya uyğun olaraq ölkədə xarici investorların biznes fəaliyyətinə başlaması elektronlaşdırılaraq sadələşdirilib.

Bu sahədə aparılan islahatlardan biri də, kiçik və orta sahibkarlıq subyektlərinin 7 il müddətinə mənfəət, torpaq və əmlak vergisindən azad edilməsidir. Sahibkarlar üçün tətbiq olunan vergi güzəştləri sırasında kənd təsərrüfatı sektoru da xüsusi yer tutur.

İnvestorlar üçün tətbiq edilən güzəştlərdən biri də sənaye parklarının rezidentlərini əhatə edir. Parklarda qeydiyyatdan keçən rezidentlər üçün ümumi fiziki infrastruktur və kommunal xidmətlər dövlət tərəfindən təmin olunur. Rezidentlər üçün 10 il müddətinə gəlir və əmlak vergisi, ƏDV və idxal rüsumlarından azadolunma kimi vergi güzəştləri və aşağı icarə haqqının təyin olunması nəzərdə tutulur.

# Koronavirusun yeni alt variantları yayılır

## Qorunma tədbirləri aktuallığını saxlayır




**Monqolustanın paytaxtı Ulan-Batorda koronavirusun "EG.5" ("Eris") variantına yoluxma faktının təsdiqlənməsindən sonra Ümumdünya Səhiyyə Təşkilatı bu barədə geniş açıqlama verib və ölkələri bu məsələni nəzarətdə saxlamağa və lazımı tədbirlər görməyə çağırıb.**

Mütəxəssislərin fikrincə, digər variantlarla müqayisədə xəstəliyin ötürülmə yolları, klinik əlamətləri və yaxud müalicəyə tabe olmağında heç bir fərq müşahidə olunmur. Lakin digər variantlarla müqayisədə daha yüksək mutasiya qabiliyyətinə malik olduğuna görə yoluxduruculuq qabiliyyəti çoxdur.

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən "EQ.5" variantı qlobal ictimai səhiyyə qarşısında aşağı riskli olaraq dəyərləndirilib. Buna baxmayaraq, yüksək risk qrupuna daxil olanlar üçün bu bəyanat qorunma tədbirlərini azaltmaq və diqqətsiz davranmağa əsas olmamalıdır. Hospitalizasiya riski yüksək olanlar hər zaman müvafiq tədbirlərlə özlərini virusa yoluxmaqdan qorumağa davam etməlidirlər.

Qarşıdan payız ayları gəlir. Bu, o deməkdir ki, təhlükə hələ qarşıdadır, çünki payız aylarında virusa yoluxma sayı daha da artır. EG.5 mutasiyasının öskürək, burun axması, boğaz ağrısı, qızdırma, şiddətli yorğunluq kimi əlamətləri var. Əvvəlki dövrdə virusa qarşı aparılan mübarizə tədbirləri yenə aktualdır. Əhalinin xeyli hissəsi virusa qarşı peyvənd olunduğuna görə orqanizmdə müəyyən qədər immunitet var. Lakin koronavirusun xarakteri elədir ki, meydana çıxan yeni variantlarda fərqli, bəlli olmayan əlamətlər müşahidə olunur. Ona görə də əvvəlki qorunma üsulları ən mühüm amillərdən biri olaraq qalır.

Qeyd edək ki, koronavirus daim mutasiyaya uğrayır və onun yeni ştamlarının ortaya çıxması dünya əhalisini narahat edir. ÜST-nın hesabatında son bir ayda dünyada COVID -19-a yoluxanların 63 faiz artdığı bildirilir. Təkcə son bir həftədə 1,4 milyon yoluxma halı qeydə alınıb. Yaranmış vəziyyətlə bağlı bəzi ölkələrdə peyvəndləmə və məcburi maska rejiminə keçid nəzərdə tutulub.

Bəs Azərbaycanda vəziyyət necədir? Yeni mutasiyanın ölkəmizə gəlmə təhlükəsi ilə bağlı narahatlıq hiss olunurmu? Səhiyyəmiz yeni "qəfil qonağın" gəlişinə hazırdırmı?

**Bu kimi məsələlərə münasibət bildirən Səhiyyə Nazirliyinin mütəxəssis - eksperti Vasif Əliyev deyib ki,** koronvirusun yeni ştamları immunitetdən yayındığı üçün təhlükəli sayılır. Onun sözlərinə görə, qonşu ölkələrdə "Omicron" ştamının alt variantlarına yoluxma hallarına rast gəlinir. Hazırda "EG.5"lə yanaşı, başqa daha bir təhlükəli variant da müşahidə edilməkdədir. Amma yoluxma halları artsa da, xəstəxanalara müraciətlərin sayı hələ ki, təhlükəli həddə deyil.

Vasif Əliyev əlavə edib ki, bu növlərin Azərbaycanda olması ilə bağlı hələlik rəsmi məlumat yoxdur. Amma qonşu ölkələrdə yoluxma varsa, gələcəkdə ölkəmizdə də aşkarlanma ehtimalı istisna deyil. Buna görə də infeksionist vətəndaşları gigiyenik qaydalara əməl etməyə çağırıb.

Bununla bağlı TƏBİB-ə ünvanladığımız sorğuya aldığımız cavabda da ehtiyatlı olmaq tövsiyə edilir. Bildirilir ki, yay mövsümündə xarici ölkələrə səfərlərin artması ilə əlaqədar olaraq COVID-19 virusuna yoluxmaların sayının artması gözləniləndir. Müxtəlif ölkələrdən olan şəxslərin hava limanı, təyyarə, kütləvi əyləncə məkanları kimi qapalı yerlərdə bir araya gəlməsi yoluxmaların artmasına təkan verə, yeni ştamların yayılmasına səbəb ola bilər. Lakin hazırda Azərbaycanda COVID-19-un yeni ştamlarının aşkarlanması faktı təsdiqlənməyib.

Koronavirus mutasiya etməyə davam edir və yeni subvariantlar formalaşır. Bu səbəbdən variantlar ÜST və digər ictimai səhiyyə qurumları tərəfindən daim nəzarətdə saxlanılır.

Həmçinin qeyd edilir ki, TƏBİB-in tabeliyindəki xəstəxanalarda hər növ kəskin respirator infeksiyaların müalicəsi üçün zəruri infrastruktur mövcuddur. COVID-19 virusuna yoluxmuş şəxslərin müalicəsi üçün xüsusi ayrılmış Məhəmmədli modul tipli xəstəxana fəaliyyətini dayandırmayıb. Hazırda koronavirusa yoluxan xəstələr həmin tibb müəssisəsində müalicə olunurlar.

Qeyd edək ki, Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son 1 həftədə 111 yeni yoluxma faktı qeydə alınıb, 26 nəfər müalicə olunaraq sağalıb. Virusun yayıldığı vaxtdan indiyədək, ümumilikdə, 832 min 182 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 821 min 773 nəfər müalicə olunaraq sağalıb, 10 min 300 nəfər vəfat edib. Hazırda tibb müəssisələrində aktiv xəstə sayı 109 nəfərdir.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

# İnflyasiya aşağı düşməyə meyillidir

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin bu sözlərindən sonra Baş nazir Əli Əsədovun imzaladığı müvafiq sərəncam əsasında ölkədə inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəyə endirilməsinin təmin edilməsi, inflyasiya proseslərini və onun səbəblərini kəmiyyət və keyfiyyətcə qiymətləndirməyə imkan verən təhlil və monitorinq sisteminin daha da təkmilləşdirilməsi, eləcə də bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsi məqsədilə işçi qrup yaradılıb. Nazirlər Kabineti Aparatının rəhbəri həmin qrupun rəhbəri təyin olunub. İşçi qrupa ölkədə inflyasiya proseslərinin təhlili üzrə işlərin daha da gücləndirilməsi və qiymət monitorinqinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görməsi, həmin tədbirlərin nəticəsi barədə ayda bir dəfə hesabatın Azərbaycan hökumətinə təqdim olunması tapşırılıb.

Yeri gəlmişkən, sənəddə son dövrlərdə inflyasiya prosesinin aktivləşməsinin qlobal iqtisadiyyatın qarşılaşdığı əsas çağırışlardan birinə çevrildiyi vurğulanıb. Bununla bərabər, dünyada geosiyasi gərginliyin davam etməsi, tətbiq olunan iqtisadi sanksiyalar, pandemiyanın yaratdığı fəsadların hələ də tam aradan qalxmaması, iqlim dəyişikliyinin kəskinləşməsi və qlobal iqtisadiyyatın perspektivləri ilə bağlı qeyri-müəyyənliklərin hazırda da inflyasiya proseslərinə təsir göstərdiyi diqqətə çatdırılıb. Ölkədə inflyasiyanın daxili və xüsusilə də xarici amillərin aktivləşməsini nəzərə alaraq, qiymət artımı ilə səmərəli mübarizə çərçivəsinin formalaşdırılması üçün mühüm işlər görüldüyü, bu istiqamətdə gerçəkləşdirilən tədbirlərinin inflyasiyanın kəskin artmasının qarşısının alınmasına zəmin yaratdığı da bildirilib.

Onu da xatırladaq ki, Baş nazirin adıçəkilən sərəncamında respublikada inflyasiyaya təsir göstərən amillərin müəyyənləşdirilməsi, qiymət dinamikasının monitorinqi və təhlil sisteminin daha da gücləndirilməsi, bu istiqamətdə sıx koordinasiya çərçivəsinin formalaşdırılmasının iqtisadi artımı və sosial rifahı dəstəklədiyi, nəticədə isə inflyasiya səviyyəsinə nail olunması zəruri hal kimi qeyd edilib.

Yeri gəlmişkən, ölkə rəhbərinin vurğuladığı kimi, ilin sonuna qədər inflyasiyanın birrəqəmli səviyyəyə düşə biləcəyi gözlənilir. Əlbəttə, bu ümidi, ilk növbədə, qlobal məkanda yaranan vəziyyət şərtləndirir. Yəni dünyada belə bir tendensiyanın başlandığı hələ ötən ildən nəzərə çarpır. Azərbaycanda isə cari ilin may ayından etibarən inflyasiyanın tədricən zəifləməsi özünü göstərir. Həmin vaxtdan başlayaraq respublikada bir sıra strateji məhsulların, o cümlədən ərzaq mallarının ucuzlaşması bunun bariz ifadəsidir.



Bu günlərdə Hesablama Palatasının "Dövlət büdcəsinin icrası barədə yarımillik məlumata xülasəsi"ndə bildirilib ki, neftin faktiki qiymətinin təsdiq edilən göstəricidən çox olması neft sektoru üzrə ÜDM-in illik proqnozunun əhəmiyyətli hissəsinin ilk yarımildə reallaşması və bu sektordan dövlət büdcəsi gəlirlərinin yüksək icrası ilə nəticələnib.

Adıçəkilən xülasəyə əsasən, hesabat dövründə ÜDM 60 milyard 302,1 milyon manat olub, ÜDM-də qeyri-neft-qaz sahələrinin payı 60 faizə yüksəlib. Neftin faktiki qiymətinin büdcə üzrə təsdiq edilən qiymətdən çox olması ilin birinci yarısında neft-qaz ÜDM-i üzrə illik proqnozun 71,1 faizinin icrası ilə nəticələnib. Bu, dövlət büdcəsinin neft sektoru üzrə vergi gəlirlərinə təsir edib, bu gəlirlər 3 milyard 987,7 milyon manat olmaqla, dövrün proqnozunu 1 milyard 349,8 milyon manat üstələyib.

Ümumiyyətlə, ölkədə iqtisadi artım tamamilə qeyri-neft-qaz sahələri hesabına təmin edilib, daxili tələb amilləri məcmu tələbin aktivləşməsində əsas rol oynayıb. Hesabat dövründə iqtisadi artım 0,5 faiz (2022-ci ilin 6 ayında 6,2 faiz) olub və tamamilə qeyri neft-qaz sahələri hesabına gerçəkləşdirilib.

İqtisadi artımın zəifləməsi neft hasilatının azalması, bəzi qeyri-neft-qaz sahələrində yuxarı baza effekti nəticəsində artım tempinin zəifləməsi ilə izah olunur. Qeyri-neft-qaz sahələrinin 3,1 faiz artımında əsas rol turizm və tikinti sektorlarına məxsus olub, inşaatda 9,2 faiz artım əsas kapitala daha çox investisiya yönəldilməsi ilə şərtlənib. Bununla bərabər, 18 milyard dollar olan ixrac 2,8 faiz azalsa da, 8,2 milyard dollarlıq idxal həcmi 29 faiz artıb, məcmu tələbin artımı daxili amillərdən formalaşıb.

Cari ilin yanvar–iyun aylarında dövlət büdcəsinin parametrləri əlverişli makroiqtisadi mühitdə icra edilib, əsas makroiqtisadi göstəricilər üzrə izlənən dinamika büdcə parametrlərinin icrasına müsbət təsir göstərib.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi



**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**

Fikrimcə, Azərbaycanda inflyasiyanın azalması ilə bağlı şərait qlobal bazarlarda enerjidaşıyıcılarının qiymətlərinin ucuzlaşması ilə bağlıdır. Hazırda prosesin bu istiqamətdə davam etməsi böyük ümid doğurur. Digər tərəfdən isə ölkəmizdə makroiqtisadi sabitlik təmin edilir. Manatın məzənnəsinin sabitliyi qorunur və dövlət başçımızın sözləri ilə desək, bu, dünya praktikasında, xüsusilə indiki şəraitdə respublikamız üçün nadir hadisələrdən biridir. Bu, düşünülmüş strategiyanın təzahürüdür və bu siyasətin mərkəzində təbii ki, Azərbaycan vətəndaşı dayanır. Çünki makroiqtisadi sabitlik təbii ki, ölkə iqtisadiyyatına əsaslı təsir göstərir. Amma, ilk növbədə, bunun ən ciddi təsiri insanların yaşayış səviyyəsinədir. Bizdə isə həm minimum əməkhaqları, həm də minimum pensiyalar müntəzəm olaraq artırılır. Bununla paralel olaraq manat sabit saxlanılır.

Hazırda illik inflyasiyasının 12 faiz səviyyəsinə enməsi, tərəfdaş ölkələr üzrə orta çəkili inflyasiyanın nisbətən azalması, dünya əmtəə bazarlarında qiymətlərin aşağı düşməsi, beynəlxalq yükdaşıma xərclərinin pandemiyadan əvvəlki səviyyədə qeydə alınması, profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması və manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, eləcə də pul siyasəti qərarları ilə illik inflyasiya tempinin azalması müşahidə olunur.

Qlobal maliyyə sistemində sabitliyin pozulması, bir sıra inkişaf etmiş ölkələrdə resessiya təhlükəsinin mövcudluğu və geosiyasi gərginlik müxtəlif kanallarla ölkəmizin inflyasiya proseslərinə təsir potensialını saxlayır. İdxal qiymətləri indekslərinin artım templəri ikirəqəmli səviyyədə qalır. Baza ssenari üzrə fərziyyələrlə 2023-cü ildə illik inflyasiyanın 8,3 faiz olacağı proqnozu da dəyişməz qalır.

Respublikamızda inflyasiyanın azalması məsələsi Hesablama Palatasının "Dövlət büdcəsinin icrası barədə yarımillik məlumata xülasəsi"ndə də yer alıb. Qeyd edilib ki, hesabat dövründə iqtisadi artım 0,5 faiz (2022-ci ilin 6 ayında 6,2 faiz) olub və tamamilə qeyri-neft-qaz sahələri hesabına təmin edilib. İqtisadi artımın zəifləməsi neft hasilatının azalması, bəzi qeyri-neft-qaz sahələrində yuxarı baza effekti nəticəsində artım tempinin zəifləməsi ilə izah olunur. Qeyri-neft-qaz sahələrinin 3,1faiz artımında əsas rol turizm və tikinti sektorlarına məxsus olub, tikintidə 9,2 faiz artımı isə əsas kapitala daha çox investisiya yönəldilməsini şərtləndirib.

## "Şahdəniz"dən 200 milyard kubmetr qaz çıxarılıb

**"Şahdəniz" yatağından hasilatın başlanğıcından indiyədək, ümumilikdə, 200 milyard kubmetr qaz çıxarılıb. 200 milyardıncı kubmetr qaz bu il avqustun 26-da, yəni yataqdan ilk kommersiya qazının çıxarıldığını və Cənubi Qafqaz Boru Kəmərini istismara verilməsinin elan olunmasından 16 il yarım sonra əldə edilib.**



"BP-Azərbaycan"dan qəzetimizə bildirilib ki, 2006-cı il dekabrın 15-də baş vermiş ilk hasilat yatağın işlənməsinin 1-ci mərhələsinin başlanğıcı idi. O vaxtdan bu günədək Şahdəniz qazı uğurla və etibarlı şəkildə Azərbaycan, Gürcüstan və Türkiyə bazarlarına çatdırılır.

"Şahdəniz" yatağının işlənməsinin növbəti mühüm mərhələsi 2018-ci ildən, yəni "Şahdəniz 2" layihəsindən Türkiyəyə ilk kommersiya qaz həcmləri nəqlinin başlandığı və iyulun sonunda "Şahdəniz Bravo" platformasından ilk qaz hasilatının əldə olunduğu ildən istismardadır.

"Şahdəniz Mərhələ 2" layihəsinin işə salınması Azərbaycana öz enerji tarixində ilk dəfə olaraq Avropanın əsas qaz təchizatçılarından birinə çevrilmək imkanı yaratdı. 2020-ci ilin dekabrından başlayaraq "Şahdəniz" qazı Avropa bazarlarına nəql olunur və "köhnə qitə" üçün yeni enerji təchizatı mənbəyi kimi Avropanın enerji bazarını şaxələndirir və enerji təhlükəsizliyini artırır.

Ümumilikdə, "Şahdəniz Mərhələ 2" layihəsi çərçivəsində Cənub Qaz Dəhlizi vasitəsilə Türkiyə və Avropa bazarlarına ildə 16 milyard kubmetr qaz ixrac edilir.

2023-cü il "Şahdəniz" üçün daha bir əlamətdar ildir. Bu ilin dördüncü rübündə yatağın şərq-şimal cinahının istismara verilməsi planlaşdırılır ki, bununla da, yataqda əlavə "Şahdəniz 2" quyuları işə salınacaq.

Hazırda "Şahdəniz Alfa" (11 quyu) və "Şahdəniz Bravo" (14 quyu) platformalarından, ümumilikdə, gündə orta hesabla 72,6 milyon kubmetr qaz hasil edilir.

***"Xalq qəzeti"***

**Günün sualı**

# Sənədsiz evlərdən əmlak vergisi yığılmalıdırmı?

## Bakı və Abşeronda 500-600 min arası belə "qanunsuz tikinti" var



**Bakı şəhəri və Abşeron yarımadasında inşa olunmuş sənədsiz evlərlə bağlı müzakirələr davam etsə də, hələlik, bu sahədə ciddi bir yenilik, əməli iş yoxdur. Doğrudur, 2019-cu ildə bununla bağlı xüsusi konsepsiya qəbul olunsa da, bu, məsələnin köklü həlli üçün kifayət etməyib. Problemin çözülməməsindən isə həm vətəndaş əziyyət çəkir, həm də dövlət büdcəsi külli məbləğdə vəsaitdən məhrum olur.**

Təqribi hesablamalara görə, hazırda paytaxt və Abşeron ərazisində 500-600 min sənədsiz ev var. Uzun illər ərzində inşasına göz yumulan yüz minlərlə ev "qanunsuz tikili" adlandırılaraq dövlət qeydiyyatına alınmayıb, deməli, həm də əmlak vergisinə cəlb edilməyib. Bununla da, böyük həcmdə vəsaitin dövlət büdcəsinə daxil olması reallaşdırılmayıb.

Hazırda belə evlərlə bağlı əsas problemlərdən biri də mülkiyyəti təsdiqləyən heç bir sənədin olmamasına baxmayaraq, həmin mənzillərdə yaşayan sakinlərdən əmlak vergisinin yığılmasıdır. Bu sahədə qeyri-müəyyənlik isə 15 ildən artıqdır ki, davam edir. Belə ki, çox zaman bələdiyyə işçiləri (Hətta bu məsələdə müəyyən sui-istifadə halları da istisna olunmur) fərdi mənzillərin darvazalarını vaxtlı-vaxtsız döyür, bəzən də ev sahibinə zəng vuraraq əmlak vergisi tələb edirlər. Həmin şəxslər istədiklərini ala bilmədikdə isə çox zaman vətəndaşı cərimə ilə hədələyirlər.

Belə vəziyyətə Bakıətrafı kənd və qəsəbələrdə, eləcə də Abşeron rayonunun yaşayış massivlərində daha çox rast gəlinir. Bu da bir çox hallarda müəyyən haqlı narazılıqlara gətirib çıxarır. Belə ki, bir çoxları əmlak kimi qeydiyyata alınmayan mənzilinə görə vergi tələb olunmasını qanunsuz hesab etsə də, bəziləri isə "qoltuğu papkalı" şəxslərin tələbləri qarşısında geri çəkilərək ondan istənilən məbləği ödəməli olur.

Ümumiyyətlə, sənədsiz, "kupça"sı olmayan evlərdən əmlak vergisi yığılmalıdırmı? Yaxud belə evlər hansı halda əmlak vergisinə cəlb oluna bilər?

Hər şeydən öncə qeyd edək ki, ölkə Prezidenti İlham Əliyev hələ 2011-ci ildə Bakı Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə rəsmi icazə olmadan tikilən evlərlə bağlı narahatlığını ifadə etmişdi. Dövlət başçısı sənədsiz evlərin əmlak vergisinə cəlb olunmasında problem yaratdığını bildirərək həmin evlərin sənədləşdirilməsi ilə bağlı müvafiq strukturlara tapşırıq vermişdi.

Xatırladaq ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 198.1.1-ci maddəsinə görə, fiziki şəxslər onların xüsusi mülkiyyətində olan binaların sahəsinin (yaşayış sahələrinə münasibətdə–onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə müəyyən edilmiş dərəcələr tətbiq olunmaqla əmlak vergisi ödəyirlər.

Dövlət Vergi Xidmətindən bildirdilər ki, əgər Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş mülkiyyəti təsdiqləyən sənəd yoxdursa, o zaman həmin binaya əmlak vergisi hesablanmamalıdır. Əmlak vergisi yalnız mülkiyyəti təsdiqləyən sənədi olan əmlaklar üçün tətbiq edilir. Qanunvericilikdə "kupça"sı olmayan evlərə görə əmlak vergisi nəzərdə tutulmayıb. Həmin maddəyə görə, yalnız xüsusi mülkiyyətdə olan evlər üçün əmlak vergisi hesablanır.

Qeyd olunub ki, sənədi olmayan həyətyanı sahələr üçün bələdiyyələr tərəfindən torpaq vergisinin toplanılmasına gəldikdə isə, qanunvericiliyə görə, fiziki şəxslərin və müəssisələrin Azərbaycan ərazisində mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri vergitutma obyekti sayılır. Deməli, qanunvericiliyə əsasən, vətəndaş istifadə etdiyi istənilən torpaq sahəsinə görə vergi ödəməyə borcludur. Amma mülkiyyət kimi qeydiyyata alınmayan əmlakına görə heç bir halda ondan vergi tələb oluna bilməz. Vergi Məcəlləsinin müvafiq maddəsinə əsasən, yalnız vətəndaşın istifadəsində olan mənzil "kupça" ilə təmin olunduqdan, yəni mülkiyyət kimi qeydiyyata alındıqdan sonra hər kvadratmetrinə görə müəyyənləşdirilən dərəcələr tətbiq olunmaqla əmlak vergisinə cəlb edilməlidir.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi



**Elnur FƏRZƏLİYEV,**
**əmlak məsələləri üzrə ekspert**

Hazırda Azərbaycanda, xüsusən, paytaxt Bakı və Abşeron ərazisində mülkiyyət sənədi olmayan, yəni "çıxarış" alına bilinməyən yüz minlərlə fərdi həyət evi mövcuddur. Belə evlərin bir qismi sovetlər dövrünə aid olsa da, böyük əksəriyyəti isə ötən əsrin 90-cı illərindən sonra inşa olunub. Həmin evlərə də "kupça" alına bilinməməsinin əsas səbəbi ərazilərdəki torpaqların fərqli təyinatı ilə bağlıdır. Belə ki, sözügedən ərazilərin bir hissəsi kənd təsərrüfatı təyinatlı, digər hissəsi isə dövlət, eləcə də idarə və müəssisələrin balansında olan torpaqlardır. Həmin ərazilərdə tikilmiş evlərə mülkiyyət sənədlərinin verilməsi isə qanunla qadağandır.

Bu səbəbdən həmin obyektlərin hamısı, demək olar ki, qanunsuz tikililər sayılır. Belə ərazilərdə inşa olunmuş fərdi həyətyanı evlərə "çıxarış"ların verilməsi üçün, ilk növbədə, həmin torpaqların təyinatı dəyişdirilərək yaşayış məntəqələri torpaqlarına çevrilməlidir. Bundan əlavə, hər bir bina və ya fərdi yaşayış evi mövcud tikinti normativlərinə uyğun inşa olunmalıdır. Yəni, fərdi həyət evləri arasındakı məsafə normativlərə uyğun gəlməlidir.

Əmlak məsələsi Azərbaycan iqtisadiyyatının böyük hissəsini özündə cəmləyir. İlk növbədə, çoxmərtəbəli binaların və ya fərdi evlərin tikilməsi, yaşayış massivlərinin sayının artması vətəndaşların mənzil probleminin aradan qaldırılmasına kömək edir. Digər tərəfdən, tikintidə istifadə olunan inşaat materiallarının böyük bir hissəsi ölkəmizdə istehsal olunur. Mənzil tikintisi sürətləndikcə istehsal müəssisələrinin də fəaliyyəti güclənir və bu da yeni iş yerlərinin açılmasına səbəb olur. Eyni zamanda, mənzillərin təmiri zamanı vətəndaşlar tikinti materialları bazarına müraciət edirlər. Hər bir yeni mənzilin mebel, elektrotexnika avadanlığı və digər zəruri əşyalarla təchizatı da daxili bazar hesabına həyata keçirilir ki, bu da ölkə iqtisadiyyatına müsbət təsir göstərir.

Bununla belə, hazırda ölkəmizdə, xüsusən də paytaxt Bakı və Abşeronda yüz minlərlə "çıxarış"sız fərdi yaşayış evinin olması dövlət büdcəsini bu sahədə mümkün gəlirlərdən məhrum edir. Vergilər Məcəlləsinin 198-ci maddəsinə əsasən, mülkiyyət sənədi olan mənzillərə görə əmlak, 205-ci maddəsinə görə isə, torpaq vergisi ödənilməlidir. Əksər hallarda vətəndaşlar öz mənzillərinə "çıxarış" ala bilmədiklərinə görə bu vergiləri ödəmirlər. Burada, necə deyərlər, vətəndaşı günahlandırmaq olmaz. Çünki hansı bir əmlakın vergiyə cəlb olunması üçün mütləq şəkildə onun mülkiyyət hüququ tanınmalıdır. Lakin mənzərəyə başqa bir prizmadan baxdıqda isə vətəndaş yaşadığı evə qaz, su, işıq xətləri və telefon çəkdirib öz adına rısmiləşdiribsə və həmin mənzilə qeydiyyat ünvanı alıbsa, bu artıq onun həmin mənzildə yaşamaq hüququnu formalaşdırır. Yaşamaq hüququ isə mülkiyyət hüququnun böyük bir hissəsini özündə cəmləşdirdiyindən bəzi ərazilərdə vətəndaşlardan bu cür vergilər tələb olunur. Həmin vergilərin isə qanunvericiliyə uyğun toplanması, həm bələdiyyələrin büdcəsinin formalaşdırılmasına, həm də dövlətin xəzinəsinə əhəmiyyətli təsiri olar.

# Səyyar görüşlər ictimai məmnunluq yaradır

## *Mingəçevirdə belə dialoqlar nöqsanları aşkara çıxarmağa kömək edir*





**Təcrübə göstərir ki, yerlərdə səyyar görüşlər əhalini narahat edən problemlərin öyrənilməsi və birbaşa həlli baxımından əhəmiyyətlidir. Mingəçevir şəhər rəhbərliyi bu iş üsulunun tətbiqi ilə sosial-iqtisadi məsələlərin operativ həll olunmasına üstünlük verir.**

Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılovun növbəti səyyar görüşü H.Əliyev prospektindəki 72 nömrəli yaşayış binasının qarşısında oldu. Görüşdə icra aparatının məsul şəxsləri, idarə, müəssisə və təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak edirdilər. H.Əliyev prospektindəki yaşayış binalarının sakinləri ilə yanaşı şəhərin digər ərazilərində yaşayan vətəndaşlar da görüşə qatılmışdılar.

Tədbirdə xüsusi vurğulandı ki, Prezident İlham Əliyev vaxtaşırı bölgələrə gedərək, regional inkişaf üzrə proqramların, göstəriş və tapşırıqlarının icrasına şəxsən nəzarət edir, birbaşa görüşlər zamanı əhalinin fikirlərini öyrənir, bu və ya digər məsələ barədə məhz ilkin mənbədən məlumat alır. Qeyd olundu ki, Mingəçevir Şəhər İcra Hakimiyyətinin tədbirlər planına əsasən, tez-tez yerlərdə bu cür görüşlər keçirilir. Qaldırılan məsələlər icra nəzarətinə götürülür və həllinə nail olunur. Məsələn, həmin görüşlərin nəticəsi olaraq hazırda şəhərdəki Dostluq Parkında yeni əyləncə mərkəzi yaradılır, həmçinin Sahil Parkı genişləndirilir, Bayraq Meydanında, giriş qapısının ətrafında quruculuq işləri aparılır. Bu il Kürün sağ və sol sahillərində, Energetiklər yaşayış massivində 55 yaşayış binası əsaslı təmir olunacaq, 5 nümunəvi məhəllə yaradılacaq, işıqlanma sistemi təzələnəcək. Şəhər rəhbəri bildirdi ki, əsas məqsəd vətəndaşların istək və arzularına uyğun olaraq problemləri həll etməkdir.

Görüşdə çıxış edən sakinlərdən Yeganə Mirzəyeva, Elçin Əhmədov, Gülnar Məmmədova, Əliyar Bəndəliyev, Təranə Əsədova, Zahid Mirzəyev, Şərafət İmamverdiyeva və başqaları görülən işlərə görə ölkə və şəhər rəhbərliyinə minnətdarlıqlarını bildirdilər. Problemlər dilə gətirildi. İşlə təmin edilmə, kanalizasiya xətlərinin və istilik sisteminin çəkilməsi, səhiyyə xidmətində qayda yaradılması, keçmiş toxuculuq kombinatına məxsus fəaliyyəti olmayan 2 nömrəli uşaq bağçasının ərazisində yaranmış antisanitar vəziyyətin aradan qaldırılması, qurumuş ağacların budanmaması, uşaqlar üçün əyləncə qurğularının sayının artırılması və digər məsələlərlə bağlı müraciətlər edildi.

ŞİH başçısı İlham İsmayılov səslənən məsələlərin həlli üçün aidiyyəti idarə və müəssisə rəhbərlərinə tapşırıqlar verdi. Qeyd etdi ki, bu ilin tədbirlər planına əsasən bu ərazidə, 126-cı məhəllədə quruculuq işləri aparılacaq, bura nümunəvi məhəlləyə çevriləcək. Binaların hamısı əsaslı təmir olunacaq, ümumi istifadə sahələrində səliqə-sahman yaradılacaq.

Səyyar görüşdə iştirak edən hər kəs səmimi və işgüzar münasibətdən razı qaldı.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Vaxtında sığortalan – qorxma leysan, doludan

**Goranboyda ilk dəfə olaraq əkinlərin və əmlakların dayanıqlı sığortası ilə bağlı regional konfrans keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, daha sonra Heydər Əliyev Mərkəzində Ulu öndərin həyat və fəaliyyətini özündə əks etdirən fotostendə baxıblar.**



Rayon olimpiya-idman kompleksinin akt zalında keçirilən tədbirdə Gəncə-Daşkəsən iqtisadi rayonunda fəaliyyət göstərən icra kakimiyyəti, bələdiyyə nümayəndələri, fermerlər, sığorta şirkətləri və fermerlərlə birbaşa əməkdaşlıq edən qurumların təmsilçiləri, Dövlət Aqrar İnkişaf mərkəzlərinin əməkdaşları iştirak ediblər.

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev kənd təsərrüfatı işlərinin gedişi barədə məlumat verərək bildirib ki, rayonda aqrar sahənin inkişaf etdirilməsi üçün potensial imkanlar var. Kənd təsərrüfatı məhsullarının risklərə qarşı müdafiəsi istehsalın davamlılığını təmin edən vacib amil kimi qiymətləndirən rayon icra hakimiyyətinin başçısı deyib ki, aprel və iyun aylarında ölkə ərazisində, o cümlədən Goranboyda yağan intensiv yağışlar, dolu, sel-subasma nəticəsində kənd təsərrüfatına ciddi zərər dəymiş, məhsulunu sığortalamayan fermerlər itkilərlə üzləşmişlər.

Tədbirdə çıxış edən Aqrar Sığorta Fondu İdarə Heyətinin sədri Fuad Sadıqov qeyd edib ki, kənd təsərrüfatı sahəsində çalışan bütün fermerlər bu sistemin xidmətlərindən istifadə edə bilərlər. Onun sözlərinə görə, dövlət dəstəkli aqrar sığorta ölkə Prezidentinin fermerlərə xüsusi qayğısının bariz nümunəsidir. "Dövlət fermerləri subsidiyalarla daim dəstəkləyir. Aqrar sığorta da bu dəstəyin davamıdır. Açıq səma altında bir istehsalı təbiət hadisələrindən qorumaq mümkün deyil, ciddi bir hadisə zamanı fermerlər nəinki gözlədikləri gəlirləri, yatırımlarını da itirirlər. Bu hallarda onlara dəstək olmaq, fermerlərin investisiya və qazanclarının etibarlı qorunması məqsədilə dövlət tərəfindən yaradılmış aqrar sığorta fermerlərimizin xidmətindədir", – deyə o əlavə edib.

"PAŞA Sığorta"nın satış kanalları və nümayəndəliklərin idarə olunması şöbəsinin rəisi Aqil Yaqubov daşınmaz əmlakın icbari sığortlanamasının əhəmiyyətlərindən danışaraq deyib ki, daşınmaz əmlakın icbari sığortasının əsas məqsədi əmlaka dəymiş zərərə görə sığorta təzminatının vaxtında ödənilməsi ilə əhalinin maraqlarını qorumaq və beləliklə də, onların sosial müdafiəsini təmin etməkdir.

Daha sonra əkin sahələrinin və əmlakların sığortalanması mövzusunda müzakirələr aparılıb.

Bütövlükdə isə, yerlərdə fermerlərin aqrar sığorta haqqında maarifləndirilməsi, sığorta ilə bağlı müraciətlərin vaxtında edilməsi istiqamətində birgə fəaliyyətin təşkili konfransın əsas müzakirə mövzusu olub.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

**Təbii fəlakət**

**Xəbər verildiyi kimi, avqustun 26-da yağan leysan yağışlar nəticəsində Göyçay rayonunun Qarayazı, Qaraməryəm, Yekəxana, Aşağı Qaraməryəm və Qarabaqqal kəndlərinin ərazisini sel basıb və yol, elektrik, təbii qaz, rabitə, içməli su xətlərinə, şəxsi təsərrüfatlara, avtomobillərə, ərazidəki obyektlərə ciddi ziyan dəyib. Selin nəticələri əsasən aradan qaldırılıb və hazırda dəyən ziyanın həcmi dəqiqləşdirilir.**

# Göyçayda və İsmayıllıda həyat axarına düşüb



Rayon Fövqəladə Hallar Komissiyasından aldığımız məlumata görə, respublika əhəmiyyətli Bakı–Şamaxı–Yevlax magistralının 194–205-ci kilometrliyində, rayonun Qaraməryəm kəndinin ərazisindən keçən hissəsində subasma nəticəsində yolun bir hissəsi yararsız vəziyyətə düşmüş və nəqliyyatın hərəkəti müvəqqəti olaraq məhdudlaşdırılmışdı. Həmçinin Aşağı Qaraməryəm kəndi ərazisində 3 avtomobil və 2 piyada körpüsü uçmuşdu.

Elə ertəsi gün sözügedən yolda hərəkət qismən, dünən isə tam bərpa edilib. Eyni zamanda, rayonun Qarabaqqal kəndi ərazisində yerləşən məişət tullantıları poliqonunu su basması nəticəsində oradakı tullantılar əraziyə yayılıb.

Həmçinin Aşağı Qaraməryəm kəndində uçmuş körpülərin bərpa edilməsi ilə bağlı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən layihələndirmə işləri aparılır. Rayonun 5 kəndinə (Qarayazı, Qaraməryəm, Yekəxana, Aşağı Qaraməryəm və Qarabaqqal) elektrik enerjisinin verilişi tam bərpa edilib, təbii qazla təminat və içməli suyun verilməsi ilə bağlı təmir-bərpa işləri davam etdirilir.

Öyrəndiyimizə görə, rayonun 5 yaşayış məntəqəsində 65 fərdi evə, 1 fərdi evin çöl barı hissəsinə, 1 sahibkarlıq obyektinə, 1 tövləyə, 8 avtomobilə, 6 fiziki şəxsə məxsus kənd təsərrüfatı təyinatlı torpaq sahəsinə, 1 nəfər vətəndaşa məxsus 1 ton buğda, 5,5 ton həcmində arpa və 10 ədəd arı yeşiyinə sel suları ziyan vurub, 500 ədəd ev quşu tələf olub.

Aşagı Qaraməryəm kəndində 8 ədəd 0,4 kV-luq dayaq, 1600 metr elektrik naqili, Qaraməryəm kəndində isə 150 metr elektrik naqili yararsız hala düşmüş, elektrik enerjisi kəsilmişdi ki, operativ tədbirlər sayəsində ziyan aradan qaldırılıb.

Qeyd edək ki, Aşağı Qaraməryəmdəki yerüstü qaz xətlərinin 50 paqonometr, Qarayazı kəndindəki daşıyıcı qaz xəttinin isə 80 paqonometr hissəsi istismara yararsız hala düşüb. Təbii fəlakətin yaratdığı qəza nəticəsində müvəqqəti olaraq rayonun İnçə (1100 abonent), Aşağı Qaraməryəm (221 abonent), Dövranlı (76 abonent), Alxasava (192 abonent), Alpout (507 abonent), Qarayazı (416 abonent) kəndlərində "mavi yanacaq"la təminat dayanmışdır.



Rabitə xidmətinə gəlincə isə, Qaraməryəm kəndində 4 dirək və 300 metr kabel, Aşağı Qaraməryəm kəndində 15 dirək, 750 metr kabel yararsız vəziyyətə düşüb, Alpout, İnçə, Alxasava kəndlərinin rabitə və internet xidmətlərində fasilə yaranıb. İçməli su xətlərinə də müəyyən qədər ziyan dəyib.

Qarayazı beton kanalının 5 kilometrlik hissəsi, Aşağı Qaraməryəm kəndində isə 4 kilometr təsərrüfatdaxili suvarma şəbəkəsi lillə dolub, həmçinin Aşağı Qaraməryəmdə yerləşən suvarma arxının su götürən hissəsi sel suları nəticəsində yuyulub. Ziyanın nəticələrinin bütünlükdə aradan qaldırılması üzrə tədbirlər davam edir.

Leysan yağışlar və sel İsmayıllı rayonunda da müəyyən fəsadlar törədib. Rayon Fövqəladə Hallar Komissiyasının verdiyi məlumata görə, Mollaisaqlı kəndinə yağan güclü yağış nəticəsində qaz xəttinə ziyan dəyib və bununla əlaqədar olaraq kəndə qazın verilişi müvəqqəti olaraq dayandırılıb. Həmçinin leysan yağışı nəticəsində 5 tövlə, 1 taxıl anbarı və 2 avtomobil yararsız hala düşüb, 3 evin həyətini və həmin evlərin bir hissəsini su basıb. Bundan başqa, şəxsi təsərrüfatlar da ziyan çəkib. Belə ki, 10 xırda, 5 iri heyvan tələf olub. Görülən tədbirlər nəticəsində həyətləri basmış su nasoslarla kənara vurulub və hazırda kəndin təbii qaz təchizatının bərpası üzrə tədbirlər görülür.

**İ.MUSAOĞLU,**
**"Xalq qəzeti"**

# Füzulinin suyu da bol olacaq

## *Şəhərə magistral kəmər çəkilib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən, Füzuli şəhərində içməli və tullantı su sistemlərinin yaradılması məqsədilə təxirəsalınmaz tədbirlər görülüb. Şəhərin içməli və tullantı su sistemləri yaradılanadək burada məskunlaşan əhalinin, eləcə də dövlət və özəl sektora aid binaların və obyektlərin içməli su ilə təmin edilməsi məqsədilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən layihə həyata keçirilib.**

Ölkəmizin işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahından verilən məlumata görə, Füzuli şəhərini içməli su ilə təmin etmək üçün Təxirəsalınmaz Tədbirlər Planı hazırlanıb. Plana əsasən, Füzuli şəhərində yeni içməli su təchizatı sistemləri yaradılanadək mövcud imkanlardan istifadə olunması qərara alınıb. Bu məqsədlə 1980-ci illərdə Quruçayın məcrasında tikilmiş və işğal dövründə yararsız hala salınmış drenaj sistemləri bərpa edilərək istismara qaytarılıb. Eyni zamanda, su mənbəyində ümumi tutumu 100 kubmetr olan 2 sutoplayıcı rezervuar və nasos stansiyası inşa edilib.

Su mənbəyindən Füzuli şəhərinə qədər 630 mm diametrli magistral su kəməri inşa edilib. Magistral kəmər hazırda inşa edilən Füzuli yaşayış kompleksinin paylayıcı şəbəkəsinə qoşulub və binalara suyun verilişi təmin edilib. Kompleksdə formalaşan tullantı sularının təmizlənib kənarlaşdırılması məqsədilə təxirəsalınmaz tədbir kimi 4 ədəd modul tipli təmizləyici qurğu quraşdırılıb. Bu qurğularda sutka ərzində 600 kubmetr tullantı suları təmizlənərək kənarlaşdırılacaq.

Təxirəsalınmaz tədbirlərlə yanaşı, Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemlərinin yaradılması layihəsinin icrası davam etdirilir. Prezident İlham Əliyev tərəfindən bu il mayın 5-də təməli qoyulmuş infrastruktur 2040-cı ilədək perspektiv inkişafı nəzərə alınmaqla Füzuli şəhərində 50 min nəfərin tələbatının ödənilməsinə hesablanıb. Layihəyə əsasən, Füzuli şəhərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə 15 yeni subartezian quyusu qazılacaq, şəhər ərazisində ümumi tutumu 22 min kubmetr olan 4 su anbarı inşa ediləcək. Su mənbəyindən Füzuli şəhərinə 10,7 kilometr uzunluğunda magistral su kəmərinin inşasına başlanılıb və kəmərin tikintisi işləri intensiv qaydada davam etdirilir.

Layihəyə əsasən, Füzuli şəhərində 103 kilometr içməli, 87 kilometr tullantı və 100 kilometr yağış su şəbəkələri inşa olunacaq. Füzuli şəhərində formalaşacaq tullantı sularının ekoloji baxımdan təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 15 min kubmetr olan tullantı sutəmizləyici qurğusu tikiləcək.

Eyni zamanda, yaradılacaq infrastrukturun imkanları hesabına gələcəkdə Füzuli rayonunun Dövlətyarlı və Dədəli kəndlərinə də içməli suyun verilməsi nəzərdə tutulur.

***M. YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

# Naxçıvanın büdcə gəlirləri artır



**Bu ilin yanvar-iyul aylarında Naxçıvan Muxtar Respublikasının büdcə gəlirləri 2022-ci ilin eyni dövrü ilə müqayisədə 9,1 milyon manat və ya 10 faiz artaraq 99,2 milyon manat təşkil edib. Bu barədə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində bu ilin 7 ayında görülmüş işlər və qarşıda duran vəzifələrə dair kollegiya iclasında qeyd olunub.**

Maliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən İsmayılov bildirib ki, büdcənin xərclərində qənaət təmin olunu, ötən ilin eyni dövrü ilə müqayisədə xərclər 47,4 milyon manat (14,1 faiz) azalaraq bu ilin 7 ayında 287,8 milyon manat təşkil edib.

Qeyd olunub ki, gəlirlərin artması və xərclərin azalması hesabına Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiyanın miqdarında da nəzərəçarpan azalma təmin edilib. Ötən ilin 7 ayına nisbətən 29 milyon manat az yəni 224 milyon manat məbləğində dotasiya alınıb.

Sonra nazirliyin müvafiq şöbələri tərəfindən 2023-cü ilin 7 ayı ərzində görülmüş işlər barədə məlumat verilib, 2024-cü il və sonrakı üç il üçün büdcə layihələrinin tərtibi, büdcənin icrası və dürüstləşmə barədə çıxışlar dinlənilib.

***"Xalq qəzeti"***

Vaqif Mustafayev – 70

# Milli kinomuzun tragikomediya rejissoru

## *O, milli kinematoqrafiyaya yeni, bənzərsiz çalar gətirən sənətkardır*

**Dünən axşam Nizami Kino Mərkəzində anşlaq idi. Tədbirə rəsmilər, ölkənin tanınmış söz, sənət ustaları, mütəxəssislər, media mənsubları, eləcə də kinomanlar toplaşmışdı. Onlar tanınmış kinorejissor, ssenarist, Azərbaycan Respublikasının Xalq artisti Vaqif Mustafayevin 70 yaşının tamam olması münasibətilə keçirilən təntənəli mərasimin iştirakçıları idilər.**





Tədbirdə giriş sözü ilə çıxış edən mədəniyyət nazirinin müavini Səadət Yusifova istedadlı sənətkarın keçdiyi uzun və zəngin yaradıcılıq yolundan, Azərbaycanın milli kino tarixində yeni səhifə açmasından danışdı, onun quruluş verdiyi “Bəyin oğurlanması”, “Yaramaz”, “Hər şey yaxşılığa doğru”, habelə ssenari müəllifi olduğu “Fəryad” kimi kino dünyasının nüfuzlu mükafatlarını qazanmış əsərlərinin milli-mənəvi dəyərlərin təbliğindəki rolundan söz açdı. Vaqif Mustafayevin yaradıcılığında Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinə və şəxsi həyatına həsr olunmuş silsilə sənədli filmlərin xüsusi yer tutduğunu qeyd edən S.Yusifova istedadlı sənətkarın xidmətlərinin dövlət tərəfindən yüksək qiymətləndirildiyini, görkəmli kinorejissorun Azərbaycan Dövlət Mükafatına, Prezidentin fərdi təqaüdünə, Əməkdar incəsənət xadimi fəxri adına, “Şöhrət” və “Şərəf” ordenlərinə layiq görüldüyünü bildirdi. Sonra nazir müavini Prezident İlham Əliyevin imzaladığı sərəncamla Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Vaqif Behbud oğlu Mustafayevin 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edildiyini söylədi. Bu münasibətlə sənətkarı səhnəyə dəvət edən S.Yusifova ona Mədəniyyət Nazirliyinin Fəxri Fərmanını təqdim etdi.

Azərbaycan Respublikasının Xalq artisti Şəfiqə Məmmədova çıxışında Vaqif Mustafayevi milli kinomuzun böyük simalarından biri kimi səciyyələndirdi və cəsarətli insan kimi bu cəhətinin sənətdə də ona böyük uğurlar gətirdiyini söylədi.

Ardınca yubilyarı təbrik üçün səhnəyə qalxan Avrasiya Televiziya və Radio Akademiyasının prezidenti Valeriy Ruzin V.Mustafayevin yaradıcılığında milli kaloritdən bəşəri dəyərlərə asanlıqla keçid etdiyini və kinonun dili ilə onu dünyaya çatdırdığını açıqladı. O, yubileyi münasibətilə rejissora kino sahəsinə verdiyi böyük töhfəyə görə Vladimir Menşov adına Beynəlxalq Kinofestivalın mükafatını və diplomunu təqdim elədi.

Daha sonra görkəmli rejissor haqqında söz demək üçün səhnəyə yubilyar sənətkarın beş filmində rol almış məşhur gürcü aktyoru, bu münasibətlə Bakıya dəvər olunmuş Avtandil Maxaradze çıxdı. Vaqif Mustafayev haqqında çıxışı sənətkarlığı qədər maraqlı və kaloritli olan A.Maxaradze onu sərhədsiz istedadlı, kompromisssiz, inadkar, peşəsinə dəlicəsinə bağlı dahi sənətkar adlandırdı.

Sonda səhnəyə çıxan yubilyar zala toplaşanlara xitabən “əsl həqiqəti biləndən sonra yalan danışa bilmədiyini” söylədi, onu sevənlərə, sənətinə qiymət verənlərə, eləcə də ekran əsərlərini qiymətləndirənlərə ürəkdən təşəkkürünü bildirdi.

Yubiley mərasimi “Həyat, deyəsən, gözəldir” bədii filminin nümayiş ilə davam etdirildi. Müəllifin Birinci Qarabağ müharibəsindən sonra lentə aldığı yeni ekran əsəri Şər qüvvələrin erməni millətini apardığı yoldan, daha doğrusu, yolsuzluqdan bəhs edir. Tragikomediya janrında, sürrealist üslubda lentə alınmış filmin tamaşaçının vətənpərvərlik duyğusunu coşduran, milli kimliyini xatırladan və qürurlandıran epizodları zalın alqışları ilə müşayiət olunurdu. Hərdən zaldan “Bravo!” sədaları yüksəlirdi. Kifayət dərəcədə ideoloji yükə malik olmasına baxmayaraq, müəllif müharibənin acı gerçəkliyinə söykənən, seyrçi ilə qəhrəmanlarının bədən dilində danışan, süjet boyu ironiya və gülüşün tandemini sərgiləyən ekran əsərinin finalında “ağıllanan, həqiqəti anlayan” erməni qəhrəmanını Tanrının işığına, Günəşə doğru aparır.

Sonda “Həyat, deyəsən, gözəldir” bədii filmi üzərində birgə çalışdığı yaradıcı və texniki heyətini səhnəyə dəvət edən V.Mustafayev onların haqqında minnətdarlıq dolu ürək sözlərini söylədi və zəhməti keçmiş hər kəsə təşəkkürünü bildirdi. Oxucuların diqqətinə onu da çatdıraq ki, “Həyat, deyəsən, gözəldir” filminin müəllifi 2022-ci ilin noyabrında Türkiyənin Bursa şəhərində keçirilən II Dədə Qorqud Türk dünyası film festivalında “Türk dünyasının ən yaxşı rejissoru” mükafatına layiq görülüb. Ümumilikdə 13 ölkədən gətirilən 42 filmə baxış keçirən münsiflər yekdilliklə “Həyat, deyəsən, gözəldir”i seçib.

Dünyaca məşhur rejissor Eldar Ryazanovun rejissorluq kursunu bitirmiş Vaqif Mustafayev, mübaliğəsiz deyə bilərik ki, 125 yaşlı milli kinomuza tragikomediyanın yeni, bənzərsiz çalarlarını gətirib. İstedadlı sənətkarın 70 yaşını qəzetimiz adından təbrik edir, sinema maestrosuna yeni-yeni yaradıcılıq uğurları diləyirik.

**İ.HƏSƏNQALA, “Xalq qəzeti”**

# Yüksək nəticə qazanan millimiz Vətəndə

**Olimpiya çəki dərəcələri üzrə və gənclər arasında Avropa çempionatlarında iştirak edən millimiz Vətənə qayıdıb. Heydər Əliyev adına Beynəlxalq Hava Limanında idmançıları federasiya rəsmiləri, məşqçi-müəllimlər və idmançılar, ailə üzvləri qarşılayıblar.**



Yarışlarda uğurla çıxış edərək mükafat qazanmış idmançılar və onların məşqçiləri çempionatla bağlı təəssüratlarını media nümayəndələri ilə bölüşüblər.

Taekvondo üzrə gənclərdən ibarət milli komandanın baş məşqçisi Məmməd Abdullayev yığmamızın Avropa çempionatında uğurla çıxış etdiyini və ilk dəfə Olimpiya çəki dərəsində qızıl medal qazanıldığını bildirib: “İdmançılarımız yaxşı formadadırlar. Qitə çempionatına yüksək nəticələr üçün yollanmışdıq. Yarışda böyüklərdən 7 nəfər, gənclərdən isə 13 idmançımız iştirak edib. Hər iki yığma yaxşı nəticə göstərib. Nailiyyətlərin davamlı olması üçün səylərimizi bundan sonra da davam etdirəcəyik”.

Avropa çempionatının qalibi Qaşım Maqomedov jurnalistlərə müsahibəsində yarışa yaxşı hazırlaşdıqlarını qeyd edib. Bildirib ki, potensialından maksimum istifadə etdiyi üçün məmnundur: “Bu, hamımızın uğurudur. Çox sevinirəm ki, bu şərəfli işin öhdəsindən gəldim”.

Gümüş mükafatçı Cavad Ağayev həlledici mərhələdə qızıl medalın bir addımlığında büdrədiyini deyib: “Bəzi kiçik səhvlərə görə qızıl medal qazana bilmədim. İnşallah gələn dəfə baş mükafatı əldə etməyə çalışacağam”.

Gənclər arasında ikinci yeri tutan Səlimə Quliyeva da bəzi xırda səhvlərə görə qızıl medaldan məhrum olduğunu bildirib: “Qızıl medal qazanmaq üçün bütün şanslarım var idi. Amma bəzi məqamlarda kiçik səhvlərə yol verdim. Bütün görüşlərimi qalibiyyətlə başa vursam da, final görüşündə türkiyəli idmançıya məğlub oldum. Buna görə bir az təəssüfləndim. Lakin Vətənə medalla qayıtdığım üçün çox sevinirəm”.

Qeyd edək ki, Estoniyanın paytaxtı Tallində Olimpiya çəki dərəcələri üzrə Avropa çempionatında uğurla çıxış edərək 1 qızıl və 2 gümüş medal qazanan komandamız medal əyarına görə ikinci yeri tutub. Millimiz ümumi komanda hesabında da Avropanın ən güclüləri sırasına düşərək 3-cü nəticə göstərib.

Xatırladaq ki, Olimpiya çəki dərəcələri üzrə Qaşım Maqomedov (58 kq) qızıl, Cavad Ağayev (68 kq) və Həmidreza Badrialiabadi (+80 kq) gümüş medal qazanıblar.

Gənclər arasında Avropa çempionatında isə Azərbaycan yığması 2 medal qazanıb. Taekvondoçularımızdan Səlimə Quliyeva (42 kq) gümüş, Məhəmməd Həsənli (45 kq) bürünc mükafata sahib olublar.

***L.QURBANOVA, “Xalq qəzeti”***


# “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” MMC

## kommunal təyinatlı maşın və mexanizmlərin satın alınması ilə əlaqədar

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər.

İştirak haqqı 2000 (iki min) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

H\h- AZ22İBAZ38030019446253269215
VÖEN- 1702563281
Bank- “Azərbaycan Beynəlxalq Bankı” ASC
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWIFT- İBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması (malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışının, nizamnaməsinin (hüquqi şəxslər), imza səlahiyyətinin olması (direktor təyin edilməsi barədə əmr, əgər təsisçi direktor deyilsə), vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti və rekvizitləri).

2. Tender təklifi, zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır.

3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd (arayışın tarixi elan verildiyi gündən sonra).

5. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd (malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. Arayışın tarixi elan verildiyi gündən sonraya olmalıdır).

6. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya ASAN Xidmət Mərkəzlərindən məhkumluqla bağlı arayış. Arayışın tarixi elan verilən tarixdən sonraya olmalıdır).

7. Malgöndərənin (podratçının) mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında məlumat.

8. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti. (təsdiq olunma tarixi elan verilən tarixdən sonraya olmalıdır).

9. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (arayışın tarixi elan verilən tarixdən sonraya olmalıdır).

Malların göndərilməsinin və işlərin başa çatdırılmasının tələb olunan müddəti: müqavilə bağlandıqdan sonra 10 təqvim günü ərzində kommunal təyinatlı maşın və mexanizmlərin istehsalına başlanması barədə sənəd təqdim edilməsi və maksimum 1 (bir) il ərzində müqavilə üzrə müəyyən olunmuş anbarda maşın və mexanizmlərin sifarişçiyə təqdim olunmasının başa çatdırılması.

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 40.9-2-ci maddəsi nəzərə alınmaqla, satınalma müqaviləsinin yerinə yetirilməsinin təminatının məbləği müqavilənin ümumi məbləğinin 3 (üç) faizi həcmində müəyyən olunur. Satınalma müqaviləsinin yerinə yetirilməsinin təminatının qüvvədə olma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda texniki təminat müddəti də daxil olmaqla) 30 bank günü çox olmalıdır.

İştirakçıların təklifləri, eləcə də bütün yazışmalar və sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki sənədlər və tender təklifləri Azərbaycan dilinə tərcümə olunaraq təqdim edilməlidir).

Tender təklifi keyfiyyət (texniki tapşırıq) və maliyyə (qiymət) təkliflərindən ibarətdir. Keyfiyyət və maliyyə (qiymət) təklifləri ayrı-ayrı zərflərdə və eyni tarixdə təqdim olunmalıdır. Keyfiyyət təklifi üzərində satınalan təşkilatın və iddiaçının adı, ünvanı, qeyd olunmuş bir ədəd “əsli” və bir ədəd “surəti” ayrı-ayrı bağlı, imzalanıb möhürlənmiş qaydada ikiqat zərflərdə təqdim olunmalıdır. Elanda göstərilən vaxtdan gec təqdim edilən sənədlər və təkliflər qəbul olunmayacaq və açılmadan geri qaytarılacaqdır.

Tenderlə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək lazımdır.

Əlaqələndirici şəxs – Əhməd Məmmədov .

Ünvan – Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsi 17.

Telefonlar – (012) 496-52-05.

Açıq tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. Malgöndərənlər (podratçılar) açıq tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri 2 oktyabr 2023-cü il saat 11.00 -a , tender təkliflərini və tender təkliflərinin təminatlarını möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana 10 oktyabr 2023-cü il saat 17.00-a qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri 11 oktyabr 2023-cü il saat 11.00 -da Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılışı prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***


## “Simurg Company” ATSC-nin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

*min manatla*

| AKTİVLƏR | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| *Uzunmüddətli aktivlər* | 702152,57 | 935507,42 |
| Torpaq, tikili və avadanlıqlar | 702152,57 | 935507,42 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **702152,57** | **935507,42** |
| *Qısamüddətli aktivlər* | 8873,54 | 8873,54 |
| Ehtiyatlar | 8873,54 | 8873,54 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **8873,54** | **8873,54** |
| **CƏMİ AKTİVLƏR** | **711026,11** | **944380,96** |
| KAPİTAL | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 107138,40 | 107138,40 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | -233483,00 | |
| **CƏMİ KAPİTAL** | **-126344,60** | **107138,40** |
| **ÖHDƏLİKLƏR** | | |
| Qısamüddətli öhdəliklər | 837370,71 | 837242,56 |
| Qısamüddətli kreditor borcları | 7922,84 | 8873,54 |
| Sair qısamüddətli öhdəliklər | 829447,87 | 828369,02 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **837370,71** | **837242,56** |
| CƏMİ ÖHDƏLİKLƏR | 837370,71 | 837242,56 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **711026,11** | **944380,96** |

**Məcmu gəlirlər haqqında hesabat**

| | 31 dekabr 2022-ci il |
|---|---|
| Əsas əməliyyat gəliri | 1310600 |
| Satışın maya dəyəri | 1543617 |
| **Ümumi mənfəət** | **-233017** |
| Sair əməliyyat gəlirləri | 2760 |
| Sair əməliyyat üzrə xərclər | 3226 |
| **Sair əməliyyat (mənfəəti)** | **-466** |
| **Vergitutmadan əvvəl sair əməliyyatdan mənfəət (zərər)** | **-233483** |

**Kapitalda dəyişikliklər hesabatı**

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| 2022-ci il yanvarın 1-nə qalıq | 107138,4 | 0 | 107138,4 |
| 2022-ci il üzrə xalis mənfəət (zərər) | | -233483 | -233483 |
| 2022-ci il dekabrın 31-nə qalıq | 107138,4 | -233483 | -126344,6 |

“Simurg Company” ATSC-nin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti, məcmu gəlirlər haqqında hesabat və kapitalda dəyişikliklər haqqında maliyyə hesabatlarının auditinə Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Əhmədov Hafiz Məhəmməd oğlu tərəfindən 2023-cü il iyunun 2-də rəy verilmişdir.


## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

balansındakı gəmilər üçün alüminium keçid trapların satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 4 sentyabr 2023-cü il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1047.

Ünvan- Bakı, M.Useynov küçəsi 2.


## BİLDİRİŞ

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 68.2-ci maddəsinə əsasən “Asia One Business Corporation PTE ltd.” “OCEAANIXX” MMC-nin nizamnamə kapitalında 87,5% (səksən yeddi tam onda beş faiz) iştirakını əldə etdiyi barədə məlumatı dərc edir.

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 184 (30300) 29 avqust 2023-cü il, çərşənbə axşamı

veb-sayt: www.xalqqazeti.az

**İdman xəbərləri**

## Badmintonçumuz qızıl medal qazanıb



**Badmintonçumuz Keişa Fatimə Zəhra Kamerunun paytaxtı Yaunde şəhərində keçirilən "Cameroon International 2023" turnirində qızıl medal qazanıb.**

Mübarizəyə 1/8 final mərhələsindən başlayan Keişa finala gedən yolda Sloveniya, BƏƏ və İtaliyanı təmsil edən badmintonçulara qalib gəlib.

Keişa Fatima Zəhra finalda İsrail badmintonçusu Kseniya Polikarpova ilə qarşılaşıb. Hər iki setdə rəqibindən üstün oyun sərgiləyən badmintonçumuz yekunda 2:0 hesablı qələbə qazanaraq "International" seriyalı turnirin qalibi olmaqla yanaşı, hesabına 2500 reytinq xalı yazdırıb.

## Dünya çempionatının komanda yarışında ikinci

**Xorvatiyada keçirilən dünya çempionatında yeniyetmə cüdoçulardan ibarət yığmamız komandalararası yarışda ikinci yeri tutub.**




Komandamız qızıl medal uğrunda mübarizədə Fransa yığmasına 1:4 hesabı ilə məğlub olub. Türkiyə və Yaponiya bürünc medala sahib olublar.

Qeyd edək ki, komandamız fərdi yarışlarda mübarizəni medal sıralamasında birinci pillədə başa vurub. Nihad Məmişov (50 kq), Xədicə Qədəşova (52 kq) qızıl, Məhəmməd Məmişov (50 kq), Məhəmməd Musayev (60 kq), Əbil Yusubov (66 kq) gümüş, Mirxaliq İskəndərov (55 kq), Süleyman Şükürov (73 kq) və Ramazan Əhmədov (90+) isə bürünc medal əldə ediblər.

## Tələbə idmançılarımızın yeni medalları

**Rusiyanın Yekaterinburq şəhərində keçirilən Beynəlxalq Universitet İdman Festivalında Azərbaycan idmançılarının çıxışı davam edir.**




Gənclər və İdman Nazirliyindən "Xalq qəzeti"nə bildirilib ki, Azərbaycan üzgüçüsü Ramil Vəlizadə 200 metr batterflyay üsulunda üzmədə gümüş medal qazanıb. Sambo idman növündə isə Adil Adilzadə (79 kq) üçüncü yeri tutub.

Bununla da, komandamızın əldə etdiyi medalların sayı 22-yə çatıb (3 qızıl, 6 gümüş, 13 bürünc medal).

Qeyd edək ki, avqustun 31-dək davam edəcək yarış Yekaterinburq şəhərinin 300 illik yubileyinə həsr edilib. 36 ölkədən müxtəlif universitetlərin tələbələri 14 idman növündə qüvvələrini sınayırlar.

Festivalda Azərbaycanı 10 təhsil ocağından 54-ü kişi 15-i qadın olmaqla 69 idmançı təmsil edir. Təmsilçilərimiz 8 idman növündə - badminton, stolüstü tennis, boks, güləş, taekvondo, futzal, üzgüçülük və sambo üzrə yarışırlar.

***Leyla SABİRQIZI, "Xalq qəzeti"***

**Texnologiya yenilikləri**



## Süni intellekt bizi 97 faiz başa düşür

***Neyroşəbəkələrdə səsin tanınması və NLP (neyro-linqvistik proqramlaşdırma) elə bir mərhələyə çatıb ki, səs köməkçiləri real insanları və ya mətn axtarışını əvəz edir. Bu sahənin inkişafına Google, Apple və Amazon getdikcə daha çox vəsait yatırır.***

Bu gün səs köməkçiləri lazım olan məlumatları axtarır, trek və podkastları işə salır, xatırlatmalar qurur və nömrələri yığır. Səsli naviqasiyadan isə dronları idarə etmək üçün istifadə olunur və səsli axtarışlar canlı məsləhətçiləri və zəng mərkəzi operatorlarını əvəz edir.

"Google"nin hesabatına görə, dünyada insanların 27 faizi smartfonlarda səsli köməkçilərdən istifadə edir. Onların 47 faizi axtarış etmək, 46 faizi xəbərləri dinləmək, 34 faizi isə ünvan istəmək və ya istiqamət almaq üçün yararlanır. Google iddia edir ki, 62 faiz istifadəçi onlayn məhsullar sifariş edir.

Bildirilir ki, hər il səsli köməkçilər süni intellekt sayəsində daha "ağıllı" olurlar. 2013-cü ildə onlar danışıq sözlərinin 77 faizini, bu gün isə 97 faizini tanıya bilirlər. Məsələn, RankBrain alqoritmi yeni axtarış ifadəsi ilə qarşılaşdıqda konkret istifadəçinin nə axtardığını təxmin edir və sonra ən uyğun cavabları qaytarır.

## Avtomobillər "yaşıl enerji"yə keçir

***Bu gün "Yaşıl" hidrogen karbon izlərini azaltmaq və bərpa olunan enerji mənbələrinə keçid üçün qlobal strategiyanın bir hissəsidir. Hidrogen mühərrikli avtomobillər dizel mühərrikli avtomobillərə əsas alternativ kimi nəzərdə tutulub.***



"Yaşıl" hidrogen nüvə enerjisi və təbii qazdan istifadə edilmədən ekoloji cəhətdən təmiz şəkildə istehsal olunur. Ən zərərsiz üsul – elektrolizdir. Bu üsulla məhsul sudan elektrik cərəyanı keçirməklə əldə olunur. "Yaşıl" hidrogen istehsalı nəticəsində il ərzində 830 milyon ton zərərli karbon qazının atmosferə buraxılmasının qarşısı alınacaq.

Beynəlxalq Enerji Agentliyi qeyd edib ki, "yaşıl" hidrogen istehsalı üçün elektrolizdə rekord artım var. Agentlik bildirib: "2030-cu ilə qədər hidrogen yanacağının qiyməti ən azı 30 faiz ucuzlaşacaq və bu yanacaq daha əlverişli olacaq. Beləliklə, hidrogen yanacaqlı avtomobil bazarı 2026-cı ilə qədər ildə 66,9 faiz artaraq 42 milyard dollara çatacaq".

***P.ƏFƏNDİ, "Xalq qəzeti"***

**Sosial şəbəkələrdən seçmələr**

## Mahnı qanadlarında: "Ay Laçın, can Laçın…"

**"Laçın Günü"nün təsis olunması və bu əlamətdar hadisə ilə bağlı həftə sonu dövlət başçısı və birinci xanımın iştirakı ilə işğaldan azad olunmuş Laçında keçirilən təntənəli tədbirlər və atəşfəşanlıq sosial şəbəkələrdə böyük əks-səda doğurub.**



Bununla bağlı "Facebook"da dostluğumda olan AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aynur Familqızının aşağıdakı paylaşımı diqqətimi cəlb etdi. Dilçi-alim "Laçınım"mahnısını xüsusi şövqlə ifa edən qızcığazın məlahətli səsinə heyran qalaraq yazır:

"Ay Laçın, can Laçın, mən sənə qurban, Laçın"

Laçınsız günlərimizi bu ruhu sağlam körpə balamızın həzin, kövrək səsində duymaq, xatırlamaq nə qədər həyəcanlı olsa da, bu gündən gələcəyə baxsaq, bir o qədər hüzurlu, sevincli və qürurludur. Şükür qovuşdurana!

Laçınımızın Günü mübarək!"

Aynur xanım kimi hər bir vətənpərvər ziyalının xalqımızın ictimai-siyasi həyatında baş verən mühüm hadisələrə vətəndaşlıq mövqeyi ortaya qoyması, əlbəttə, təqdirəlayiq haldır. Bu, həm də milli ruha sədaqət, vicdan və mənəviyyat məsələsidir.

***Təqdim etdi: M.HACIXANLI, "Xalq qəzeti"***

## "Nə üçün səni unuda bilmirik?"



**Dünən Azərbaycan muğam və xalq mahnılarının əvəzedilməz ifaçısı Rübabə Muradovanın anım günü idi. Böyük sənətkar 22 mart 1933-cü ildə Ərdəbildə anadan olub, 28 avqust 1983-cü ildə Bakıda dünyasını dəyişib. Yasamal qəbiristanlığında dəfn olunub.**

Rübabə xanımın ruhumuzu oxşayan həzin, kövrək nəğmələri bu gün də səslənir, sevilir, alqışlanır. Onun ifasında "Qaragilə"mahnısı xüsusilə başqa bir aləmdir:

*Gəlmişəm otağına, oyadam səni,*
*Qaragilə, oyadam səni.*
*…Götürüb mən qaçaram aradan səni,*
*Qaragilə, aradan səni…*

Onun nəğmələrində sevgi, nisgil, ayrılıq, həyat və həqiqət var. O, muğamlara ayrı düşdüyü Ərdəbil həsrətinin də qoşub gülüstanına həsrət qalan bülbül tək yanıqlı-yanıqlı oxuyurdu.

Onun ifasında Vətəni ikiyə bölən Araz çayının ahəstə səsi eşidilirdi:

*Ayrı düşdük, aylar ötdü, il oldu,*
*Eşqim sənsiz bir çağlayan sel oldu.*
*Bağça saldım, çiçək açdı, gül oldu,*
*Nə üçün səni bəs unuda bilmirəm?*

Azərbaycan xalqı sizin gözəl, bənzərsiz səsinizi heç vaxt unutmayacaq, əziz Rübabə xanım!

***Zülfiyyə ZİYA, "Xalq qəzeti"***

## "Türk serialları"nın musiqi aləmi

**Heydər Əliyev Sarayında "BN Team Orchestra" simfonik orkestri növbəti dəfə "Türk serialları dünyası" adlı nadir layihə təqdim edib. Qazaxıstanın məşhur orkestrinin ifasında "Möhtəşəm yüz il", "Qara sevda", "Çalıquşu", "Çuxur", "Min bir gecə", "Hərcai" və başqa serialların musiqiləri səsləndirilib.**



Eyni zamanda böyük ekranda sevimli seriallardan ən yaxşı fraqmentlər göstərilib. Konsert tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, bu musiqilər, sadəcə, serialları müşayiət etmir, həm də tamaşaçını ovsunlayan, kino dünyasına aparan və onlara ekran qəhrəmanlarının bütün hisslərini yaşadan və həmişəlik yaddaşlara həkk olan bütöv bir simfoniya aləmidir. Müxtəlif mövzularda lentə alınan ekran əsərlərinin ideyası simfonik orkestr və xor kollektivlərinin ifası ilə daha dərin məna kəsb edir, qəhrəmanların romantik hissləri, həyəcanlı səhnələri qabarıq şəkildə təqdim olunur.

***Fidan SALMANLI, "Xalq qəzeti"***

**Sağlamlıq**

## Qocalmamaq iksiri

***Orqanizmdə Q10 maddəsinin azalması sümükdən tutmuş dəriyə kimi bütün sistemləri sürətlə qocaldır. Bəs bu maddə nədir?***




Endokrinoloq Fərhad Burzu bildirib ki, CoQ10-a hüceyrə mitoxondrisində rast gəlinir və o, hüceyrənin enerji balansının təmin olunmasında rol oynayır.

Q10 antioksidant və antiinflamatuar təsirlərə malikdir, orqanizmdə ən çox ürək, böyrək və qaraciyər kimi yüksək metobolizm sürətinə malik orqanlarda rast gəlinir.

Endokrinoloq CoQ10-nun 4 formasını – ubixinon, ubixinol, hidroksikoenzim Q10, super ubixinolun olduğunu deyib. Həkim CoQ10-nun orqanizmdə azalma səbəblərini göstərib. Bunlar yaş, ürək-damar xəstəlikləri, revmatoloji xəstəliklər, şəkərli diabet, Alzheimer, Parkinson, statin istifadəsi, alkoqol və siqaretdir.

Q10 çatışmazlığının əlamətləri xroniki yorğunluq, oynaq və əzələ ağrıları, miqren ağrıları, yaddaşsızlıq, depressiya ola bilər.

Endokrinoloqun fikrincə, insan orqanizmin CoQ10 ehtiyacını gündəlik menyusunda qırmızı ət, qaraciyər, balıq, yumurta, lobya, mərcimək, gül kələm, ispanaq, portağal və çiyələkdən istifadə etməklə ödəyə bilər.

***Z.HÜSEYNLİ, "Xalq qəzeti"***

**Proqnoz**

## Əksər yerlərdə yağış yağacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən **avqustun 29-da Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-qərb küləy əsəcək, axşama doğru arabir güclənəcək. Gecə 20-24°, gündüz 27-32° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 45-55 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 25-30°, dağlarda gecə 8-13°, gündüz 13-18° isti olacaq.

***Q.QASIMOV, "Xalq qəzeti"***

## Sürücüyə salam verəndə...

**İngiltərədə aparılan araşdırmalardan məlum olub ki, sərnişinlərin əksəriyyəti avtobus sürücülərinə salam verərkən özlərini çox yaxşı hiss edirlər.**



Avtovağzalda 116 sərnişin arasında aparılan sorğuda 84 nəfər sürücü ilə səmimi ünsiyyət qurmağın onlara müsbət təsir etdiyini deyiblər.

Sərnişinlərin 25 faizindən az hissəsi isə sürücünü salamlamağın onlar üçün o qədər də önəmli olmadığını bildirib.

Sussex Universiteti və London Nəqliyyatı tərəfindən həyata keçirilən bu pilot layihədən bir daha bəlli olub ki, insanlar xüsusi həvəsləndirici nişanı olan avtobus sürücülərini daha çox yaxşı tanıyır və onlara salam verirlər.

Layihə çərçivəsində Londonun qərbində yerləşən Hammersmis rayonu boyunca 150-dən çox avtobusun sürücü kabinəsinin qapısında və çıxış qapılarında "salam" və ya "təşəkkür" sözü yazılan işarələr quraşdırılıb.

***F. HÜQUQQIZI, "Xalq qəzeti"***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5168
SİFARİŞ 2181
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00